Xalqın qəzeti!

# Xalq qəzeti

№ 44 (30448) 27 fevral 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Biz Xocalıya qayıdacağımıza inanırdıq...

### 30 il yox, 300 il keçsə də, bu faciə unudulmayacaq




Səhifə ⇨ 2

## Xocalı – güclü olmağımızı diktə edən faciə

**Azərbaycan xalqı "əsrin faciəsi" sayılan Xocalı soyqırımının 32-ci ildönümünü qeyd etdi. Bu dəfə fərqli ab-havada. Artıq Xocalı dərdi yaddaşımızdakı niskil deyil. Uzun illərdən sonra niskilsizlik yaşantısı ovqatımızı təzələyir. Artıq torpağına, daşına, qayasına toxuna biləcəyimiz, havasını uda, suyunu içə biləcəyimiz Xocalımız var. Ancaq bu yaşantı toxtaqlıq gətirmir. Yalnız niskili unutdurur. Qəmimiz də, qüssəmiz də, acımız da, kədərimiz də susmaq bilmir.**

Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil aldığım illərdə fevralın 26-sı günü, adətən, ilk dərs Xocalıya həsr olunardı. Heç yadımdan çıxmaz, Avropa və Amerika xalqları tarixi fənnini tədris edən Rövşən Hətəmov özünün şahidi olduğu bir hadisəni danışmışdı. Olayın qəhrəmanı dərsə davamiyyəti zəif bir tələbə idi. Rövşən müəllim həmin tələbəni ölkədən, dünyadan xəbərsiz biri kimi təqdim edəndə təəccüblənmişdik. Necə ola bilər ki, müəllim belə bir şəxs haqqında Xocalı barədə danışanda söz açır, – deyə öz-özümüzə sual da vermişdik. Amma tezliklə bütün daşlar yerinə oturdu.

Rövşən müəllim Xocalı faciəsi ilə bağlı universitetdə, o cümlədən, tarix fakültəsində bəzi görüntülərin yayıldığını bildirmişdi. Əlbəttə, söhbət rəhmətlik Çingiz Mustafayevin lentə aldığı dəhşət səhnələrindən gedir. Müəllimimizin həmin gün necəsə dərsdə olan tələbənin o görüntülərə baxdıqdan sonra ona yaxınlaşıb sual verdiyini təsvir etdi. Təxminən belə: bunu ermənilər ediblər? Bu ölənlər bizimkilərdir? Rövşən müəllim deyirdi ki, həmin tələbəyə vəziyyəti izah etməyi ilə onun dekanlığa qalxmağı bir oldu. Qalxdı və ərizəsini yazıb könüllü şəkildə müharibəyə getdi. Getdi və cəmi bir ay sonra həlak oldu.

Həmin an auditoriyanı dərin sükut bürüdü. Hamınız donub qaldıq. Nə edək, bizdəmi gedək ölək? Ümumən, niyə yaşayırıq? Nə üçün? Suallar çox idi. Həmin gün Xocalı kimi dəhşətin olduğu bir şəraitdə yaşamağın haram olduğunu anladıq. Rövşən müəllim son dərəcə incə şəkildə, heç bir pafosa yol vermədən acı reallığı ortaya qoymuşdu...

Bəli, illərlə bu reallıqla yaşadıq. Düşmənlərimiz Qarabağımızı – Şuşanı, Laçını, Kəlbəcəri, Xankəndini, Ağdərəni, Füzulini, Zəngilanı, Qubadlını, Ağdamı, o cümlədən, Xocalını da unudacağımızı zənn etdilər. Hesablar qurdular – beş, on, iyirmi, otuz ildən sonra Azərbaycan insanı işğal mövzusuna necə yanaşacaq? Ancaq onların bütün hesabları alt-üst oldu. İnsanlarımız heç nəyi unutmadılar. Elə Xocalını da...

Hər dəfə yaramıza duz basdıq ki, Xocalı dəhşətini unutmayaq. 44 günlük müharibə başa çatdıqdan və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərinə görə, Ağdamın, Kəlbəcərin və Laçının bizə keçəcəyini bildikdən sonra hamı düşündü: bəs Xankəndi? Bəs Xocavənd, bəs Ağdərə və nəhayət, bəs Xocalı? Prezident İlham Əliyev əbəs yerə demir ki, nəyi nə vaxt və necə edəcəyini hamıdan yaxşı bilir. Elə də oldu. Xocalı 2023-cü ilin sentyabrında reallaşdırdığımız lokal xarakterli antiterror tədbirləri nəticəsində bizim oldu. Məhz antiterror tədbirlərinin uğuru Xocalı niskilimizi aradan qaldırdı. Ardınca yaşananlar da məlumdur.

Bəli, haqq-ədalət öz yerini tutur. Bu gün Xocalı qatillərinin, canilərinin bir qismi Bakı həbsxanalarındadır. Əlbəttə, daha böyük canilər – Ermənistanın keçmiş prezidentləri Serj Sarkisyan və Robert Koçaryan kimi Xocalı cəlladlarının da onların sırasına qoşulacağına əminik. Çünki haqqın və ədalətin tam təcəllisinə inanırıq. Xocalının bizim olacağına inandığımız kimi.

Xocalı unudulmamalıdır, çünki tarixdir – qanla yazılmış tarix. Xocalı ermənilərin azərbaycanlıların, türklərin başlarına gətirdikləri faciə yaşantısındakı davamlılığın göstəricisidir. Məqsəd bəllidir – Cənubi Qafqaz coğrafiyasından türk, azərbaycanlı izini tamamilə silmək. Elə Xocalı cəlladları da bunu düşünmüşdülər. Bizi bir millət olaraq məhv etmək idi istəkləri. Mənfur sələflərinin işini davam etdirmək "niyyətinə" köklənmişdilər.

Xocalı həm də ona görə unudulmamalıdır ki, bu faciə bizim üçün dövlətsizliyimizin acı nəticəsidir. Adı olub, özü olmayan dövlətimiz, zəif düşməyimiz düşmənə




fürsət vermişdi ki, bizi cəzalandırsın. Cəzalandırdı da. Deməli, bundan sonra zəif düşməməliyik. Həmişə güclü olmalıyıq ki, cəzalanmayaq. Düşmən bizi cəzalandırmaq üçün fürsət tapmamalıdır. Nəinki tapmamalı, heç fürsət axtarmağı belə ağlından keçirməməlidir.

Qarabağ müharibəsinin ideya rəhbərlərindən olan yazıçı Zori Balayan "Ruhumuzun canlanması" kitabında Xocalıda soyqırımı haqqında belə yazır: "Xocalını ələ keçirdiyimiz zaman bir evə girdik. Xaçatur adında bir əsgərimiz 13 yaşlı bir türk (Azərbaycan) uşağını pəncərəyə mismarladı. Türk uşağı çox səs-küy salırdı. Xaçatura dedim ki, onun səsini kəs. Xaçatur isə anasının döşünü kəsib balasının ağzına tıxadı. Mən ixtisasca həkim olduğum üçün üstümdə olan tibb bıçağı ilə uşağın başının, sinəsinin, qarnının dərisini soydum. Saata baxdım. 13 yaşlı uşaq 7 dəqiqədən sonra öldü. Ruhum sevinclə qürrələndi. Xaçaturla mən uşağın meyitini hissə-hissə doğradıq, tikələri itlərə atdıq və eyni şeyi daha üç türk uşağına qarşı etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bildim ki, hər bir erməni bizim etdiklərimizlə fəxr edəcək".

Bu gün Xocalı da digər torpaqlarımız kimi azaddır. Zori balayanların iyrənc ruhlarını ərazilərimizdən söküb atmışıq. Ancaq bunları emosiyasız oxumaq olmur. Deməli, Xocalı yalnız Azərbaycan xalqının dərdi deyil, ümumbəşəri mahiyyət daşıyan faciədir. Yəni, biz Xocalının soyqırımı kimi tanınmasını istəyərkən, yalnız öz xalqımızın üzləşdiyi bəlaya diqqət çəkmirik. Xocalıya ədalət istəyi bəşəri missiyadı. Xocalı cəlladlarını cəzalandırmaq da həmçinin. Özü də onlar ən sərt şəkildə cəzalandırılmalıdır. Cəzalandırılmalıdır ki, insanlıq əleyhinə cinayətlərin həyata keçirilməsi normaya çevrilməsin.

***XQ-nin analitik qrupu***

## Azərbaycan "Orta Dəhliz"in önəmli ölkəsidir




Səhifə ⇨ 11

## Bakı Təşəbbüs Qrupu "Asiyanın ürəyi"ndə köləliyə nifrət oyatdı

**Heç kəsin yadından çıxmayıb. Bir neçə il əvvəl Türkiyə Cümhuriyyəti rəhbərliyinin təşəbbüsü ilə keçirilən "İstanbul – Asiyanın ürəyi" adlı beynəlxalq konfrans sonralar eynilə "Bakı prosesi" kimi Avrasiyanın müxtəlif paytaxtlarına yol açmışdı. Həmin tədbirlərdə Əfqanıstan problemi, Fələstin münaqişəsi və Şərq ölkələrinin hansınısa narahat edən, daha doğrusu, həllini gözləyən müşküllər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdi.**



Sonra bu şəhərdə təşkil olunan "Qüds: Vəhyin müqəddəsləşdirdiyi şəhər" mövzusunda beynəlxalq konfrans İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin hamısının böyük marağına səbəb olmuşdu. Biz məmnunuq ki, Azərbaycan həm "Asiyanın ürəyi" konfransında, həm də Qüdslə bağlı beynəlxalq müzakirələrdə kifayət qədər fəal iştirak etmişdir.

Son günlər isə qardaş ölkənin bu qaynar ictimai-siyasi proseslərlə zəngin olan şəhərində Bakı təşəbbüs qrupunun fəaliyyətinin beynəlmiləlləşdirilməsi istiqamətində möhtəşəm addım atılmışdır. Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəsi altında yaşayan xalqlarla həmrəyliyini ifadə edir, onların azadlığı və müstəqilliyi uğrunda mübarizəsinə hər zaman dəstək verəcəyini bildirir. Bu mübarizəyə dəstək məqsədi daşıyan qrup ötən il iyulun 6-da Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin nazirlər toplantısı çərçivəsində yaradılıb. Kütləvi informasiya vasitələrinin yazdığı kimi, üç gün əvvəl İstanbulda bilavasitə adı çəkilən qrupun təşkilatçılığı ilə "Dekolonizasiya: İntibah dövrünün başlanğıcı" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Bu, həmin qrupun yeddinci tədbiri idi.

**(ardı 5-ci səhifədə)**

## Rusiya Ermənistana iqtisadi təzyiqə keçsə...




Səhifə ⇨ 4

## Yeni dünya nizamı və Türkiyə



Səhifə ⇨ 15

## Əgər feministlər bu rejimə baş əyirsə...



Səhifə ⇨ 6

## Fermerlərə göstərilən xidmətlər onlara uğur qazandırır



Səhifə ⇨ 13

# Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb

**Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı əvvəlcə mərasim iştirakçıları ilə görüşdü.**



**Qadın sakin:** Xoş gəldiniz. Allah Sizi qorusun, cənab Prezident. Həyatımızın ən xoşbəxt günüdür.

**Sakinlər:** Var olun, cənab Prezident, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- İlk dəfədir ki, Xocalı soyqırımı gününü biz Xocalıda günahsız Xocalı qurbanlarının xatirəsini anaraq qeyd edirik. Otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq. Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün bu gün burada - 26 fevral günündə memorial kompleksin təməli qoyulacaq. Onu bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdir. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım. Ona görə ki, sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq. Otuz iki ildən sonra siz qayıtmısınız. Otuz iki ildən sonra - o qanlı faciədən sonra biz Azərbaycanın hər bir guşəsində, Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir.



Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək. Heç vaxt Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq. Otuz iki il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək günahsız insanları qətlə yetirmişdir. 613 insan vəhşicəsinə qətlə yetirilmişdir, 150 insan itkin düşmüşdür, - təbii ki, onların da taleyi bəllidir, - 1000-dən çox insan girov götürülmüşdür, 60-dan çox uşaq, 100-dən çox qadın, yaşlı 70 insan erməni vəhşiləri, faşistləri tərəfindən vəhşicəsinə bir gecə içində qətlə yetirilmişdir.

Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır.

Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərmişdir. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində özünü göstərmişdir, bir çox tədbirlər, təqdimatlar həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Yəni, biz bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün bir çox səylər göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın.

Biz onilliklər ərzində çalışırdıq, xüsusilə son illər ərzində çalışırdıq ki, bu qanlı cinayəti törədənlər ədalət qarşısında cavab versinlər. Ancaq görürdük ki, bu ədaləti ancaq biz özümüz bərpa etməliyik və bunu etdik. İkinci Qarabağ müharibəsi ədalətin təntənəsi idi. İkinci Qarabağ müharibəsi nəticəsində o vaxt işğal altında olan torpaqların böyük hissəsi azad edilmişdir, işğal altında qalan ərazilər beş ay bundan əvvəl azad edilmişdir.

Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi sevinmisiniz. Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Beş ay əvvəl antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər - hansılar ki, işğal altında idi və separatçılar orada at oynadırdılar, - azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik.

"Xocalıya ədalət!" tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq qoymadıq ki, onların qanı yerdə qalsın. Düzdür, buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradırdı.

O vaxt - işğal dövründə mənim köçkünlərlə, - bu gün keçmiş köçkünlər adlandırılır, köçkün anlayışı artıq tamamilə silinib bütün bizim vətəndaşlarımızdan, - çoxsaylı görüşlər əsnasında hər dəfə onlara deyirdim ki, gün gələcək və biz bütün torpaqlarda Azərbaycan Bayrağını qaldıracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Yüzdən çox köçkün qəsəbəsi salınmışdır və köçkün qəsəbələrinin hamısının açılışlarında mən iştirak etmişəm. Birinci köçkün qəsəbəsi o vaxt ulu öndər Heydər Əliyevin iştirakı ilə məhz xocalılılar üçün Ağcakənd qəsəbəsində salınmışdır və o vaxt bizim o qədər də böyük maliyyə imkanlarımız yox idi. Ancaq olan-qalan vəsait də bax o məqsədlər üçün istifadə olundu və bu, bir yol göstəricisi idi. Yəni, Ulu öndər hamımıza göstərmişdi ki, biz ağır vəziyyətdə yaşayanlar üçün gərək şərait yaradaq.

Eyni zamanda, bizim əsas məqsədimiz torpaqların azad edilməsi idi və o vaxt köçkünlərlə çoxsaylı görüşlər əsnasında deyirdim ki, bu şərait yaradılır, bu şərait yaxşıdır, - çadır şəhərcikləri, bilirsiniz ki, sonuncusu 2007-ci ildə ləğv edildi, - ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra ondan daha yaxşı şərait yaradılacaq sizin doğma torpaqlarınızda və bu gün biz bunu görürük. Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək, o cümlədən bu yaxın yerlərdə yerləşən Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək, Ağdam şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yəni quruculuq işləri geniş vüsət alıb.

Xocalıya gəldikdə isə biz sentyabrın 20-də öz suverenliyimizi tam bərpa edəndən sonra dərhal göstəriş verdim ki, ilk növbədə, Xocalıda xocalılıların evləri bərpa edilsin. Çünki mənfur düşmən qanlı soyqırımı törətmişdir, xocalılıları öz doğma torpağından didərgin salmışdır. Üstəgəl Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün, xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir.

Biz Xocalı soyqırımını heç vaxt unutmayacağıq. Yenə də deyirəm, biz həm İkinci Qarabağ müharibəsi zamanı, həm antiterror əməliyyatı zamanı qisasımızı cinayətkarlardan aldıq, onları məhv etdik, Ermənistan ordusunu məhv etdik və iki dəfə kapitulyasiyaya imza atmağa məcbur etdik. Biz onlardan fərqli olaraq dinc əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu hər kəs görür və bilir. Həm 2020-ci ildə, həm keçən ilin sentyabr ayında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır və bunu hər kəs bilir və heç kim bizə heç bir irad tuta bilmir. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Halbuki hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt 1990-cı illərin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında böyük qüvvələr dayanmışdır. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, biz rəhm edək, amma onlar bizə rəhm etdilərmi ki?

Yenə də deyirəm, bütün bunlar təbii bizim fikirlərimizdir, duyğularımızdır. Yenə də deyirəm, biz qisasımızı aldıq, biz həm 44 günlük İkinci Qarabağ müharibəsi ərzində, həm birgünlük antiterror əməliyyatı zamanı böyük peşəkarlıq, qəhrəmanlıq, fədakarlıq göstərmişik. Bizim övladlarımız ölümə gedirdilər ki, bu torpaqları işğalçılardan azad etsinlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Sakinlər:** Allah rəhmət eləsin, amin.

**Prezident İlham Əliyev:** Silahlı qüvvələrimiz böyük peşəkarlıq, cəsarət göstərmişdir. Bütün dünya bunu görür və xüsusilə bu gün dünyanın müxtəlif yerlərində baş verən hadisələr, müharibələr, qanlı toqquşmalar bir daha onu göstərir ki, Azərbaycan Ordusu həm peşəkardır, həm vətənpərvərdir, həm bacarıqlıdır, həm də eyni zamanda, əməliyyatları elə aparır ki, qısa müddət ərzində həlli mümkün olmayan kimi sayılan əməliyyatlar aparılmışdır, onlardan da biri, bəlkə də birincisi Şuşa əməliyyatıdır.

Bu gün isə biz buradayıq, burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur, indi gedib quruculuq işləri ilə tanış olarıq. Bütün digər ərazilərdə quruculuq işləri aparılır və bu gün burada Xocalı Soyqırımı Memorialının təməli qoyulacaqdır. Xocalı qurbanlarının bu gün ruhu şaddır, Allah onlara rəhmət eləsin.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Onların əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Sağ olun.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına Xocalı Soyqırımı Memorialı barədə məlumat verdi.

Bildirildi ki, Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.

Memorial müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar yer alacaq. Memorialda Xocalının coğrafi mövqeyini təsvir etmək məqsədilə rayonun maketi də yer alacaq.



Ziyarətçilər memorialda soyqırımı qurbanlarının və şahidlərinin hekayələri, xocalılıların düşmənə qarşı mərdliyi ilə tanış ola biləcəklər. Bu hekayələr Xocalı soyqırımının miqyasını, faciə qurbanlarının iztirablarını hər bir kəsə ötürərək, Azərbaycan tarixinin ən dəhşətli səhifəsi barədə məlumatları çatdıracaq.

Memorialda, həmçinin faciə ilə bağlı sənədli filmlər, Xocalı həqiqətləri barədə videomateriallar nümayiş olunacaq. Eyni zamanda, Xocalının işğaldan azad olunması və cinayətkarların cəzalandırılması istiqamətində görülən tədbirlər barədə məlumatlar yer alacaq. Maarifləndirici materiallar, rəqəmsal məzmun vasitəsilə soyqırımı kimi faciələrin səbəbləri, nəticələri, qarşısının alınmasının zərurəti, cəmiyyətin insan haqlarına hörmət etməsinin vacibliyi diqqətə çatdırılacaq.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilən Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 Xocalı sakini qətlə yetirilib. Bu faciə ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində həmişə bir vəhşilik aktı kimi yadda qalacaq.

Heydər Əliyev Fondu yarandığı 2004-cü ildən etibarən Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində dövlət tərəfindən görülmüş tədbirlərə dəstək olaraq bir sıra layihələr həyata keçirib. 2008-ci ildən isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir. "Xocalıya ədalət!" kampaniyasının sistemli fəaliyyətinin nəticəsidir ki, dünyanın bir sıra ölkələri Xocalıda ermənilər tərəfindən törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qərar və qətnamələr qəbul edib.

Tarixi Zəfərimizdən sonra Azərbaycan xalqı bu dəhşətli soyqırımının ildönümünü artıq fərqli şəkildə anır. Ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən azad edilməsi nəticəsində Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətən uğrunda həlak olmuş digər şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı. Qanlı faciənin törədildiyi Xocalıda yaradılacaq Soyqırımı Memorialı isə faciə qurbanlarının, Vətənin müdafiəsi uğrunda həlak olan qəhrəmanlarımızın xatirəsinə ehtiram olmaqla yanaşı, bu qətliam barədə həqiqətlərin dünyaya çatdırılmasına və tariximizin yaşadılmasına xidmət edəcək.

*

Dövlətimizin başçısı Xocalı Soyqırımı Memorialının təməlini qoydu.

*

Təməlqoymadan sonra memorial kompleksin maketinə baxan **Prezident İlham Əliyev dedi:** Ortadakı bağ, yəni, həyat deməkdir.

**Anar Ələkbərov:** Elədir ki var, cənab Prezident. Həmin kapsul kompleksin içində olacaq.

*

**Sakinlər:** Çox sağ olun, cənab Prezident. Sizə uğurlar.

**Kişi sakin:** Sizə təşəkkür edirik, cənab Prezidentimiz. Otuz iki il öncə biz Xocalıdan məğlub çıxmışdıq, soyqırımına məruz qalmışdıq. Otuz iki ildən sonra biz Xocalıya qalib olaraq gəlmişik və bu qalibiyyəti bizə qazandıran Siz olmusunuz. Sizin rəhbərliyiniz, Sizin sərkərdəliyiniz, Sizin müdrik siyasətiniz biz xocalılılara, bütün Azərbaycan xalqına, bütün Türk dünyasına bu Qələbəni qazandırıb. Var olasınız, bütün xocalılılar adından Sizi öpürük, bağrımıza basırıq. Təşəkkür edirik, cənab Prezident, var olasınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Cənab Prezident, bir şəhid övladı kimi, biz də Sizə minnətdarıq bütün şəhid övladları adından. Mənim atam Xocalı soyqırımı zamanı ermənilər tərəfindən əsir götürülüb, özünümüdafiə batalyonunun döyüşçüsü olub. Onun sonrakı taleyi haqqında bu gün də bizim heç bir məlumatımız yoxdur. Məhz Sizin kimi bir sərkərdə ilə bu gün biz Xocalı soyqırımının 32-ci ildönümündə bu torpaqları ziyarət etmək, o məzarsız şəhidlərimizin sanki məzarını ziyarət etmək qədər müqəddəs bir missiyadır. Xüsusilə Sizin ötən il oktyabrın 15-də, yəni Prezidentliyinizin 20-ci ilinin tamamında məhz Xocalıda Bayraq ucaltmağınız onu bir daha sübut etdi ki, bu neçə ildə ürəyiniz məhz Xocalıdan olan şəhid ailələri ilə birgə döyünür. Biz Sizə hər zaman minnətdarıq, Allah Sizi qorusun, Ordumuzu qorusun. Bütün şəhid övladları adından Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Kişi sakin:** Cənab Prezident, bizim ailəmiz 1996-cı il fevralın 24-nə qədər tamamilə ümidini itirmişdi ki, bir daha nə Xocalını, nə də Qarabağı görməyəcəyik. 1996-cı il fevralın 24-də Ümummilli Liderimiz, böyük sərkərdəmiz, dünyaşöhrətli Heydər Əliyevimiz bizimlə - Xocalının şəhid ailələri, ziyalıları ilə görüş təyin etdi.

**(ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb





(əvvəli 2-ci səhifədə)

Orada bizi əmin etdi ki, bir qarış torpağımızı da işğal altında qoymayacağıq. Onda demişdi ki, mən İlham Əliyevə özüm qədər inanıram. Onda mən hiss etdim ki, bu, onun gələcəyə verdiyi bir mesaj idi. O inanırdı ki, Ali Baş Komandanımız, cənab Prezident bunun öhdəsindən Siz gələcəksiniz, bunu Siz yerinə yetirəcəksiniz. Sizə böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, bu gün bu şərəfi, bu şöhrəti bizə qazandırdınız. Çox sağ olun. Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun. Çox sağ olun.

**Kişi sakin:** Cənab Prezident, bu gün diqqətinizə çatdırmaq istəyirəm ki, mən "Azərbaycan Bayrağı" ordenli həkiməm. 1994-cü ildə məhz Ulu öndərin fərmanı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşəm. 1996-cı ildə həmin ordeni mənə şəxsən özü təqdim edən vaxt mən xocalılıların bir arzusunu çatdırmışdım ki, kaş o gün olsun, torpaqlarımız azad edilsin və biz Sizinlə Xocalıda görüşə bilək. Həmin gün bu günə təsadüf edir. Ulu öndərin daxili və xarici siyasətini çox uğurla davam etdirən məhz Sizin sayənizdə bu gün doğma, azad Xocalımızdayıq. Çox sağ olun, var olun. Allah Sizi qorusun.

**Kişi sakin:** Cənab Prezident, vaxtınızı çox almayaq. Bütün xocalılıların Ulu öndərimiz qarşısında verdiyi bir vəd var. Mən vermişəm o vədi Ulu öndərimizə. Mən demişdim ki, cənab Prezidentimiz, Sizin rəhbərliyinizlə biz torpaqlarımızı işğaldan azad etdikdən sonra Xocalının ən dəyərli, görkəmli bir yerində Sizin abidənizi ucaldacağıq. Cənab Prezidentimiz, Sizdən çox xahiş edirik, necə ki, bax, bu yeri uğurla seçmisiniz, Xocalının ən dəyərli bir yerində Ulu öndərimizin abidəsini ucaltmağı bütün xocalılılar adından Sizdən xahiş edirik.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakinlər:** Çox sağ olun, təşəkkür edirik.



*

Sonra Prezident İlham Əliyev sakinlərlə birlikdə Xocalı şəhərində aparılan tikinti işləri ilə tanış oldu.

**Qadın sakin:** Xocalı hadisələrinin canlı şahidi kimi Sizə minnətdarlığımızı bildiririk ki, Xocalı torpağına Sizinlə birlikdə ayağımız dəyir. Hələ 1997-ci il fevralın 25-də Ulu öndərimiz, mərhum Prezidentimiz Heydər Əliyev mənə yoldaşımın "Qızıl ulduz" medalını şəxsən özü təqdim etdi. O vaxtdan 27 il keçir. Bu gün də şadam ki, Sizinlə Xocalı torpağında görüşürəm. Allah Sizə ömür versin, cansağlığı versin, eşq olsun Müzəffər Ordumuza, eşq olsun Sizə, Ali Baş Komandan!

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

**Digər qadın sakin:** Əminəm ki, qədirbilən xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaq. Tariximizin qızıl səhifəsi daim yaşayacaq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin.

**Sakinlər:** Amin.

*

Dövlətimizin başçısı və Xocalı rayon ictimaiyyətinin nümayəndələri daha sonra Xankəndi şəhərində oldular.

**Sakin:** Sizin bütün çıxışlarınızın hamısını zabit və əsgərlərə çatdırırdım. Hərdən mənə deyirlər ki, Birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsi arasındakı fərq nə idi? Mən də deyirdim, fərq bir dənə yalnız o idi ki, bizim qətiyyətli Ali Baş Komandanımız var və əsgərlər, xalq ona inanır. Xalq bir yumruq kimi birləşdi və necə deyərlər, "Dəmir yumruq" onların başında çatladı. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Çox sağ ol.

**Gənc sakin:** Cənab Prezident, biz gənclər olaraq Sizə böyük minnətdarlığımızı bildiririk. İnşallah, biz gənclər də gələcəkdə buraya, yurdumuza gəlib hərəmiz öz sahəmiz üzrə yaşayıb-yaradacağıq.

**Qadın sakin:** Cənab Prezident, mən şəhid qızıyam. Yəni, həmin 613 nəfərdən biri də mənim atamdır. "İgidliyə görə" medalı ilə təltif edilib. Mən atamın cəsədini axtararkən meyitlərin üz-gözü dəyişilmiş vəziyyətdə idi. Mənim 19 yaşım var idi, Tibb Universitetində üçüncü kursda oxuyurdum. Biz qan içində ağlaya-ağlaya çıxdığımız torpaqlara, bu gün sevinə-sevinə gəlmişik. Görürsünüzmü, təbiət də öz müjdəsini verir. Bu gün bizim tədbirimizin konteksti də nikbin notlar üzərində qurulub. Biz Sizə təşəkkür edirik. Siz Sərkərdəmizsiniz. Xalq-Ordu-Prezident vəhdəti ilə biz 44 günlük müharibədə düşmənin belini qırdıq və diz çökdürdük. Siz qalib ölkənin qalib Liderisiniz. Siz bizim əvəzolunmaz yuxularımızı gerçəkləşdirdiniz. Biz buna görə Sizə minnətdarıq. İnanıram ki, bu gün o şəhidlərimizin ruhu şaddır. Sizə olan sonsuz minnətdarlığımı ifadə edə bilmirəm. Azərbaycanın itirilmiş torpaqlarını azad edən Sərkərdəmizsiniz.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bu diyarın, bu bölgənin artıq yeni, parlaq tarixi var, o da 20 sentyabr - Xocalının, Xankəndinin azad olunması günüdür. 26 fevral dəhşətli, faciəvi bir gün kimi heç vaxt bizim yaddaşımızdan silinməyəcək. Amma artıq siz də qeyd etdiyiniz kimi, təbiət də sözünüzə qüvvət verir, 20 sentyabr artıq bu bölgənin əsas azadlıq və bayram günüdür.

Sakinlər: Allah Sizi var eləsin, Allah Sizi qorusun. Biz bilirdik ki, Siz torpaqlarımızı işğal altında qoymayacaqsınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

*

Dövlətimizin başçısı həm Xocalıda, həm də Xankəndidə sakinlərlə xatirə şəkilləri çəkdirdi.

## Prezident Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da saat 17.00-da Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib.**

**AZƏRTAC**

## Qardaş həmişə qardaşın yanındadır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı yubileyi münasibətilə təbrik edib, Türkiyənin rifahı naminə fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə dövlətinin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan Prezidentinə və xalqına başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı İlham Əliyevin prezident seçiləndən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsinin önəmi bir daha qeyd edilərək, bu səfərin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.

Dövlət başçıları Şuşa Bəyannaməsinin əhəmiyyətinə bir daha toxunaraq, bu Bəyannamənin uğurla həyata keçirilməsindən məmnunluqlarını bildiriblər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildiriblər, əməkdaşlığın perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

**Prezidentin Mətbuat Xidməti**

## Prezident Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün sosial şəbəkə hesablarında Xocalı faciəsinin 32-ci ildönümü ilə bağlı paylaşım edib.**

Paylaşımda "26 fevral 1992. Xocalı soyqırımı" sözləri yer alıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımı ilə bağlı paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Xocalı soyqırımı ilə bağlı paylaşım edib.**

Paylaşımda "Xocalıya ədalət" şüarı yer alıb.

## Dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər



**Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar fevralın 26-da Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər.**

Dövlət və hökumət rəsmiləri soyqırımı abidəsinin önünə gül dəstələri düzərək, faciə qurbanlarının əziz xatirələrini ehtiramla anıblar.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan edib. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

## DTX-nin əməkdaşları anım mərasimində



**Bəşər tarixinin ən qanlı faciələrindən olan Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Bakı şəhərinin Xətai rayonunda soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər.**

Abidənin önünə gül dəstələri düzülmüş, faciə zamanı həlak olanların əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

# Rusiya Ermənistana iqtisadi təzyiqə keçsə...

## Onda vəziyyətin özü "rusca" olacaq

**Qərbi Rusiyanı Ermənistanın köməyi ilə Cənubi Qafqaz regionundan sıxışdırıb çıxarmaq siyasətində ittiham edən Rusiya rəsmilərinin bəyanatlarının səbəbi nədir? Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyünü "dondurması" ilə bağlı bəyanatının hansı məqamları var və bu, nəyə gətirib çıxara bilər? Bu kimi məsələlərlə bağlı Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin Beynəlxalq və ictimai hüquq kafedrasının dosenti, politoloq İqor Semenovski Ermənistanın VERELQ Analitik İnformasiya Mərkəzinin suallarını cavablandırıb.**



İ.Semenovski bildirib ki, Rusiyanın yüksək rütbəli məmurlarının bəyanatları son illər Ermənistanda, Gürcüstanda və Azərbaycandakı bir sıra amillərlə bağlıdır. Onun sözlərinə görə, Böyük Britaniyanın, Fransanın, ABŞ-ın, Avropa İttifaqının və digərlərinin Cənubi Qafqazdakı proseslərə necə dağıdıcı təsir göstərməyə çalışdıqlarını görmək üçün uzağa getməyə ehtiyac yoxdur. Əgər Gürcüstan parlamenti dövlətin suverenliyinin qorunmasındakı sabitliyi artırmaq və 2023-cü ildə xarici təsirin şəffaflığı ilə bağlı milli qanunvericilik qəbul etmək istəyirsə, bu, Qərb ölkələrinin fikrincə, söz və media azadlığının pozulmasıdır. Eyni zamanda, ötən əsrin əvvəllərindən və ortalarından ABŞ və Böyük Britaniyada, Avropa İttifaqında xarici agentlərlə bağlı oxşar və daha sərt qanunlar da qüvvədədir.

Rusiyalı politoloq bir sıra xarakterik tendensiyaları sadalayıb. O bildirib ki, Avropa ölkələri Azərbaycandakı hakimiyyəti "avtoritar" adlandırırlar. ATƏT ölkədə 2024-cü ilin fevralında keçirilmiş Prezident seçkilərinin legitimliyini şübhə altına alır. Lakin son illərdə Avropa Bakıdan neft və qaz alınmasını gücləndirir. Fransanın və qitənin digər ölkələrinin hakimiyyət orqanları Ermənistanı hər cür şifahi dəstəklə təmin edirlər. Avropa İttifaqının ölkədə monitorinq missiyası fəaliyyətdədir. 2023-cü ilin sentyabr ayının əvvəlində Ermənistan və ABŞ birgə təlimlər keçirdi, ancaq İrəvan bundan bir həftə sonra Qarabağdakı mövqelərini tamamilə itirdi.

İ.Semenovski Cənubi Qafqaz baxımından indiyədək görünməmiş unikal neqativ amil kimi Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulmasını önə çəkib. Onun sözlərinə görə, bu addım İrəvanın Moskva ilə münasibətlərinə problemdən başqa heç nə gətirməyəcək. Politoloq Qərbin bir sıra qeyri-hökumət təşkilatlarının Ermənistanın, Gürcüstanın və Azərbaycanın vətəndaş cəmiyyəti ilə dağıdıcı iş aparmasından da söz açıb. Mövcud xüsusda USAID-in, NED-in, NDI-nın, IRI-nin və digər bu kimi strukturların fəaliyyəti üzərində dayanıb. O, bütün bunları da ABŞ-ın, Aİ-nin və başqa Avropa ölkələrinin regionda öz məqsədlərini güddüklərinin əyani sübutu olaraq göstərib. Məqsəd isə birdir. Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq.

İ.Semenovski bildirib ki, Qərbə regionda sülh və sabitlik lazım deyil. O deyib ki, Rusiya, İran və ya digər güclər isə Cənubi Qafqazda sabitliyi pozmaqda maraqlı olmadıqları üçün "parçala və hökm sür!" siyasətini həyata keçirən Qərbə yalnız xəbərdarlıqlarla kifayətlənirlər. Onlar Cənubi Qafqazın problemlərinin regional oyunçular tərəfindən, süni kənar müdaxilələr olmadan həllini əsas götürürlər. Ancaq, həlelik, mövcud istiqamətdə konkret nəticə yoxdur, yalnız gərginlik var.

Rusiyalı politoloq, bilavasitə, Ermənistan amili üzərində dayanıb və bildirib ki, ölkə ənənəvi olaraq Rusiyanın regiondakı ən sabit müttəfiqi olub. Ermənistan Gürcüstan və Azərbaycandan fərqli olaraq, Avrasiya İqtisadi İttifaqının (AİI) və KTMT-nin üzvüdür və bunun sayəsində bir çox üstünlüklər və güzəştlər əldə edir. Həmçinin, Rusiya ilə Ermənistan arasında əməkdaşlıq strateji xarakter daşıyır. Buna görə də Moskva ölkənin suveren dövlətçiliyinin əsaslarının aşındırılmasına laqeyd yanaşa bilmir.

Siyasi icmalçının fikrincə, artıq gec olsa da, Rusiya anlamağa başlayıb ki, N.Paşinyanın təhlükəsizlik siyasəti sahəsində "şaxələndirmə" ilə bağlı dilə gətirdiyi fikirlər, əslində, ölkənin kursunun dəyişdirilməsi deməkdir. Bəs Rusiya Qərbin planlarını neytrallaşdıra bilərmi? Kreml regionda qalmaq xüsusunda nələri düşünür? Politoloqun sözlərinə görə, Rusiya ilə Qərb ölkələri, ümumən, kollektiv Qərb arasında qarşıdurma dünyanın bir çox regionlarında və müxtəlif formalarda gedir. Cənubi Qafqazda qeyri-regional oyunçuların köməyi ilə sabitliyin pozulması gündəmdədir. Mövcud şəraitdə Rusiya region ölkələri ilə qarşılıqlı əlaqəni gücləndirməlidir. Necə? Politoloq 2023-cü ilin sonunda Rusiya iqtisadiyyatının əsas rol oynadığı Avrasiya İqtisadi İttifaqının İranla azad ticarət zonası haqqında tammiqyaslı saziş bağladığından danışıb. O deyib ki, bu saziş regionun iqtisadiyyatlarının inkişafında sinerjini gücləndirməlidir. Habelə, Ermənistanın AİI-də iştirakı, Rusiyadan sərmayələrin axını və onunla ticarət, həmçinin əsasən Rusiya vətəndaşlarının axını sayəsində İrəvanın iqtisadiyyatı 2022-ci ildə 12,6 faiz, 2023-cü ildə isə 9,4 faiz artıb. Belə olan halda Ermənistanın hazırkı rəhbərliyi xarici siyasət kursunun və paradiqmasının dəyişməsi kontekstində iş aparacaqmı? Hadisələr göstərir ki, rəsmi İrəvanın niyyəti ortadadır.

Bilavasitə Ermənistan – KTMT münasibətlərindən, daha doğrusu, Paşinyanın Parisdə İrəvanın qurumdakı fəaliyyətini "dondurduğunu" deməsindən söz açan siyasi şərhçi bildirib ki, bir müsahibədə ölkənin KTMT-dəki fəaliyyətinin dondurmasından danışmaq, eyni zamanda, qonşu dövlətdən, yəni Azərbaycandan hərbi təhlükə barədə həyəcan təbili çalmaq səriştəsizliyin zirvəsidir. "Təəssüflər olsun ki, Ermənistan vətəndaşlarının gözləri önündə ABŞ, Aİ, Fransa və digər Avropa ölkələrinin hakimiyyət orqanlarının Ermənistanı hər cür şifahi dəstəklə məhdudlaşdığına dair acınacaqlı təcrübə var. 2023-cü ildə Aİ-nin monitorinq missiyasının qaldığı müddətdə, eləcə də 2023-cü ilin sentyabrında Ermənistan və ABŞ-ın birgə təlimlərindən dərhal sonra İrəvan 100 mindən çox insanın çıxarılması ilə Qarabağa təsir imkanlarından yapışmaq üçün son şansını itirdi", – deyən politoloq bunu da soruşur: Aİ və ABŞ Azərbaycanla sərhəd münaqişəsi fonunda Ermənistana kömək etdimi? Əlbəttə, yox!

Nəhayət, İ.Semenovski belə nəticəyə gəlir ki, Ermənistanın indiki hakimiyyətinin mövcudluğu və onun Qərbyönümlü kursu şəraitində ölkənin KTMT-dən iştirakının şifahi müstəvidə də olsa, dondurması və ya dayandırması regional qeyri-sabitliyi artırmaqla, İrəvanın təhlükəsizliyini əhəmiyyətli dərəcədə azaldır. Mövcud tendensiya orta və uzunmüddətli perspektivdə davam edərsə, Ermənistanın iqtisadiyyatı da zərər görəcək. Məhz belə olduqda Paşinyanın "Rusiya rəsmiləri Ermənistanda hakimiyyəti devirməyə çağırışlar edirlər" məntiqi real mahiyyət daşıyacaq. Özü də bu dəfə əməldə.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Moskva "Cermuk" suyundan niyə imtina etdi?

**Rusiya İstehlakçı Hüquqlarının Müdafiəsi və İnsan Rifahı Sahəsində Nəzarət üzrə Federal Xidməti ("Rospotrebnadzor") Ermənistanda istehsal olunan "Cermuk" ("Jermuk") suyunun idxalının dayandırılması barədə qərar qəbul edib. Buna səbəb fevralın 12-də Şimali Osetiyanın paytaxtı Vladiqafqaz şəhər sakininin "Cermuk" suyundan içməsi nəticəsində onun qida borusunda və mədəsində problem yaranıb. Buna görə də əvvəlcə yerli xəstəxanaya göndərilib, sonra xüsusi təyyarə ilə son dərəcə ağır vəziyyətdə Sklifosovski adına Təcili Tibbi Yardım İnstitutuna aparılıb. Lakin təqaüdçünün daxili xəsarətləri çox ağır olduğundan həyatını xilas etmək mümkün olmayıb.**




Araşdırmalar zamanı suyun tərkibində sirkə olması müəyyənləşib. Buna görə də məhsulun idxalı və ixracı dayandırılıb. Daxili İşlər Nazirliyi, Prokurorluq və "Rospotrebnadzor"un birgə göstərişinə əsasən, hazırda hakimiyyət "Cermuk" mineral suyunu satışdan çıxarmağa başlayıb. Artıq Şimali Osetiya ərazisində 24 bağlama "Cermuk" suyu araşdırma üçün götürülüb, zəruri əməliyyat tədbirləri davam etdirilib. Bu mineral suyu satan sahibkarlara satışı dayandırmaq tövsiyə olunub.

"Rospotrebnadzor", həmçinin vətəndaşlardan istehsal tarixi 28 dekabr 2023-cü il olan 0,5 litrlik şüşə qablarda "Cermuk" mineral suyunun satışının qeydə alındığı pərakəndə satış məntəqələri və internet saytları barədə məlumat vermələrini xahiş edib.

Bir sözlə, Rusiya İstehlakçı Hüquqlarının Müdafiəsi və İnsan Rifahı Sahəsində Nəzarət üzrə Federal Xidməti əməkdaşları tərəfindən hazırda pərakəndə satış və ictimai iaşə obyektlərində "Cermuk" mineral suyuna nəzarəti gücləndirilib. Vətəndaşların həyat və sağlamlığına zərər dəyməməsi üçün bütün tədbirlər görülüb, mineral suyun 2,5 milyon butulkaya yaxın fərdi partiyalarının satışı artıq dayandırılıb.

Erməni mediası isə bununla bağlı Ermənistanın Qida Təhlükəsizliyinə Nəzarət Qurumunun məlumatını yayıb. Məlumatda "Cermuk" mineral suyunun 2001-ci ildən Rusiyaya ixrac edildiyi, həcminin tədricən 350 min litrdən 15 milyon 273 min litrə çatdırıldığı, bununla bərabər, idxal edilən hər bir su partiyasının Avrasiya İqtisadi İttifaqının texniki reqlamentinə uyğun gəldiyi, indiyədək bu mineral sudan zəhərlənmə faktının qeydə alınmadığı da vurğulanıb.

Ermənistanın Qida Təhlükəsizliyinə Nəzarət Qurumunun iddiasına görə, "Cermuk"un təkcə Rusiyaya yox, ABŞ, Ukrayna, Gürcüstan, Belarus, Qazaxıstan, Avropa İttifaqı və digər ölkələrə ixracı 23 il ərzində 10 dəfə artıb. Adıçəkilən qurum, həmçinin ötən 23 il ərzində ölkədən ixrac edilən mineral sudan indiyədək zəhərlənmə faktı qeydə alınmadığından "Cermuk"un müəyyən su partiyalarının satışını dayandırılması barədə "Rospotrebnadzor"un bu qərarını təəccüblə qarşılandığına diqqət çəkib. Eyni zamanda, sözügedən mineral suyun satışının dayandırılması ilə bağlı Rusiyanın səlahiyyətli orqanlarından bildiriş almadığını da qeyd edib.

Xatırladaq ki, Kəlbəcər rayonunun işğalı dövründə Ermənistan bu ərazidə yerləşən bütün təbii sərvətləri – faydalı qazıntıları istismar edib, nəinki Kəlbəcərdən, həm də Qarabağın bütün ərazisindən təbii resursların qanunsuz ixracını həyata keçirib. Ermənistan yataqlardan Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutqun, Mozçay, Qoturlusu mineral müalicəvi suları müxtəlif ölkələrə satıb.

Mütəxəssislər bildirirlər ki, Rio de Janeyro bəyannaməsinə əsasən, müharibələr ətraf mühitə mənfi təsir göstərməməlidir. Ona görə də ölkələr silahlı münaqişələr zamanı ətraf mühiti müdafiə edən beynəlxalq hüquqa hörmətlə yanaşmalıdırlar. Lakin Ermənistan Qarabağ və Şərqi Zəngəzuru işğal altında saxladığı dövrdə bu tələbləri yerinə yetirməyib, belə bir ekoloji terror yolu ilə nəinki Azərbaycana, hətta bütün bölgəyə ciddi zərər yetirib.

Bu gün ixraca yönəltdiyi "Cermuk"u "qaydalara uyğun istehsal" etdiyini israrla bildirən Ermənistana xatırlatmaq lazımdır ki, hələ 2007-ci ilin martında ABŞ-ın Qida və Dərman İdarəsi (FDA) bu məhsulda kəskin miqdarda zəhərli arsen maddəsi aşkarlamış və məhsulu geri qaytarmışdı. FDA-nın açıqlamasına görə, insanda xərçəng xəstəliyinə gətirib çıxaran arsen sözügedən mineral sularda 500-600 mikroqram səviyyəsindədir ki, bu da 1 litr üçün 10 mikroqram standartını dəfələrlə üstələyir. Ermənistan o vaxt da belə bir dəyərləndirməni danmışdı. "Arzni Mineral Sular" QSC-nin direktoru Armen Mkrtçyan "şirkətin məhsullarında arsen tərkibi Ümumdünya Səhiyyə Təşkilatı standartlarına tamamilə uyğundur",–deyə bildirmişdi.

Mütəxəssislər bildirirlər ki, arsen də, sirkə turşusu da insan sağlamlığına çox zərərli maddələrdir. Sirkə turşusunun orqanizmə nüfuzu dərhal, arsenin təsiri isə tədricən baş verir, hər ikisi də ölümcüldür. Sirkə turşusundan zəhərlənmə həzm sistemini, tənəffüs yollarına ciddi ziyan vurur, qanda turşuluq miqdarını ölümcül dərəcədə artırır, dəri və gözlərə yandırıcı təsir göstərir. Kəskin arsen zəhərlənməsinin simptomları isə ürəkbulanma, qusma və ishaldır. Zəhərlənmə böyrəklər, qaraciyər, dəri, ürək-damar və sinir sistemlərini bir neçə gündən bir neçə həftəyədək sıradan çıxarır.

"Cermuk" mineral suyuna zəhərli arsen isə şəlalənin yaxınlığında (cənub-şərqində), Arpaçay-Bazarçay vadisində yerləşən "Amuldağ" qızıl yatağından qarışır. Mütəxəssislər onun bağlanması zərurətini dəfələrlə dilə gətirsələr də, yatağın fəaliyyəti nəticəsində ətraf mühit, eləcə də yeraltı sular arsen və digər zəhərli maddələrlə çirklənir.

"Environmental Protection First" (EPF) Koalisiyası bildirib ki, heç bir ekoloji standartlar gözlənilmədən Ermənistanda Amuldağ (Amulsar) yatağının istismarı yeraltı suları zəhərləyir, ağır metal tərkibli mədən tullantıları İstisu (Cermuk) mineral bulaqlarına məhvedici zərər vurur.

Bir neçə il əvvəl ABŞ-ın Dərman və Qidaya Nəzarəti üzrə Federal Agentliyi Ermənistandan gətirilən "Cermuk" mineral suyunun tərkibində ağır metal olan arsenin normadan 50 dəfə çox olduğunu müəyyənləşdirmişdi. Bundan sonra həmin mineral suyun satışı ABŞ-da, Birləşmiş Ərəb Əmirlikləri və bir neçə Avropa ölkəsində də qadağan edilmişdi.

Onu da qeyd edək ki, Amuldağ (Amulsar) qızıl yatağının istismarı nəticəsində formalaşan ağır metal tərkibli mədən tullantıları Bərgüşad çayına axıdılaraq Həkəri çayı vasitəsilə Araz çayını da çirkləndirir. Yataq həm də Arpaçay və Bazarçay arasındakı ərazidə yerləşir. Hər iki çay Azərbaycan ərazisindən keçərək Araz çayına tökülür. Amuldağ (Amulsar) yatağının bu cür istismarı Qafqaz dağları ilə əhatə olunmuş region və onun əhalisi üçün ciddi təhdiddir.

**V.BAYRAMOV**
**XQ**

KÖŞƏ

# Paslı silahlar, tozlu binokllar və bir atımlıq yaş barıt

## Paris İrəvana bunlardan başqa heç nə göndərməyəcək

**Çünki Fransanın özünün indi çox şeyə ehtiyacı var. Artıq bir neçə ildir ki, ölkədə daxili sabitliyi qoruya bilmirlər, xalqın dövlətə – daha çox isə Emmanuel Makron iqtidarına inamı bərpaolunmaz şəkildə itir, iqtisadi imkanlar azalır, anti-İslam və anti-türk əhval-ruhiyyəlilərin həyasızlığı Parisin beynəlxalq aləmdəki nüfuzuna sarsıdıcı zərbələr vurur... Bir tərəfdən də Afrikadakı Fransa müstəmləkələrində milli-azadlıq hərəkatı dönməz xarakter alır. Yəni bu gün Makron Fransasının "burnu ovulur". Özü də, qeyd etdiyimiz kimi, bir neçə istiqamətdən.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Belə bir vəziyyətdə rəsmi Parisin Cənubi Qafqazda söz sahibinə çevrilmək istəyi "dəryada balıq sövdasıdır". Bir tərəfdən Rusiya Federasiyası buna imkan verəcək qədər sadəlövh deyil. Şimal qonşumuzun nəinki siyasətçi və diplomatları, hətta orta məktəb şagirdləri də Parisin Ermənistandakı məqsədlərini ermənilərdən yaxşı bilirlər.

Bir tərəfdən İran İslam Respublikası İslam Peyğəmbərinin təhqir edilməsini "söz azadlığı" adlandıran Fransanı öz sərhədləri ətrafında görmək istəməyəcək. Doğrudur, İranın Cənubi Qafqaz siyasətində özünəməxsus maraqları var. Ancaq fransızların bu regiona gəlməsinə münasibətdə Tehran da Ankara və Moskva ilə eyni mövqedən çıxış edir. İranda çox yaxşı bilirlər ki, Fransa əsgərinin İrəvanda oturması Tehranın Cənubi Qafqazdakı maraqlarına sarsıdıcı zərbə olacaq.

Bir tərəfdən isə Türkiyə Cümhuriyyəti bütün türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin açılması üçün yaranan şansı əldən verməyəcək. Makronun əsas məqsədlərindən biri də məhz Zəngəzur dəhlizinin açılmasını əngəlləməkdən ibarətdir. Yoxsa onun "başına it təpməmişdi" ki, dəryalar qədər problemi ola-ola gəlib İrəvana da burnunu soxsun. Türkiyənin nəinki dövlət rəsmiləri, hətta hökumət üzvləri və diplomatlar da birmənalı olaraq, dönə-dönə deyirlər ki, Zəngəzur dəhlizinin açılmasına nail olacağıq: "Çünki bu layihə təkcə Azərbaycan, Türkiyə və Ermənistan üçün deyil, bütövlükdə, Avrasiya üçün mühüm iqtisadi maraq kəsb edir".

Bütün bunları bilən Fransanın və onun Avropa qurumlarındakı bəzi özünəbənzər həmfikirlərinin İrəvana paslı silahlar, tozlu binokllar və bir atımlıq barıt göndərməsi nəyə hesablanıb? Axı dünyanın əksər hərbi ekspertləri açıq şəkildə yazırlar ki, Fransanın Ermənistana göndərdiyi silah və sursatlar ən azı elli il anbarlarda qalmış "qədimi" istehsal nümunələridir. Bu ölkəyə Hindistandan göndərilən silahlar isə heç istehsalçı ölkənin özündə belə sınaqdan keçirilməmişdir.

İndi sual olunur: Azərbaycan ərazilərinin 20 faizini otuz il işğal altında saxlamış, vaxtilə Sovet dövləti tərəfindən dişinə, dırnağına qədər silahlandırılmış Ermənistan ordusu Azərbaycan əsgərinin "dəmir yumruğ"u qarşısında cəmi ay yarım duruş gətirərək, ağ bayraq qaldırdısa, indi Parisdən və ya Dehlidən göndərilmiş köhnə silahlar bu terrorçu və təxribatçı dövlətin hansı problemini həll edəcək? Cavab verirəm: Heç bir problemi.

Ermənistanın bugünkü problemlərindən biri də bəzi Avropa qurumlarının, xüsusən, Fransanın İrəvana göndərdiyi binokllardır. Həmin binoklların obyektivi də onlardan istifadə etmək istəyən keçmiş Avropa hərbçilərinin gözü kimi reallığı görə və ya göstərə bilmir. Elə olmasaydı, həmin sınıq-salxaq binokllar və qoca-qaltaq avropalılar ataşkəsi pozan erməni əsgərlərinə "gözün üstdə qaşın var" deyərdilər. Demirlər. Çünki görmürlər. Binokllar paslı, gözlər sıradan çıxmış vəziyyətdədir.

O ki qaldı, barıt məsələsinə, deməliyik ki, Fransa özü bu gün "barıt çəlləyinin üstündə oturduğuna görə" Ermənistana o qədər də barıt göndərə bilməyəcək. Bundan başqa, Makronun barıtının yaş olduğunu da indi artıq hamı bilir. Çünki Fransanın müstəmləkəçilik siyasətinə qarşı başlanan, daha doğrusu, Azərbaycanın başladığı beynəlxalq siyasi-diplomatik mübarizə artıq hər gün daha çox ölkələri əhatə edir. Rusiyalı telejurnalistin Fransadan hazırladığı süjetdə qoca bir fransızın maraqlı ifadəsini eşitmişdik: "Makron Fransanı elə bir günə saldı ki, indi artıq bu ölkənin vassalları (müstəmləkələri demək istəmədi– İ.M.) Parisi idarə etmək iddiasına düşürlər".

Yəni, Paris – İrəvan, Dehli – İrəvan, nə bilim, daha hansı reyslərin Ermənistan paytaxtına nə daşımasından asılı olmayaraq, bu ölkə 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanatın bütün müddəalarını icra etmək məcburiyyətində qalacaq. Bunun əksini etsələr, elə bir nəticə alınacaq ki, erməni xalqı Nikol Paşinyana da, Emmanuel Makrona da getməli olduqları ünvanı göstərəcək. Bunun başqa adı isə gorbagor olmaqdır.

# Xocalı qatillərinin cinayət işi tezliklə məhkəmə baxışına veriləcək

## Müsahibimiz Hərbi Prokurorluğun xüsusi istintaq şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emil Tağıyevdir

**2020-ci ildə baş tutan 44 günlük Vətən müharibəsi və ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri təkcə ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin təmin olunması ilə əlamətdar olmadı, həm də uzun illərdir narahat dolaşan şəhid ruhlarının rahatlıq tapması ilə nəticələndi. Üçrəngli Dövlət bayrağımızın bu gün işğaldan azad edilmiş bütün ərazilərdə, o cümlədən adı çəkiləndə hər bir azərbaycanlının içindən fəryad qopan Xocalıda dalğalanması həmin faciədə qurban getmiş soydaşlarımızın, eləcə də Vətən həsrəti ilə ötən illərdə dünyasını dəyişmiş bacı-qardaşlarımızın ruhlarını əbədi şad etdi. Prezident İlham Əliyevin hələ 2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün mətbuat konfransında dediyi kimi, biz Xocalı soyqırımı qurbanlarının qisasını döyüş meydanında aldıq. Dövlətimizin başçısı Xocalı soyqırımını törədənlərin bəzilərinin Vətən müharibəsində məhv edildiyini də bildirdi.**




Onu da qeyd edək ki, Xocalı soyqırımının törədilməsinə dair açılmış cinayət işinin istintaqı bir an da dayandırılmayıb. Xüsusilə, ötən ilin sentyabrında Xocalının xunta rejiminin əsarətindən azad edilməsindən sonra yeni kütləvi məzarlıqlar aşkarlanır. Aşkarlanan yeni məzarlıqlar Xocalı soyqırımı ilə bağlı cinayət işində yeni xüsusatların əlavə olunması deməkdir. Xocalı soyqırımının 32-ci ildönümü günündə Hərbi Prokurorluğun Xüsusi istintaq şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emil Tağıyevlə həmsöhbət olduq.

***– Emil müəllim, Xocalı soyqırımı ilə bağlı aparılan cinayət işinin istintaqı zamanı nələr müəyyənləşdirilib?***

– Azərbaycan Respublikası Hərbi Prokurorluğunda aparılan cinayət işinin istintaqı zamanı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində soyqırımı törədildiyi təsdiqlənib. Qeyd olunan tarixdə Ermənistan silahlı qüvvələrinin keçmiş sovet ordusunun Xankəndi şəhərində dislokasiya olunmuş 366-cı alayının dəstəyi ilə Xocalını mühasirəyə alaraq, şəhərə hücum etməsi müəyyənləşdirilib. Əvvəlcə yaşayış məntəqəsini şiddətli artilleriya atəşinə tutub, sonra isə çoxsaylı ağır texnika, o cümlədən tanklar, piyadaların döyüş maşını və zirehli transportyorlar vasitəsilə şəhərə daxil olub, evlərində yatmış dinc əhalini vahiməyə salıb, qarşılarına çıxan qadınlara, uşaqlara, qocalara aman vermədən odlu silahlardan atəş açmaqla, tankın, döyüş maşınlarının və digər texnikaların altına salaraq əzməklə, müxtəlif işgəncələr verməklə insanları xüsusi amansızlıqla qətlə yetirib və sair vəhşiliklər törədiblər. İstintaq materialları ilə sübuta yetirilib ki, Xocalı soyqırımı zamanı 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz işgəncələr verilməklə xüsusi amansızlıqla qətlə yetirilib, 487 dinc sakinə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib. 1275 nəfər isə əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Soyqırımı zamanı 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Azğınlaşmış erməni qatilləri azyaşlılara belə rəhm etməyib və 5 yaşlı qız uşağına 17 güllə vurublar.

***– Xocalı soyqırımı ilə bağlı hansı maddələr üzrə cinayət işi açılıb?***

– Cinayət işinin istintaqı zamanı konkret olaraq Xocalı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayət törətmələri sübuta yetirilmiş 40 nəfərin barəsində onların Azərbaycan Cinayət Məcəlləsinin 103-cü (soyqırımı), 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmalarına dair qərarlar qəbul edilib, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Bürosuna və Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Hazırda baş prokuror Kamran Əliyevin və hərbi prokuror Xanlar Vəliyevin nəzarəti ilə hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir. Onu da qeyd etmək lazımdır ki, Xocalı soyqırımının törədilməsi BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında", 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", habelə "Hərbi əsirlərlə rəftar haqqında", "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə konvensiyalarının, 1950-ci il noyabrın 4-də Avropa Şurası tərəfindən qəbul olunmuş "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın üçüncü maddəsinin tələblərini kobud şəkildə pozulması idi.

***– Ümumilikdə, Xocalı soyqırımı ilə bağlı təqsirləndirilən şəxslərin sayı neçə nəfərdir?***

– Cinayət işinin istintaqı zamanı qanunsuz erməni silahlı birləşmələri tərəfindən yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə bağlı 40 nəfəri Xocalı soyqırımı üzrə olmaqla ümumilikdə 300-dən artıq şəxsin Cinayət Məcəlləsinin soyqırımı, deportasiya, işgəncə, müharibə adət və qanunlarını pozma və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələri sübuta yetirilib. İstintaq müddətində həmin şəxslərdən 6 nəfərin yeri müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunmuşdur. Bunlar Arsen Baqdasaryan, Karen Qazaryan, Alyoşa Xosrovyan, Lüdvik Mkrtıçyan, Meşəli soyqırımının törədilməsində təqsirləndirilən Vaqif Xaçatryan və Levon Mnatsakanyandır. Beş nəfər barəsində cinayət işləri üzrə ibtidai istintaq yekunlaşdırılaraq məhkəmə baxışına verilmiş və onların hər biri layiq olduqları cəzalara məhkum ediliblər. Bir nəfər – Levon Mnatsakanyan və onunla birlikdə həbs olunmuş, qondarma "dqr"in digər vəzifəli şəxslərinin törətdikləri cinayətlərlə bağlı cinayət işinin istintaqı hazırda davam etdirilir və həmin iş də qısa müddətdə yekunlaşdırılaraq məhkəmə baxışına veriləcəkdir.

***– Xocalı soyqırımının törədilməsində iştirak edən və hələ də azadlıqda gəzən şəxslərin məsuliyyətə cəlb olunması üçün hansı tədbirlər görülür?***

– Qeyd etdiyimiz kimi, istintaqla Xocalı soyqırımının törədilməsində 40 nəfərin iştirak etməsi müəyyən olunub. Axtarışa verilmiş şəxslər arasında Seyran Ohanyan, Robert Koçaryan, Serj Sarkisyan, Yevgeni Nabokix, Valeri Çitçyan kimi Xocalı caniləri də var. Həmin şəxslər barəsində soyqırımı və deportasiya maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib. Barələrində məhkəmələr tərəfindən həbs qətimkan tədbirləri seçilib. Axtarışlarının təmin edilməsi üçün sənədlər Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə və İnterpolun Milli Mərkəzi Bürosuna göndərilib. Onlar hazırda axtarışdadırlar.

***– Bir müddət öncə Əsgəran qalasının ətrafında kütləvi məzarlıqda tapılan qalıqların Xocalı soyqırımı qurbanlarına aid olduğu ehtimal edilir. Həmçinin, fevralın 23-də Xocalıda su-kanalizasiya sisteminin tikintisi zamanı daha bir kütləvi məzarlıq aşkar edilmişdi. Bununla bağlı nələri deyə bilərsiniz?***

– 2020-ci ilin noyabr ayından bəri, yəni torpaqlarımız işğaldan azad edildikdən sonra dövlət başçımızın tapşırığına əsasən, Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərin meyit qalıqlarının axtarışı intensiv xarakter almışdır. Ötən dövr ərzində, yəni 2020-ci ilin noyabr ayından bugünədək Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Ağdam rayonunun Sarıcalı, Füzuli rayonunun Yuxarı Seyidəhmədli, Şuşa rayonunun Daşaltı kəndində, Şuşa şəhərindəki keçmiş həbsxananın ərazisində, Kəlbəcərdə, Laçında və digər ərazilərdə aşkar edilmiş kütləvi məzarlıqlardan ümumilikdə, 500-dən artıq insan meyit qalıqları tapılaraq götürülmüş və həmin qalıqların Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərlə eyniləşdirmə aparılması məqsədilə məhkəmə tibbi-kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları (DNT) təyin edilmişdir. Onu da qeyd edək ki, Birinci Qarabağ müharibəsi dövründə 3890 nəfər itkin düşmüş hesab olunur. Həmin ekspertiza tədqiqatlarının nəticələrinə əsasən, bugünədək 50-dək şəxsin şəxsin şəxsiyyəti müəyyən edilmiş və onların bir hissəsi öz doğmalarına təhvil verilərək, adət-ənənələrə uyğun dəf edilmişlər. Digər şəxslərin şəxsiyyətinin müəyyən edilməsi istiqamətində işlər davamlı gedir.

Bugünlərdə Xocalıda su-kanalizasiya sisteminin tikintisi zamanı aşkar edilən kütləvi məzarlıqla bağlı məsələ ilə bağlı isə Baş Prokurorluğun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsində araşdırma aparılır. Axtarış işləri tam yekunlaşdıqdan və müavfiq ekspertiza nəticələri müəyyən olunduqdan sonra ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

***– Birinci Qarabağ müharibəsi zamanı qəhrəmancasına şəhid olmuş Natıq Qasımovun meyit qalıqlarının aşkarlanması istiqamətində hansısa yenilik varmı?***

– Qeyd etdiyimiz kimi, Birinci Qarabağ müharibəsi dövründə 3890 nəfər itkin düşmüş şəxs var. Təkcə Natiq Qasımovun deyil, onların hər birinin taleyinin müəyyən edilməsi istiqamətində işlər görülür. İtkin düşmüş hər bir şəxs tapılanadək biz işimizi davam etdirəcəyik.

***– Xocalı soyqırımının törədilməsində iştirak etmiş təqsirləndirilən şəxs Raşid Beqlaryanın cinayət işində nə yenilik var?***

– Raşid Beqlaryanla bağlı cinayət işininin istintaqını Dövlət Təhlükəsizliyi Xidməti aparır. Bildiyimiz qədər həmin iş üzrə Beqlaryana Xocalıda törədilmiş soyqırımında iştirak, deportasiya və digər maddələrlə ittiham irəli sürülüb. Onun barəsində olan cinayət işinin istintaqı hazırda yekunlaşma ərəfəsindədir. Yəqin ki, qısa müddətdə həmin cinayət işi üzrə ibtidai istintaq yekunlaşacaq və gələn ay məhkəmə baxışına veriləcək. Amma mənim bildiyim qədər ona yekun ittiham verilib.

***Səxavət HƏMİD***
***XQ***

# Bakı Təşəbbüs Qrupu "Asiyanın ürəyi"ndə köləliyə nifrət oyatdı




**(əvvəli 1-ci səhifədə)**

Ekspertlərin fikrincə, bu tədbirin adındakı "İntibah dövrünün başlanğıcı" ifadəsi, əslində, siyasi proseslərin bumeranq effekti verməsinə işarədir. Çünki əsrlər boyu özünü "intibahın mərkəzi" adlandırmağa çalışan Fransa, əslində, xalqların və dövlətlərin intibahına hədsiz dərəcədə ağır zərbələr vurmuşdur. XXI əsrin üçüncü onilliyinin də yarı olması ərəfəsində hansısa dövləti müstəmləkə kimi saxlayaraq, ölkənin təbii sərvətlərinin talanması, xalqların insan hüquqlarının bütün təməl prinsiplərindən məhrum edilməsi, azadlıq mücadiləsinə qalxmaq istəyənlərin dünyanın gözü qabağında qırılıb məhv edilməsi məhz Fransanın müasir reallıqlarıdır.

Hələ bu harasıdır? Rəsmi Parisin Afrika və Asiyanın bir növ gözdən iraq ölkələrində törədilən vəhşilikləri bir yana, son otuz ildə bütün Avrasiyanın diqqət mərkəzində olan Cənubi Qafqazda da haqsızlıq və ədalətsizliklər seriyasına imza atmışdır. Özünü ATƏT-in keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaratdığı Minsk qrupuna soxmağı bacaran Parisin oradakı fəaliyyəti, sözün həqiqi mənasında, Azərbaycana qarşı olmuş, birmənalı olaraq münaqişənin həllinin qarşısını almağa çalışmışdır. Azərbaycan dövləti adı çəkilən münaqişəni beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etməsindən sonra isə Fransa rəhbərliyi sülh üçün atılan bütün addımlara badalaq gəlir. Üstəlik, Ermənistanı silahlandıraraq, yeni müharibə riskləri yaradır. Bəs Azərbaycanın bu haqsızlığa münasibəti necə olmalı idi? Necə olmalı idisə, elə də oldu. Yəni, bumeranq effekti növbəti dəfə rəsmi Parisə qarşı yönəldi.

Xatırladaq ki, İstanbulda keçirilən, ümumiyyətlə, dekolonizasiya mövzulu konfransların əsas məqsədi müstəmləkəçilikdən zərər görən bölgələrin səslərinin dünya ictimaiyyətinə çatdırılmasından ibarətdir. "Türkiyənin "Haber Qlobal" televiziya kanalı bildirir ki, Bakı təşəbbüs qrupu bu tədbirlər silsiləsi ilə öz məqsədinə nail olur. Yəni müstəmləkəçilik siyasətindən əziyyət çəkən insanlar yaradılan platformalar vasitəsilə səslərini dünyaya çatdıra bilirlər. İstanbulda keçirilən konfransdan sonra isə dünya bu regionlarda baş verən hadisələri, Fransanın müstəmləkəçilik siyasətinin ağır nəticələrini daha yaxşı öyrəndi.

Bu arqumentimizi əsaslandırmaq üçün Fransız Polineziyasının BMT-dəki nümayəndəsi Carlyle Korbinin İstanbul konfransında səsləndirdiyi bir fikri xatırlatmaq kifayətdir: "Hazırda dünya üzrə BMT prinsiplərindən uzaq idarə edilən 17 müstəmləkə ada var və Azərbaycan tərəfindən təşkil olunan belə tədbirlər buralarda yaşayan insanlar üçün çox vacibdir".

Xüsusilə vurğulanmalı məqamlardan biri də konfrans iştirakçıları adından Fransa prezidenti Emmanuel Makrona ünvanlanan açıq məktubdakı cümlələrdir. Xatırladılır ki, Paris 60 ildən çoxdur BMT Baş Assambleyasının dekolonizasiya ilə bağlı qətnamələrinə əməl etmir. Yeni Korsika, Melaneziya, Polineziya, Karib və Antil adaları qrupunda yaşayan xalqların bu gün də Fransanın müstəmləkəçiliyindən və neokolonializmindən əziyyət çəkdiyi vurğulanır.

Ekspertlər yazırlar ki, iştirakçılar Emmanuel Makrondan Fransa hökumətinin qanunsuz hərəkətlərini dayandırması tələbini irəli sürərək, bu ərazilərdə mədəni və dini irsin vəziyyətinə dair məruzənin hazırlanması üçün UNESCO missiyasının həmin bölgələrə göndərilməsinin əhəmiyyətini vurğulayıblar. Eləcə də, ATƏT-in ətraf mühit, iqtisadiyyat, insan hüquqları və yerli əhalilərin hüquqlarına dair vəziyyətinin öyrənilməsi missiyasının müstəmləkə ölkələrinə göndərilməsi üçün quruma müraciət ünvanlamasına çağırış edilib.

Sonda qeyd edək ki, daim haqqın, ədalətin, beynəlxalq hüququn yanında olan Azərbaycan da, Türkiyə də təkcə öz xalqlarının deyil, təzyiqlərə məruz qalan istənilən toplumun hüquqlarının qorunması üçün kəsərli addımlar atırlar. Biz bu addımları Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə dönə-dönə gördük. Elə təzyiq görən xalqlar da bizim mütərəqqi addımlarımızın şahidinə çevrildilər. Həm təzyiq edənlər, həm də təzyiqə məruz qalanlar Azərbaycanın belə addımlarını hələ çox görəcəklər.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Təzminat qaçılmazdır!

## Ermənistan Azərbaycana vurduğu ziyanın əvəzini ödəməlidir

**"Son günlər dünya mediası Ermənistanın Fransa, Hindistan, eləcə də digər tərəfdaşlarının köməyi ilə yenidən və əsaslı şəkildə silahlanması barədə xəbərləri tirajlamaqla məşğuldur. Əminəm ki, Azərbaycanın buna həm siyasi, həm də hərbi cavabı özünü çox gözlətməyəcək. Bu isə adətən, indiyə qədər şahidi olduğumuz kimi, ildırım sürətli və hərtərəfli düşünülmüş formada olacaq".**



Bu fikirləri özünün "X" platformasında tanınmış politoloq Eldar Namazov paylaşıb. Siyasi elmlər doktoru E.Namazov, eyni zamanda, diqqəti məsələnin başqa tərəfinə yönəldir: "Otuz ilə yaxın davam edən işğaldan, həmin dövrdə Azərbaycanın yüzlərlə şəhər və qəsəbəsinin yerlə-yeksan edilməsindən sonra dağıdılmış sənaye və yaşayış obyektlərinin bərpası üçün təcavüzkarın ödəməli olduğu təzminat məsələsi — vurduğu külli miqdarda ziyana görə kompensasiya ödəməsi gündəmdə olan mövzudur. Bu məsələnin hüquqi tərəfinə gəldikdə, bu, həm beynəlxalq konvensiyalara uyğun olaraq, həm də Ermənistan baş nazirinin işğal faktını tanıdığı və silahlı qüvvələrinin qalıqlarını Azərbaycan ərazisindən çıxaracağını öhdəsinə götürdüyü 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatı əsasında həllini tapması şübhəsizdir. Amma Qərbin bəzi haypərəst dövlətləri münaqişəyə son qoyulandan dərhal sonra Azərbaycanı 44 günlük müharibədə uğradığı məğlubiyyətin şokunu yaşayan Ermənistan tərəfinə mərhəmət göstərməyə, digər amillərlə yanaşı, qarşı tərəfin çox zəif maliyyə və iqtisadi imkanlarını nəzərə almağa çağırırlar".

Paylaşımında daha sonra rəsmi İrəvanın son vaxtlar başlatdığı genişmiqyaslı və yenidən bahalı silahlanma kampaniyasının bu istiqamətdə güzəştlə bağlı bütün sualları aradan qaldırdığını bildirən E.Namazov Ermənistanın, təbii olaraq, hərbi cəhətdən güclənmək hüququnun olduğunu, amma bu tip fəaliyyətə, ən mühafizəkar hesablamalara görə, Azərbaycana yüz milyardlarla dollar məbləğində təzminat ödədikdən sonra başlaya biləcəyini vurğulayır:

"Tam əminəm ki, Azərbaycan tərəfi bu məsələdə də ədalətin bərpası üçün yaxın vaxtlarda lazımi addımları atacaq. Əslində, təzminat məsələsi sülh müqaviləsinin əsas müddəalarından birinə çevrilməlidir. Həmin müddəa olmadan tərəflər arasında etimadı bərpa etmək və münaqişədən sonrakı nizamlanmanın digər məsələlərini həll etmək mümkün deyil".

***XQ***

# “Ermənistan iqtisadiyyatı üfürülmüş sabun köpüyüdür”

## Erməni iqtisadçı David Ananyanın gəldiyi qənaət belədir

**Yeni iqtisadi model, ən müasir texnologiya, dövrün çağırışlarına cavab verən kreativ idarəetmə mexanizmi. Bunlar XXI əsrin dirçəliş və inkişaf strategiyasıdır. Fəqət, bütün bu sadaladıqlarımız yüksək ixtisaslı kadrlar, yeni insan resursları olmadan “ölü kapital” kimi yararsız xammala çevrilir. Hazırda eyni mənzərəni “ölkədənqaçma” tendensiyası ilə üz-üzə qalmış Ermənistan cəmiyyətində müşahidə edirik.**



“Biz hazırda olduqca çətin vəziyyətdəyik. İqtisadiyyatımız, həqiqətən də, böhran durumuna düşüb. Əgər biz fiksal nöqteyi-nəzərindən yanaşsaq, vergilər toplanır, xərclər isə yerinə ye-



tirilmir. Bu isə o deməkdir ki, iqtisadiyyatdan pulu toplayırıq, amma onu geri qaytarmağı bacarmırıq. Əslində, hər bir iqtisadiyyatın müsbət və mənfi tərəfləri vergi ödənişləri prosesinin effektli təşkil edilməsi ilə deyil, iqtisadiyyata kapital qoyuluşunu artırmağı bacarıb-bacarmamağımızla müəyyən edilir...”.

Bu açıqlamanı erməni mediasına Ermənistan Dövlət gəlirləri komitəsinin keçmiş sədri, tanınmış iqtisadçı David Ananyan verib. Sabiq dövlət məmurunun gəldiyi qənaət bundan ibarətdir ki, hazırda Ermənistan iqtisadiyyatının keyfiyyət göstəricisi üfürülmüş sabun köpüyünü xatırladır, onun bütün strukturları isə daha da pisləşməyə doğru gedir: “Real vəziyyət qeydə alınmış iqtisadi aktivliyin 9,4 faizi ilə ümumi heç nəyə malik deyil. İlk baxışda hər şey yaxşıdır, amma əgər biz iqtisadiyyatın strukturana yaxından nəzər yetirsək, görərik ki, ticarətdə 10 faiz, xidmət sektorunda 2,4 faiz, sənayedə 1 faiz, inşaatda isə cəmi 0,7 faiz artım var. İntəhası, kənd təsərrüfatı üzüaşağı yuvarlanıb. Rəqəmlərdən belə nəticə hasil olur ki, iqtisadi artımın əsas hissəsini ticarət və xidmətlər təşkil edir. Amma bu sahələr ölkəni ayaqda saxlamağa qadir deyil. Xüsusilə də həmin sektorlardakı artımın səbəbi daxili amillərlə, həm də rusiyalıların həyat tonusu kimi, müvəqqəti şəraitlə birbaşa bağlıdır”.

Qeyd etdiyimiz kimi, işçi qüvvəsinin getdikcə tükəndiyi Ermənistan iqtisadiyyatının yalnız kağız üzərində artımından, irəliləyişindən danışmaq mümkündür. Ananyanın təbirincə desək, bu ölkənin rüblük, yarımillik və illik rəsmi hesabatları sadəcə “pripiska”dır.

* * *



Erməni politoloq Vahe Ovannisyan isə bu gün ölkəsinin üzləşdiyi yeni reallığın parametrlərini belə təsvir edir: “Bundan əvvəl İrəvanda güc mərkəzləri arasında münaqişə az-çox ölkənin suverenliyinə və oyun qaydalarına uyğun gedirdisə, artıq, bu, baş verməyəcək. İndi biz münaqişənin istənilən təzahürünü görəcəyik və bu son dərəcə təhlükəli yeni oyun qaydalarının müəllifi Ermənistandır. Belə davam edərsə, dövlət sistemi iflasa uğramağa başlayacaq. Yəni, iqtidar yalançı imitasiyalara gedəcək. Repressiya bu prosesi daha da sürətləndirəcək. Bu gün heç bir normal insan bu hakimiyyətlə işləmək istəmir: daxili qarışıqlıq, çoxsaylı, çoxvektorlu çirkin proseslər, fermentasiya. Dövlətin iqtisadiyyatı, daxili homeostazı pozulur. Cəmiyyət sahibsiz qalıb. Bir qayda olaraq, hakimiyyətin avantürası həmişə dövlətin xarici siyasətinin zəifliyinə, daxili gücsüzlüyünə gətirib çıxarır. Yaranmış vəziyyətdə gücsüzlük və müdafiəsizlik, demək olar ki, sinonimdir. Ermənistanda isə heç kim özünü müdafiəsiz hiss etməyəcək”.

Arzuları ilə imkanları heç cür üst-üstə düşməyən İrəvan iqtidarı can üstündə olan ölkə iqtisadiyyatını ictimai rəyə “inkişaf etməkdə olan” model kimi sırımaqdan çəkinmir. Həmin erməni iqtisadçı və politoloqların yuxarıda sadaladıqları amillər problemin günü-gündən ciddiləşdiyinə dəlalət edir. Bəs, düşdüyü acınacaqlı durumdan Ermənistan necə çıxa bilər? Bu sualın cavabının qonşuları Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdan, reallıqdan uzaq, ağılsız bəyanatlar verməkdən vaz keçməkdən, “yetimə gəl-gəl deyən” Fransanın ətəyindən əl çəkməkdən, sülh müqaviləsi imzalamaqla regional kommunikasiyaları blokdan çıxarmaqdan ibarət olduğunu hamıdan yaxşı İrəvan özü bilir. Bəli, yolların açılması nə qurudan, nə də dənizdən heç yerə çıxışı olmayan Ermənistan iqtisadiyyatına əlavə gəlir mənbəyi, dividendlər gətirəcək. Bekarçılıqdan ölkəni tərk etmək məcburiyyətində qalan əhali işlə təmin olunacaq, onların xaricə axınının qarşısı alınacaq. Məgər Türkiyə ilə sərhədindəki Marqara gömrük məntəqəsinin açılması Ermənistan üçün ideal variant olmazmı?

Hansı tərəfdən və hansı bucaq altında baxılsa da, Ermənistanın yeganə çıxış yolu məhz qonşularla əməkdaşlığın bərpasından keçir. Bu məsələdə ləngimə və itirilən hər gün İrəvanın onsuz da azalan şansını sıfıra yaxınlaşdırmaqdadır...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət YUSİFOV,**
**iqtisadçı alim**



Ermənistan iqtisadiyyatı barədə verilən bütün məlumatlar erməni yalanından başqa heç nə deyil. Ermənistan dövlət statistika komitəsinin bu ölkənin iqtisadiyyatının durumu barəsindəki məlumatlarına nəzər saldıqda, onun acınacaqlı halda olduğunu asanlıqla görmək mümkündür. Bu göstəricilər Ermənistan iqtisadiyyatının “çiçəklənməsinə” dair erməni hökumətinin bütün yalanlarını ortaya qoyur. Ağır hərbi məğlubiyyətdən çıxmış və daxili siyasi çəkişmələrin pik həddə olduğu bir ölkənin iqtisadiyyatında son üç ildə sıçrayışın baş verməsi mümkündürmü? Ermənistan DSK-nın məlumatına görə, bu ölkədə ÜDM 2021-ci ildə 17,2 milyard, 2022-ci ildə 21 milyard, 2023-cü ildə isə 23,5 milyard ABŞ dolları təşkil edib. Yəni, 2021-ci illə müqaisədə 2023-cü ildə Ermənistanda ÜDM 6,2 milyard dollar və ya 36,0 faizə yaxın artıb. Yanacaq - enerji resursları olmayan, ağır hərbi məğlubiyyət yaşamış bir ölkənin iqtisadiyyatında 3 il ərzində belə artım mümkün deyil.

Bəs Ermənistan hökuməti bu böyüklükdə yalanı necə “əsaslandıra bilir”? Araşdırma apardığımız illər ərzində Ermənistanda xarici ticarət dövriyyəsinin ağıla sığmayan bir sürətlə artdığına şahid oluruq. Rəqəmlərə nəzər salmaq yetərlidir ki, bu ölkənin iqtisadiyyatındakı “bum”un haradan qaynaqlandığını görə bilək. Ermənistanın xarici ticarət dövriyyəsi 2021-ci ildə 8,4 milyard dollar səviyyəsində olmuşdusa, 2023-cü ildə bu rəqəm 2,5 dəfə və ya 12,3 milyard dollar artaraq 20,7 milyard ABŞ dolları təşkil etmişdi. 2021-ci ildə ixracın həcmi cəmisi 3 milyard dollar təşkil etsə də 2023-cü ildə bu rəqəm 2,8 dəfə artaraq 8,4 milyard dollar təşkil etmişdir. Eyni qaydada 2021-ci ildə idxal olunan məhsulların həcmi cəmisi 5,4 milyard dollar olmuşdusa, 2023-cü ildə bu rəqəm 6,9 milyard dollar və ya 2,3 dəfə artaraq 12,3 milyard dollara çatmışdır. Bütün bu göstəricilər fonunda Ermənistandan Rusiyaya ixracın və Ermənistanın Rusiyadan idxalının həcmi də anoloji sürətlə artmışdı. Beləliklə, əgər 2021-ci ildə Ermənistandan Rusiyaya cəmi 841 milyon dollar həcmində məhsul ixrac olunmuşdusa, 2023-cü ildə bu rəqəm 3,4 milyard dollar təşkil etmiş və ya 4 dəfədən çox artmışdı. Müqayisə aparılan illər ərzində Ermənistanın Rusiyadan idxal etdiyi məhsulların həcmi 2,1 milyard dollar və ya 2,2 dəfə artaraq 3,9 milyard dollar təşkil etmişdir. Bütün bunlar onu sübut edir ki, Ermənistan iqtisadiyyatındakı “bum” yalnız xarici ticarət dövriyyəsinin artımı hesabına əldə olunub. Əslində, Ermənistanın xarici ticarət dövriyyəsindəki artımların əsl səbəbi Ermənistanın sanksiyalar altında olan Rusiyaya yardım göstərməsi ilə bağlıdır. Son iki ildir ki, Ermənistan Rusiya bazarına idxalı qadağan olunmuş məhsulları üçüncü ölkələrdən alıb öz ərazisinə idxal edir və sonradan onları öz istehsalı kimi Rusiyaya ixrac edir. Bu gün Ermənistanın idxalının 72 faizi, ixracının isə 41 faizi Rusiyanın payına düşür. İndi oxucularımız bu ölkənin taleyinin kimin əlində olduğunu özləri müəyyənləşdirsinlər...

# Əgər feministlər bu rejimə baş əyirsə...

## ABŞ-da yaşayan iranlı jurnalist və dissident Məsih Əlinejada qarşı “uğursuz ov” 3 ildən çox davam edib

**Hadisənin preambulası bundan ibarətdir: Məsih Əlinejad İran əsilli Amerika vətəndaşıdır. Jurnalist və insan haqları müdafiəçisi olan bu qadın sui-qəsdçilərin hədəfinə çevrilib. 2021-ci ilin iyulunda ABŞ Ədliyyə Departamenti İran kəşfiyyatına çalışan şəxsə və bu ölkədə yaşayan iranlı qadın da daxil olmaqla 4 nəfərə qarşı Məsih Əlinejadı oğurlamaq, ona sui-qəsd törətmək cinayəti ilə bağlı ittiham aktı verib. Bunlar Polad Ömərov, Rafət Əmirov, Xalid Mehdiyev və adı hələlik açıqlanmayan dördüncü adamdır. Bu günlərdə Çexiya Ədliyyə Nazirliyi İran hökumətini tənqid edən şəxsi qətlə yetirməyə hazırlaşmaqda təqsirli bilinən Polad Ömərovu ABŞ-a ekstradisiya edib. Yəni, bütün apellyasiya variantları başa çatdıqdan sonra P.Ömərov Praqanın Vatslav Havel Hava Limanından ABŞ-a yola salınıb.**

İndi isə hadisənin təfərrüatına nəzər yetirək. Polad Ömərov Rafət Əmirov və Xalid Mehdiyevlə birlikdə ABŞ vətəndaşı olan və Nyu-Yorkun Bruklin rayonunda yaşayan, İran rejiminin tənqidçisi Məsih Əlinejada qarşı sui-qəsd cəhdindəki rollarına görə və çirkli pulların yuyulmasında ittiham edilib. Bu barədə Vaşinqton 2023-cü ilin yanvarında məlumat versə də, potensial qurbanın adını açıqlamamışdı. Hələ 2022-ci ildə X.Mehdiyev jurnalist Məsih Əlinejadın Nyu-Yorkun Bruklin məhəlləsindəki evinin qarşısında əlində odlu silah həbs edilmişdi. Buna qədər, yəni 2021-ci ildə ABŞ prokurorları İran kəşfiyyatına bağlı olduqları iddia edilən dörd iranlını bir ictimai fəalı qaçırmaq planında ittiham etmişdi. Həmin sui-qəsdin hədəfinin adı açıqlanmasa da, Reuters agentliyi onun M.Əlinejad olduğunu təsdiqləmişdi.

ABŞ prokurorları rəsmi açıqlamalarında P.Ömərovun Çexiya və Sloveniyada yaşadığını, Çexiya Ədliyyə Nazirliyi isə onun Gürcüstan vətəndaşı olduğunu bildirmişdi. Polad Ömərov 2023-cü ilin yanvarında Çexiyada həbs olunub. Ədliyyə naziri keçən ilin iyul ayında onun Birləşmiş Ştatlara ekstradisiyasına qərar verməsinə baxmayaraq, o, Konstitusiya Məhkəməsinə şikayət etdiyinə görə, qərarın icrası təxirə salınmışdı. Onda Çexiyanın ədliyyə naziri Pavel Blazek tvitində belə yazmışdı: “Bütün aspektləri nəzərə alaraq, Polad Ömərovun ekstradisiyası düzgün qərardır”. Konstitusiya Məhkəməsi qərarı qüvvədə saxladı.

***

“Amerikanın səsi”nin fars xidmətinin tele-şou aparıcısı Məsih Əlinejad qadın hüquqları müdafiəçisi kimi İran rejiminin kəskin tənqidçilərindən biri sayılır. M.Əlinejad uzun illər insan haqları sahəsində ictimai fəallıq göstərir, xüsusən də məcburi hicaba qarşı müxtəlif kampaniyalar aparır və məhz buna görə də təzyiq və təhdidlərə məruz qalır, ona sui-qəsd cəhdləri edilir. Onun sosial mediada kəskin tənqidi çıxışlarına görə üç ildən bəri oğurlanmasının, yaxud sui-qəsd nəticəsində öldürülməsinin planlaşdırıldığı iddia olunur. Rəsmi ittihamnamədə planın kəşfiyyat tərəfindən hazırlandığı qeyd edilib. Əgər istintaq Polad Ömərov, Rəfət Əmirov və Xalid Mehdiyevin qətllər və çirkli pulların yuyulması kimi cinayətlərdə iştirakını sübuta yetirərsə, bu halda hər birini 40 il müddətinə azadlıqdan məhrumetmə cəzası gözləyir.

### “Silahım səsimdir”

Bütün bunlar barədə “Amerikanın səsi”nə danışan Məsih Əlinejad evinin qarşısında həbs edilən şəxsin Xalid Mehdiyev olduğunu deyib:



“Mənim başlanğıcdan Federal Təhqiqatlar Bürosundan aldığım məlumata görə, bu adam silahla dolu avtomobili ilə evimin qarşısında olub. FTB-dən mənə dedilər ki, o, səni öldürmək üçün orada olub. Daha sonra Ceyk Sallivan (ABŞ-ın milli təhlükəsizlik müşaviri-red.) mənə zəng edib dedi ki, Ağ ev mənə qarşı təhdidlərin İran rejimi tərəfindən olduğunu bilir və bunu pisləyir”.

Baş verən hadisənin bütün həyatını alt-üst etdiyini dilə gətirən M.Əlinejad daim yerini dəyişməyə, evindən və ailəsindən uzaqda yaşamağa məcbur olduğunu deyir:

“Təsəvvür edin ki, o adam Bruklində atəş açsaydı, kim bilir neçə qonşum həlak olacaqdı. Mən adi ictimai fəal və jurnalistəm, silahım sadəcə səsimdir. İnstaqram, Twitter və Facebook-da doqquz milyondan çox izləyicim var və mənim yeganə cinayətim İran cəmiyyətində cəsur insanların səsini yaymaqdır. Mən açıq deyirəm, öz həyatımdan qorxmuram. İranda etiraz aksiyalarında 1500 nəfər həlak olub. Elə analar var ki, hələ də həbsxanadadırlar. Mənim həyatım “gender aparteidinə yox” dedikləri üçün zindana atılan iranlı qadınların həyatından fərqlənmir. Amma təslim olmayacağam, zülmə qarşı mübarizəmi davam etdirəcəyəm”.

Məsih Əlinejad radiostansiyanın “siz jurnalist və qadın hüquqları müdafiəçisisiniz. İranlı qadınlar sizə nə söyləyir? Onların tələbləri və narahatlıqları nədir?”– sualına belə cavab verib:

“Siz jurnalistsiniz və barmaqlıqlar arxasında olmağın və ya azadlıqda öz fikrinizi ifadə etmək hüququnuzun yoxluğunun necə bir hiss olduğunu başa düşürsünüz. İranda jurnalistlərin vəziyyəti belədir. Başqa bir məsələ də var. Texnologiya şirkətləri Tehran rejiminə sosial mediada söz azadlığından istifadə etməyə imkan verir, amma, eyni zamanda, xalqın Twitter, Instagram və Facebookdan istifadə etməsi qadağan edilib. Baxın, İranda vəziyyət belədir. Əgər iranlılar sosial mediadan yararla-



nırsa, deməli, onlar cinayətkar sayılırlar. Təkcə orta təbəqə deyil, fəhlə, müəllim, tibb bacısı, avtobus sürücüsü kimi, sıravi vətəndaşlar, İslam Respublikasına dəstək verən fəhlə sinfi indi yoxsulluqdan əziyyət çəkir. Aylardır maaşları verilmir və əgər onlar etiraz etsələr, silahla üz-üzə gələcəklər”.

### “Feministlər hicab geyinib, rejimə baş əyirlər”

“İran xalqını, həqiqətən də, qorxudan, məyus edən və qəzəbləndirən bəzi fəalların, üzdəniraq media qurumlarının və ölkədən kənarda yaşayan bəzi iranlı üzrxahların beynəlxalq mediadan rejimin, guya, normal bir rejim olduğunu nümayiş etdirməkdən ötrü istifadə etməsidir. Buna nə ad vermək olar? Yeddi yaşından sonra qız uşağı saçını göstərsə, o, məktəbə gedə bilməz. Mən indi göründüyüm kimi ictimaiyyət arasına çıxsam, şallaq cəzası alaram. Belə davrandığına görə qadınlar həbsxanaya düşürlər, əxlaq polisi tərəfindən döyülürlər. Yəni, normal həyat yaşadığın üçün həbsxanaya salınırsan. Aman Allahım, mən inana bilmirəm ki, Qərbdə bir çox insanlar bu azadlıqları adi hal kimi qəbul edirlər.

Biz onu da görürük ki, Qərb feministləri mənim ölkəmə gedəndə dediklərimə qətiyyən məhəl qoymurlar. Elələri başlarına hicabı ötrür və rejimə baş əyirlər. Hicab geyinir və deyirlər ki, “bu, sizin mədəniyyətinizdir”. Belə şeylər ürəyimi parçalayır”,– deyən M.Əlinejad bir gün İran qadınlarının çarşabdan xilas olacağına inandığını söyləyir: “Vaxt gələcək, tarix bizi müdafiə etmək əvəzinə zalımları dəstəkləyən, özlərini azad, demokratik sayan ölkələri mühakimə edəcək. Onlar bu hərəkətləri ilə bizə zülm edənləri legitimləşdirirlər. Bu, mənim baxışımdır.

Düşünürəm ki, bütün Qərb ölkələri, yüksək texnologiya şirkətləri mənim səsimi eşitməlidirlər. Bu, həm də bir xahişdir. Mən normal həyat yaşamağa layiqəm. İndi burada dediyim hər bir sözə görə İranda ailəmin başına nə gələcəyini bilmirəm. Hətta, burada da başıma nə gələcəyini təsəvvür etmirəm. Sadəcə, Amerika Birləşmiş Ştatlarının vətəndaşı olaraq öz hüququmdan istifadə edirəm. Məhz haqsızlığa qarşı səsimi ucaltmaq, səssizlərə səsimi vermək üçün vətənimi tərk etmişəm”.

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Faciə qurbanlarının ölməz xatirəsi

## Bakı

**"İRƏLİ" İctimai Birliyi Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər həyata keçirib.**

İctimai birliyin mətbuat xidmətindən bildirilib ki, "İRƏLİ" İctimai Birliyinin nümayəndələri və üzvləri faciə qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət ediblər. Tədbirlər planına uyğun olaraq "Xocalıya Ədalət" kampaniyası çərçivəsində Beynəlxalq Muğam Mərkəzində eyni adlı tədbir keçirilib. Mədəniyyət Nazirliyi, Gənclər Fondunun dəstəyi, "İRƏLİ" İctimai Birliyi, Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Milli Konservatoriyası və "Cadenza" Müasir Orkestrinin birgə təşkilatçılığı ilə həyata keçirilən tədbir soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Diqqətə çatdırılıb ki, hazırda müxtəlif kommunikasiya vasitələri və resurslarından geniş şəkildə istifadə edərək Xocalı həqiqətlərini qlobal şəkildə çatdırmaq məqsədilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya Ədalət" Beynəlxalq Maarifləndirmə Kampaniyası geniş fəaliyyət göstərir.

Faciədən 32 il ötməsinə baxmayaraq, hələ də beynəlxalq ictimaiyyət tərəfindən bu hadisəyə tam hüquqi-siyasi qiymət verilməsə də, ötən ilin sentyabr ayında keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhərində də dövlət suverenliyi tam təmin olunub. Bildirilib ki, Azərbaycan işğal altında olan torpaqlarını azad etməklə bu torpaqlarda ədaləti bərqərar edib. Bütün bunlar bu illər ərzində gənclərin vətənpərvər və ümummilli məsələlərdə fəal olaraq yetişdirilməsinin bariz nümunəsidir.





Tədbirin davamında "Cadenza" Müasir Orkestri, Azərbaycan Milli Konservatoriyasının tələbələrindən ibarət xor kollektivi və istedadlı gənclərin təqdimatında müxtəlif musiqi əsərləri ifa olunub.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının dəstəyi, "İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı ilə "Xocalıda son gecə" tamaşasının nümayişi olub. "İRƏLİ" Mədəniyyət Mərkəzinin üzvlərindən ibarət gənclərin təqdimatında nümayiş olunan tamaşa Xocalıda yaşamış və soyqırımı zamanı düşmənin hücumuna məruz qalmış ailənin yaşantısından, ailənin qəhrəmanlığından bəhs edir.

Tədbirlər çərçivəsində birliyin üzvləri Xocalı soyqırımı haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması məqsədilə sosial şəbəkələrdə də fəal şəkildə təşkilatlanıblar. Ümumilikdə 500-dən çox gəncin iştirakı ilə keçirilmiş kampaniyada gənclər "X" sosial şəbəkə platforması üzərindən Xocalı həqiqətləri ilə bağlı xarici dillərdə infoqrafik tvitlər paylaşılıb.

Tədbirlər müddətində, həmçinin paytaxt və regionlarda yerləşən gənclər və idman idarələri və sosial xidmət müəssisələri ilə tərəfdaşlıq çərçivəsində "İRƏLİ" İctimai Birliyinin lentə aldığı "Böyüməyən uşaqlar" filminin nümayişi keçirilib. Filmdə Xocalıda hər iki valideynini itirmiş 25 uşaq və onların dəhşət dolu həyat hekayələri, habelə Xocalı faciəsinin canlı şahidi, soyqırımı zamanı bütün ailəsini itirmiş Mehdi Əliyevin təəssüratları fonunda bir daha həmin günün dəhşətləri yada salınır. Tədbirlərdə ümumilikdə 1000-dən çox gənc iştirak edib. Eyni zamanda, kampaniya çərçivəsində Nizami Kino Mərkəzində "Müharibə uşaqları" filminin də nümayişi olub.

## Naxçıvan

**Fevralın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət ediblər.**

Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar abidə önünə güllər qoyulub, soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad olunub.

Tədbirlərdə qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücum edib. Şəhərin 2500 sakini xilas olmaq üçün Ağdam istiqamətində hərəkət edib. Ermənilər isə dinc sakinləri güllələbaran ediblər.

1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis "26 fevral Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul edib. Sənəddə hadisənin başvermə səbəbləri və günahkarları təfsilatı ilə açıqlanıb.

Gün ərzində muxtar respublikanın bütün rayonlarında izdihamlı anım mərasimləri təşkil olunub və qətliam qurbanlarının xatirəsi elliklə anılıb.

## Gəncə

**Tarixin ən dəhşətli faciəsi olan Xocalı soyqırımından 32 il ötür. Bununla əlaqədar olaraq, Gəncədə Xocalı sakinlərinin müvəqqəti məskunlaşdığı "Yeni qəsəbə-2" yaşayış massivində yerləşən "Xocalı" abidəsənin önündə ümumşəhər anım mərasimi təşkil olunub.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və rəhbərliyin təmsilçiləri "Xocalı" abidəsinin önünə gül dəstələri düzüb, şəhidlərimizin əziz xatirəsini yad ediblər.

Rəsmi hissədən sonra şəhər rəhbəri "Yeni qəsəbə-2" yaşayış massivində məskunlaşan Xocalı sakinləri ilə görüşüb, onları narahat edən məsələlər ilə maraqlanıb.

## Sumqayıt

**Gənclik şəhərində Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər təşkil olunub. Fevralın 26-da səhər isə şəhər rəhbərliyi və ictimaiyyət nümayəndələri ümumşəhər anım mərasimində iştirak ediblər.**

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtda məskunlaşan Xocalı sakinləri ilə görüşərək 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş qanlı faciənin təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ən ağır soyqırımı cinayətlərindən biri olduğunu vurğulayıb. 44 günlük Vətən müharibəsində Xocalı qurbanlarının qisasının alındığı, qanlarının yerdə qalmadığı bildirilib.



## Mingəçevir

**"Nur şəhəri"nin ictimaiyyət nümayəndələri, Xocalı sakinləri, şəhid ailələrinin üzvləri, 1-ci və 2-ci Qarabağ müharibəsi veteranları, qazilər, müharibə və əmək veteranları, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin kollektivləri Şəhidlər Xiyabanına gedərək Soyqırım abidəsinin önünə gül dəstələri qoyublar.**

Şəhər icra hakimiyyətində davam edən tədbirdə

İcra hakimiyyətinin başçısı İlham İsmayılov tariximizin acı səhifələrindən bəhs edərək bildirib ki, xalqımız 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda erməni hərbi birləşmələrinin 366-cı rus alayının köməyi ilə törətdikləri amansız soyqırımı hadisələrini heç vaxt unutmayacaq.

## Lənkəran

**Fevralın 26-da Lənkəranda erməni separatçılarının beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücumu nəticəsində qətlə yetirilən soyqırımı qurbanlarının xatirəsi anılıb.**

Anım mərasimi Lənkəran şəhərində, azərbaycanlıların soyqırımı qurbanlarının xatirə parkındakı "Ana heykəli" qarşısında keçirilib. Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, şəhər icra hakimiyyəti aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, gənclər və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Abidə önünə gül dəstələri düzülüb, faciə qurbanlarının xatirəsi ehtiramla yad olunub.

Daha sonra Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında "Xocalı soyqırımı" adlı kompozisiya nümayiş etdirilib.



## Şəmkir

**Əvvəlcə Şəmkir Şəhidlər Xiyabanında yerləşən Soyqırım Abidəsi və Şəhidlər Memorial Abidə Kompleksi ziyarət olunub, önünə tər çiçəklər düzülüb.**

Daha sonra insanlıq əleyhinə ən böyük cinayətlərdən olan Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib. Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək bildirib bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi. 2023-cü il oktyabrın 15-də isə Prezident İlham Əliyev isə Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı və bu gün Xocalı şəhidlərinin ruhları şaddır.

## Gədəbəy

Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar rayonda maraqlı tədbir keçirilmişdir. Soyqırım qurbanlarının xatirəsi birdəqiqəlik sükutla qeyd olunmuşdur.

Məktəblilərin qanlı faciəyə həsr olunmuş rəsm sərgisi ilə tanış olan tədbir iştirakçıları daha sonra teatrlaşdırılmış kompazisiyaya baxmışlar.

Rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər iştirak etmişlər.

## Salyan

**26 fevral Xocalı soyqırımının 32-ci ildönümünün qeyd edilməsi ilə əlaqədar Salyanda anım tədbiri mütəşəkkil keçirilib.**



Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq mühafizə orqanlarının rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri "Şəhidlər" xatirə kompleksini ziyarət edib, önünə gül-çiçək dəstələri düzərək, Azərbaycanın ərazi bütövlüyü uğrunda, o cümlədən Xocalı hadisələrində şəhid olan həmvətənlərimizin unudulmaz xatirəsi qarşısında ehtiramla baş əyiblər.

Ziyarətçilər dəstə-dəstə xatirə kompleksinin önündən keçib, faciə qurbanlarının xatirəsini 1 dəqiqəlik sükutla yad edib, şəhidlərin ruhuna dualar oxuyublar. Tədbirdə faciə qurbanlarının xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş olunub.

## Goranboy

**Xocalı Soyqırımı qurbanlarının 32-ci ildönümü ilə bağlı Goranboyda anım tədbiri keçirilib.**

Tədbir Xocalı sakinlərinin müvəqqəti məskunlaşdıqları Goranboy şəhəri Yeni Yaşayış Massivində, Xocalı Soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış Abidə kompleksinin önündə təşkil olunub. Tədbirdə, Goranboy RİH-nin başçısı Məhərrəm Quliyev, rayonun digər rəhbər şəxsləri, Goranboy və Xocalı ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

## Ağstafa

**26 fevral Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar Ağstafa şəhərində Şəhidlər Memorial kompleksi ziyarət olunub.**

Tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin və rayonun hüquq-mühafizə orqanlarının məsul şəxsləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Abidə önünə əklil qoyulub, gül dəstələri düzülüb, faciə qurbanlarının, o cümlədən Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi ehtiramla yad edilib.

## Naftalan

**Naftalan şəhərində Xocalı faciəsi qurbanlarının xatirəsi ehtiramla anılıb. Anım tədbirində ŞİH-nin başçısı, hüquq mühafizə orqanlarının rəhbərləri, YAP Naftalan şəhər təşkilatının sədri, şəhər Ağsaqqallar Şurasının sədri, eləcə də şəhər ictimaiyyətinin nümayəndəri iştirak ediblər.**

Anım tədbirində Şəhidlərin xatirəsinə ucaldılmış "Vətən Uğrunda Həlak Olanların Memorial Kompleksi" ziyarət olunub, gül dəstələri düzülüb, ruhlarına dualar oxunub.



## Göyçay

**Fevralın 26-da keçirilən anım mərasimində rayon icra hakimiyyəti başçısı aparatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri, Göyçayda məskunlaşmış Xocalı soyqırımı qurbanlarının ailə üzvləri iştirak ediblər.**

Şəhidlər Xiyabanı ərazisində "Xocalı Soyqırımı" abidə kompleksinə gül dəstələri düzülüb, faciə qurbanlarının xatirəsi ehtiramla yad olunub.

Tədbirdə respublikanın Əməkdar müəllimi Pərviz Yəhyalı, Xocalı sakini Mustafa Hümbətov və digər natiqlər çıxış edərək bildirdilər ki, bu faciə hər birimizi dərindən yaraladı, amma milli iradəmizi, azadlıq eşqimizi, işğalla bağlı barışmaz mövqeyimizi sarsıda bilmədi, bizi daha da mətinləşdirdi.

## Quba

**Rayon icra hakimiyyətində Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş görüş keçirilib.**

Tədbirdə rayon rəhbərliyi, Ağsaqqallar Şurasının və icra hakimiyyəti yanında ictimai şuranın sədrləri, həmçinin Quba rayonunda məskunlaşmış Xocalı sakinləri iştirak ediblər. Öncə Xocalı soyqırımı qurbanları və ölkəmizin azadlığı, dövlət müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş bütün soydaşlarımızın əziz xatirələri 1 dəqiqəlik sükutla yad ediliblər. Sonra çıxış edənlər Xocalı faciəsinin təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş və xüsusi amansızlıqla törədilmiş ən ağır hərbi cinayətlərdən biri olduğunu qeyd ediblər.

**Səhifəni hazırladılar:**
**Əli NƏCƏFXANLI,**
**İlqar HƏSƏNOV,**
**Hamlet QASIMOV**
**XQ**

# Xocalı fəryadı dünyanı ədalətə çağırır

## Türkiyə

**Türkiyənin paytaxtı Ankara şəhərinin Keçiörən bələdiyyəsində Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı anım tədbiri keçirilib.**




"Kalaba" Türk Dünyası Meydanında "Unutmadıq, unutmayacağıq, unutdurmayacağıq" şüarı ilə keçirilən anım mərasimi Azərbaycanın Ankaradakı səfirliyi və Keçiörən bələdiyyəsi tərəfindən təşkil olunub.

Mərasimdə deputatlar, diplomatik korpusun və Ankara ictimaiyyətinin tanınmış nümayəndələri, Türkiyədə hərbi təhsil alan həmvətənlərimiz və yerli əhali iştirak edib.

Tədbirdə çıxış edən Ankaranın Keçiörən bələdiyyəsinin sədri, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Ankara bələdiyyəsi sədrliyinə namizədi Turqut Altınok, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, Türkiyə Prezidenti Administrasiyasının Təhlükəsizlik Xidmətinin üzvü Aygün Attar və Ankara Universitetinin rektoru Nejdet Univar Xocalı soyqırımı haqqında danışıb, ermənilər tərəfindən törədilən bu faciənin bəşəriyyətin ən qanlı hadisələrindən biri olduğunu vurğulayıblar.

Erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri amansız cinayətlərin ifşa edilməsinin vacibliyini vurğulayan Şamil Ayrım bildirib ki, Xocalıda qadın, uşaq, yaşlı demədən dinc əhalinin vəhşicəsinə öldürülməsi, hamilə qadınların bətninin yarılması kimi ağır işgəncələr bəşəriyyətin ən ağrılı faciələrindəndir. Çıxışçılar dünyaya "Xocalıya ədalət" çağırışları səsləndiriblər, erməni lobbisi və tərəfdarlarının Türkiyəyə qarşı iddia etdikləri saxta "erməni soyqırımı"nın araşdırılmasını təklif ediblər.

*

**İstanbulun Beyoğlu rayonunda yerləşdirilən reklam panolarında Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı videoçarxlar nümayiş etdirilib. Bu təşəbbüs Azərbaycanın İstanbuldakı Baş konsulluğu və Beyoğlu Bələdiyyəsi tərəfindən həyata keçirilib.**

Şəhərin ən mərkəzi hissələrində nümayiş etdirilən videoçarxlarda Xocalı abidəsi və o günlərə aid görüntülər əks olunub.

Nümayiş bu gün gecə saatlarınadək davam edəcək.

Azərbaycanın İstanbuldakı Baş konsulluğunun binasında da "Xocalı soyqırımı, unutma, unutdurma" sözlərinin yer aldığı lövhə asılıb.

## Pakistan

**Azərbaycanın Pakistandakı səfirliyi bu ölkənin aparıcı beyin mərkəzlərindən olan Müslüm İnstitutu ilə birgə Pakistan Milli Kitabxanasında Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunan seminar təşkil edib.**




Toplantıda Pakistan Senatının Müdafiə Komitəsinin sədri, senator Müşahid Hüseyin Seyid, İnsan Hüquqları komitəsinin sədri, senator Valid İqbal, xarici ölkələrin səfirləri, digər diplomatlar, müxtəlif beyin mərkəzlərinin və universitetlərinin rəhbərləri, ictimaiyyətin və KİV-in nümayəndələri iştirak ediblər.

Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov Azərbaycan xalqının erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qaldığını bildirib. O, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını pozaraq keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı ilə birlikdə Xocalıya hücum edərək bu şəhəri yerlə-yeksan etdiyini vurğulayıb. X.Fərhadov məhz Ümummilli lider Heydər Əliyevin təşəbbüsü əsasında faciəyə hüquqi-siyasi qiymət verildiyini bildirib.

Səfir 2023-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Xocalı şəhərinə səfərini və orada Azərbaycan bayrağını ucaltmasını qonaqların diqqətinə çatdırıb.

## Şimali Kipr

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib. Şimali Kipr Prezidenti 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımından 32 il keçməsinə baxmayaraq, bu hadisənin heç vaxt unudulmayacağını və türklərin birlikdə olduğunu dünyaya göstərmək üçün birgə səylər göstərildiyini qeyd edib.**



Prezident E.Tatar, eyni zamanda, diqqətə çatdırıb ki, insanlıq və dünya tarixinə qara ləkə kimi düşən Xocalı qətliamında qocalar, qadınlar və uşaqlar da daxil olmaqla, 613 azərbaycanlı erməni silahlıları tərəfindən vəhşicəsinə öldürülüb, yüzlərlə insan itkin düşüb və minlərlə sakin əsir götürülüb.

## Gürcüstan

**Fevralın 26-da Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində Tbilisidə tanıtım aksiyası keçirilib.**

Üzərində Xocalı soyqırımının və Qələbəmizin rəmzlərindən ibarət məlumatlandırıcı lövhələr quraşdırılmış avtomobil Tbilisinin mərkəzi küçə və prospektləri boyunca hərəkət edib. Avtomobilin üzərində quraşdırılmış elektron lövhələrdə Xocalı abidəsi, xarıbülbül, badam gülü və "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə bağlı məlumat toplusu əks olunub.




*

**Gürcüstanın Marneuli şəhərindəki "Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin" (GAİM) təşkilatçılığı ilə Xocalı soyqırımının 32-ci ildönümnə həsr olunmuş şahmat çempionatı keçirilib. Yarışda 6-9 və 10-15 yaş qruplarında 48 şahmat həvəskarı iştirak edib.**

Tədbir iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Mərkəzin icraçı direktoru Murad Muradov Xocalı faciəsi barədə ətraflı məlumat verərərk bildirib ki, bu qanlı faciədən 32 il keçməsinə baxmayaraq, xalqımız soyqırımı qurbanlarını heç zaman unutmayıb və unutmayacaq. Xocalı soyqırımı xalqımızın tarixinə təkcə qanlı faciə kimi deyil, həm də qəhrəmanlıq mübarizəsi kimi yazılıb.

*

**Dmanisidə fəaliyyət göstərən Dmanisi Tədris Mərkəzində Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı "Xocalı soyqırımı – Qan yaddaşımız" adlı anım mərasimi keçrilib. Mərasimdə mərkəzin müəllim və şagirdləri, gürcü ictimaiyyətinin nümayəndələri, tələbələr iştirak ediblər. Əvvəlcə məktəb şagirdlərinin Xocalı faciəsinə həsr edilmiş rəsm əsərlərinə baxış keçirilib.**

Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra mərkəzin rəhbəri Kamran Xıdırov çıxış edərək 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələrinin Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücumu, dinc sakinlərin qəddarlıqla güllələbaran edilməsi barədə geniş məlumat verib. Çıxış edən müəllim və tələbələr Xocalı qurbanlarının xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını bildiriblər. Sonda "İşgəncələr məbədi – Şuşa həbsxanası" sənədli filmi nümayiş etdirilib.

## Çin

**Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Azərbaycanın Çindəki səfirliyində anım mərasimi keçirilib.**



Diplomatların, Çin ictimaiyyətinin nümayəndələrinin, Çində yaşayan və təhsil alan azərbaycanlıların iştirak etdikləri tədbirdə əvvəlcə səfirliyin ərazisindəki "Xarıbülbül" barelyefinin önünə gül dəstələri qoyulub, Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səslənib.

Səfir Bünyad Hüseynov 32 il əvvəl Xocalıda törədilmiş insanlıq əleyhinə cinayətdən bəhs edib, bunun bir qətliam, soyqırımı olduğunu deyib. Bildirib ki, keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə erməni millətçiləri Xocalıda yaşından, cinsindən asılı olmayaraq dinc əhaliyə qarşı misli görünməmiş vəhşilik edib. Xocalı müsibəti ermənilərin zaman-zaman Azərbaycan-türk əhaliyə qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən acı səhifələrindən biridir.

## Böyük Britaniya

**London və Edinburq şəhərlərində Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş məlumatlandırma aksiyası keçirilib.**



LED ekranı quraşdırılmış avtomobillər hər iki şəhərin əsas küçələri ilə hərəkət ediblər, Britaniya ictimaiyyətinə Xocalı ilə bağlı həqiqətləri çatdırıblar.

## Almaniya

**Berlində yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın Almaniyadakı səfirliyi Xocalı soyqırımına həsr olunmuş anım mərasimi keçirib.**

Səfirliyin Xocalı soyqırımına dair alman dilində hazırladığı qısa film nümayiş etdirilib. Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxışında Xocalı soyqırımının soyuq müharibənin bitməsindən sonra Avropada baş vermiş ilk soyqırımı olduğunu bildirib. O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "Xocalıya ədalət" kampaniyasının Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük rol oynadığını qeyd edib.

Daha sonra Xocalı soyqırımına həsr edilmiş "Geriyə baxma" sənədli filminin və S.Müslümqızının müəllifi olduğu "Onlar heç vaxt böyüməyəcəklər" kitabının təqdimatı keçirilib.

Sonda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehsan verilib.

## Ukrayna

Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə Ukrayna Müsəlmanları Dini İdarəsində Xocalı soyqırımının 32-ci ildönümü münasibətilə anım tədbiri keçirilib və ehsan süfrəsi açılıb.

Kiyevin ən böyük məscidində keçirilən mərasimdə səfirliyin diplomatları, diaspor fəallarımız, soydaşlarımız, dini xadimlər iştirak ediblər. Anım tədbiri şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Ukrayna Müsəlmanları Dini İdarəsinin sədri, Ukraynanın müftisi Şeyx Əhməd Təmim və digər dini xadimlər tərəfindən Xocalı soyqırımında şəhid olanların əziz xatirəsinə müqəddəs kitabımız olan "Qurani Kərim"dən ayələr və "Yasin" surəsi oxunub.

Daha sonra çıxış edən Azərbaycanın Ukraynadakı səfirliyinin birinci katibi Fərid Babayev Xocalı soyqırımı haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Xocalı soyqırımı artıq dünya ictimaiyyəti tərəfindən tanınıb və bu proses davam edir. Günahsız insanların vəhşicəsinə qətlə yetirilməsinə heç bir bəraət yoxdur və ola da bilməz. Bu, Azərbaycan xalqına qarşı törədilən əsl soyqırımı idi.

## Bolqarıstan

**Azərbaycanın Bolqarıstandakı səfirliyi Sofiyanın mərkəzi məscidində bu ölkənin Baş Müftiliyi ilə birgə Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirib.**



Bolqarıstanın Baş müftisi mərasimdə iştirak edən yüzlərlə insan qarşısında söylədiyi xütbədə Xocalı soyqırımı kimi kütləvi qırğınların gələcəkdə təkrarlanmaması üçün insanların günah əməllərdən çəkinməsinin önəmini vurğulayaraq Azərbaycanın bütün şəhidlərinin ruhuna dualar oxuyub.

Azərbaycanın Bolqarıstandakı səfirliyi tərəfindən Sofiyanın mərkəzi məscidinin ətrafında Xocalı soyqırımı ilə bağlı müvafiq posterlər yerləşdirilib və ehsan süfrəsi açılıb. Bundan əlavə, Xocalı soyqırımı ilə bağlı həqiqətlər Bolqarıstan mətbuatında da işıqlandırılıb.

## Polşa

**Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Varşavada Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunan anım mərasimi keçirilib.**



Səfir Nərgiz Qurbanova bir neçə gündən sonra 32-ci ildönümü qeyd ediləcək Xocalı soyqırımının Ermənistan-Azərbaycan münaqişəsində ən böyük qətliam olduğunu diqqətə çatdırıb. Xocalıda törədilmiş cinayətin Ermənistanın sistemli siyasətinin tərkib hissəsi olduğunu qeyd edən diplomat Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin bir çox başqa kənd və şəhərlərində də dinc sakinlərin analoji qırğınlara məruz qaldığını söyləyib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətin soyqırımı aktı olduğunu diqqətə çatdırıb. O, bu qırğını Xatın, Holokost, Srebrenitsa və Ruandadakı soyqırımlarla müqayisə edib. O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasından da söz açıb.

## Kuba

**Kubanın nüfuzlu mətbuat orqanlarından biri "Prensa Latina" xəbər agentliyinin rəsmi səhifəsində Azərbaycanın Kubadakı səfiri Ruslan Rzayevin "Xocalı, insanlığa qarşı cinayət" (Jodyalí, un crimen de lesa humanidad) başlıqlı məqaləsi dərc olunub.**

Məqalədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində Ermənistan ordusu tərəfindən 63-ü uşaq, 106-sı qadın və 70-i qoca olmaqla 613 nəfər mülki azərbaycanlıya qarşı törədilmiş amansız qətliamın - Xocalı soyqırımının bu il 32-ci ildönümünün anılacağı bildirilib. Tarixən bu torpaqlarda yaşamış mülki azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğın, soyqırımı və etnik təmizləmə siyasətinin təkcə Xocalının deyil, bütün Qarabağın əhalisinin fundamental hüquqlarını pozduğu vurğulanıb.

Yazıda, həmçinin Ermənistanın keçmiş müdafiə naziri və sabiq prezidenti Serj Sarkisyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində səsləndirdiyi - "Xocalıdan qabaq azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdır. Biz bu stereotipi sındırdıq", - fikirlərinə yer verilib.

## İtaliya

**Xocalı soyqırımına görə məsuliyyət daşıyanların cəzalandırılması xalqlar arasında barışıq üçün əsasdır. Çünki ədalət olmadan heç vaxt qəti sülh olmaz. Bu sözləri İtaliya Senatının Avropa İttifaqı siyasəti komissiyasının sədri, senator Ciuliomaria Terzi Di Sant'Aqata deyib.**

Senator daha sonra deyib: "Bu gün biz yüzlərlə dinc azərbaycanlının erməni silahlı birləşmələri və sovet alayı tərəfindən qətlə yetirildiyi Xocalı faciəsinin qurbanlarının xatirəsini anırıq. 1992-ci il fevralın 26-da baş vermiş bu dəhşətli faciə Qarabağ müharibəsinin ən böyük qırğını və ən qanlı epizodlarından biri hesab olunur. 1992-ci ildə baş verənlər zülmə, zorakılığa, işgəncəyə, etnik zəmində dağıdıcılığa əsaslanıb, digər xalqları məhv etmək istəyi və soyqırımı aktıdır. Bu faciə 1990-cı illərin əvvəllərində Azərbaycan millətinə qarşı törədilən vəhşiliklərin davamıdır. Məhz buna görə də bu gün beynəlxalq ədalət uğrunda bağlılıq və mübarizə anı olmalıdır".

## İordaniya

**İordaniyanın aparıcı "Əl-Ənbat" hökumət qəzetinin elektron versiyasında, eləcə də geniş oxucu kütləsinə malik www.orobanews.com, www.alsaa.net, www.nayrouz.com, www.johinanews.com və www.nbnjo.com elektron xəbər portallarında Xocalı faciəsinin 32-ci ildönümü ilə bağlı ölkəmizin Krallıqdakı səfirliyi tərəfindən yerli mətbuata verilmiş bəyanat əsasında "Azərbaycan Respublikası səfirliyinin Bəyanatı: Xocalı soyqırımı – müasir tarixin ən dəhşətli qətliamı yaddaşlarımızdan heç vaxt silinməyəcək" sərlövhəli məqalə dərc edilib.**

Məqalədə Xocalı soyqırımı ilə bağlı tarixi faktlar, həmçinin bu faciənin Yazıda Xocalı qətliamına bir sıra ölkələrin qanunverici orqanları tərəfindən hüquqi qiymətin verildiyi və bu xüsusda, İƏT Xarici İşlər Nazirləri Şurası, İslam Zirvə Konfransı, Parlament İttifaqının sessiyalarında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamələrin qəbul edildiyi diqqətə çatdırılır, 2013-cü il iyunun 19-da İordaniya Senatı tərəfindən Xocalı soyqırımına dair qəbul edilmiş bəyanata görə Azərbaycan xalqı adından təşəkkür ifadə edilir. Bundan əlavə, məqalədə ölkəmizin 2023-cü ilin sentyabr ayında Qarabağ bölgəsində uğurla həyata keçirdiyi antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü tam bərpa etdiyi bildirilir.

## Cənubi Koreya

**Azərbaycanın Koreya Respublikasındakı səfirliyi Koreya–Azərbaycan Mədəniyyət Mərkəzi və Koreyanın "FarmConnect" şirkəti ilə birlikdə Seul şəhərinin Yonqsan rayon bələdiyyəsinə məxsus İncəsənət zalında Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş simpozium təşkil edib.**

Koreya Respublikasında akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri və əməkdaşlarının, Koreyanın mədəniyyət, elm, təhsil dairələrinin nümayəndələrinin, media təmsilçilərinin və Azərbaycan diasporunun üzvlərinin iştirak etdikləri tədbirdə Azərbaycan səfiri Ramin Həsənov Xocalı soyqırımının təfərrüatları, bu faciənin siyasi və hüquqi mahiyyəti və ümumilikdə, Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi çoxsaylı cinayətlər barədə məlumat verib. O, Xocalı cəlladlarının ədalət mühakiməsinə cəlb olunacaqlarına əminliyini bildirib, bu xüsusda Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini diqqətə çatdırıb.

Koreyada yaşayan gənc azərbaycanlı, "Seul şəhərinin fəxri vətəndaşı" adının daşıyıcısı, Azərbaycanın Qubadlı rayonundan məcburi köçkün düşmüş Rahil Əhmədova yaşadığı çətinliklərdən danışıb. Bildirib ki, köçkünlük həyatı onu ruhdan salmayıb, əksinə, daha yaxşı dünya naminə mübarizə aparmaq əzmi yaradıb. Rahil Əhmədova hazırda bu amalına Koreyada yaşayan əcnəbi ailələrin inteqrasiyasına yardımla xidmət etdiyini bildirib.

## Yunanıstan

**"QALA" Yunanıstan–Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Yunanıstanın Saloniki şəhərində Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar "Xocalıya ədalət!" adlı anım tədbiri keçirilib. Tədbirdə Azərbaycanın Yunanıstandakı səfirliyinin, digər diplomatik korpusların əməkdaşları, yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.**



Cəmiyyətin sədri Rəşid Məmmədov giriş sözü ilə çıxış edərək, Xocalı faciəsində yüzlərlə günahsız insanın ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirildiyini xatırladaraq vurğulayıb: "Başımıza gətirilən belə faciələri unutmamalı, gənclərimizə daim soyqırımı həqiqətlərini aşılamalıyıq". Azərbaycanın Yunanıstandakı səfiri Arif Məmmədov isə çıxışında bildirib ki, 1992-ci il fevralın 26-da tarixdə analoqu çox az olan hadisələrdən biri – Xocalı soyqırımı baş verib. Xocalı faciəsi XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

Vurğulanıb ki, Xocalı şəhəri ötən il sentyabrın 19-da Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan tamamilə təmizlənib və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

## Hollandiya

**Haaqada Hollanda–Azərbaycan Türk Kültür Dərnəyinin təşkilatçılığı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş səssiz yürüş keçirilib.**




Aksiyada Niderlanddakı Azərbaycan və türk icmasının 60-dan çox üzvü iştirak edib. Əllərində "Xocalıya ədalət!" plakatı və Azərbaycan bayraqları, eləcə də Xocalı soyqırımı qurbanlarının xatirəsini rəmzləşdirən yanan şamlar tutan yürüş iştirakçıları Haaqanın mərkəzi dəmir yolu vağzalından Ədalət Sarayına doğru hərəkət ediblər.

Haaqa ictimaiyyətinin diqqətini Xocalı faciəsinə cəlb etmək üçün Ədalət Sarayı qarşısında yürüş iştirakçıları yanan şamlarla "Justice for Khojaly!" yazıblar. Onlar beynəlxalq ictimaiyyətdən Xocalı faciəsinin müəlliflərinin cəzalandırılmasını istədiklərini bildiriblər.

**Səhifənin materiallarını redaksiyanın poçtuna daxil olmuş və informasiya agentliklərindən alınmış xəbərlər əsasında Tahir AYDINOĞLU hazırlayıb.**

# AMEA yeni mərhələdə: elmi fəaliyyətin təşkilində sinergizm

## (Prezident İlham Əliyevin çağırışları fonunda)



III MƏQALƏ

**Azərbaycan dövlətinin ən yüksək elmi müəssisəsi Elmlər Akademiyasıdır. Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaq. Azərbaycan Elmlər Akademiyası dövlətin akademiyasıdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

1997-ci ildə Ulu öndər yuxarıda vurğulanan fikirlərlə yanaşı, onu da demişdi ki, biz akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq, heç vaxt imkan vermək olmaz ki, akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz. Bu fikirlərdən aydın olur ki, AMEA Azərbaycan dövləti üçün böyük əhəmiyyət kəsb edir və həm də bu elmi təşkilatın üzərinə böyük tədqiqat məsuliyyəti düşür. Biz bu ümumi kontekst çərçivəsində II məqalədə ifadə olunan fikirləri inkişaf etdirməyə çalışacağıq.

### Birgə elmi və elmi-texniki tədbirlərin təşkili

Bu baxımdan II məqalədə vurğuladığımız sonuncu tezisin fonunda 7-ci və 8-ci istiqamətlərin ("birgə elmi və elmi-texniki tədbirlərin təşkili" və "fənlərarası fəaliyyətin inkişaf etdirilməsi və icrasının təkmilləşdirilməsi məqsədilə Direktorlar Şurasının yaradılması") də iki mühüm cəhəti ifadə etdiyini görmək mümkündür. Onlar elmi fəaliyyətin təşkilinin AMEA-daxili və kənar mühit miqyaslarında funksional aspektinə aiddir. 7-ci istiqamətdən başlayaq.

Müasir anlama görə, elmi tədqiqaların təşkili biliklərin formalaşmasında önəmli rol oynayır. Burada həm prosesin sırf araşdırma aspektində idraki aspekti, həm də alınan biliklərin praktiki tətbiqinin səmərəli üsulunun müəyyən edilməsi baxımından məsələ çox aktual sayılır. Buna nail olmaqda müxtəlif elmi müəssisələr arasında elmi və elmi-texniki tədbirlərin təşkili xüsusi rol oynayır. Elmi tədbirlərin təşkilinin iki aspekti akademik araşdırmaların səmərəliliyi baxımından əhəmiyyətlidir. Onlardan biri müzakirələr əsasında ən aktual mövzuların dairəsinin dəqiqləşdirilməsi ilə bağlıdır. Digəri isə tədqiqatçılar arasında kommunikasiyanın (informasiya və bilik mübadiləsi) canlı təşkili ilə əlaqəlidir. Təcrübə göstərir ki, bu iki aspekt sintez halında elmi axtarışlar mühitini daha səmərəli edə bilər.

Məsələnin kommunikasiya tərəfi həm də alimlərin elmi əsərləri vasitəsilə yaradıcı "ünsiyyətdə" olmaqla sıx əlaqəlidir. Bu səbəbdən, dünya miqyasında tədqiqatçılar bir-birinin yaradıcılığı ilə tanış olmağın ortaq standartlarını, normalarını axtarırlar. İmpaktfaktor indeksli jurnallar buna xidmət edə bilir.

Deməli, elmi tədbirlərin müxtəlif miqyaslarda təşkili, faktiki olaraq, bir neçə səviyyədə elmi fəaliyyəti gücləndirməyə imkan yarada bilər. Birincisi, müxtəlif elmi müəssisələrin əməkdaşları birgə müzakirələr əsasında ümumi mənzərə haqqında ortaq təsəvvürə malik ola bilərlər. Nümunə kimi, AMEA-da yeni rəhbərliyin hər hansı elmi problemlə bağlı müxtəlif institutların birgə müzakirəsini təşkil etməsini göstərə bilərik. Onun konkret faktı kimi, Fəlsəfə və Sosiologiya İnstitutu ilə Filologiya, Tarix və Folklor institutlarının "milli fəlsəfə necə mümkündür?" sualı ətrafında ortaq müzakirələrin aparılmasını göstərə bilərik.

Maraqlıdır ki, məruzəçi filosof deyildi, lakin təhlilləri diqqəti çox çəkdi və geniş müzakirələr fərqli fənlərin baxışlarının həm özəlliyini, həm də ortaq baxışların formalaşmasının idraki sərhədlərini müəyyən etməyə imkan yaratdı. Təbii ki, bu kimi proseslər davamlı olmalıdır. Müzakirələrin sonunda da bu qənaətə gəlindi. Bundan daha əhəmiyyətli və maraqlı olanı isə praktiki aspektdə AMEA və institut rəhbərlərinin oxşar tədbirlər təşkil etmək üçün real addımlar atması oldu. Artıq filosoflar, tarixçilər, filoloqlar, folklorşünaslar, şərqşünaslar və digər ictimai və humanitar elm sahəsinin tədqiqatçıları tez-tez birgə tədbirlərdə müzakirələr aparırlar.

Bu bağlılıqda AMEA rəhbərliyinin birbaşa motivəedici və təşkiledici təşəbbüsləri əsasında Fəlsəfə və Sosiologiya İnstitutunun rəhbərliyi aktiv surətdə müasir və klassik Azərbaycan şair və yazıçılarının yaradıcılığının müxtəlif aspektlərini filoloqlar, tarixçilər, şərqşünaslar və folklorşünaslarla dərindən müzakirə etmələrini xüsusi vurğulamaq lazımdır. O cümlədən son zamanlar Azərbaycan tarixinin, Azərbaycan–Türkiyə, Azərbaycan–Pakistan, Azərbaycan–Rusiya və sair münasibətlərin aktual məsələlərinin tarixçilər, filosoflar, siyasətçilər, filoloqlar, şərqşünaslarla birgə müzakirəsi maraqlı interdisiplinar yaradıcılıq mühitinin formalaşmasına əlavə təkanlar verir. Belə görünür ki, AMEA rəhbərliyi bu istiqamətdə institutların fəallığını artırmaq üçün lazım olan addımları atmaqda qərarlıdır.

Şübhə yoxdur ki, sosio-humanitar elmlərin fənlərarası əlaqələr istiqamətində ortaq araşdırma sahəsi axtarışları özünün müsbət bəhrəsini verəcəkdir və həmin prizmada milli ideya və ölkənin strateji inkişafı kimi əsas idraki araşdırma hədəfinin daha adekvat tədqiqi üçün münbit fəaliyyət mühiti formalaşmaqda davam edəcəkdir. Bu baxımdan artıq AMEA-nın demək olar ki, bütün institutları müxtəlif aspektlərdən yeni tarixi mərhələdə milli ideyanı və strateji inkişaf konsepsiyasını araşdırırlar.

Elmi tədbirlərin təşkilinin digər aspekti AMEA ilə kənarda olan elmi müəssisələr və ya akademik strukturlarla birgə tədbirlər təşkil etməsi ilə əlaqəlidir. Bu istiqamətdə də AMEA rəhbərliyi konkret və səmərəli addımlar atır. Nümunə kimi, qardaş Türkiyənin və digər türk dövlətlərinin elmi strukturları ilə yeni səviyyədə əməkdaşlığı nümayiş etdirən tədbirlərin təşkilini göstərə bilərik. Bu fəaliyyət nəticəsində artıq AMEA Türkiyənin impakfaktorlu indeksə malik nəşrləri ilə daha sıx və konkret nəticələr verən münasibətlər qura bilmişdir. AMEA rəhbərliyi eyni məntiqlə Mərkəzi Asiya dövlətləri ilə əlaqələri gücləndirir və genişləndirir. İndi həmin regionda keçirilən mühüm elmi tədbirlərə Azərbaycan tərəfi də mütləq dəvət alır.

Bütün bunların fonunda AMEA rəhbərliyinin hər bir əməkdaşın elektron ünvanda yaradıcılığının geniş əks olunmasını tələb etməsi vacibdir. Bütövlükdə, AMEA-da yeni texnoloji mexanizmlərin tətbiqinin yeni səviyyəyə yüksəldilməsi ilə bağlı AMEA Rəyasət Heyətində xüsusi "Elektron Akademiya" şöbəsinin yaradılması öz müsbət nəticələrini verməkdədir. Vurğulanan kontekstdə AMEA-da yaradılmış Direktorlar Şurası da elmlərarası əlaqələrin inkişafına öz töhfəsini verməlidir.

### Direktorlar Şurası

Bu, yeni tarixi mərhələdə müxtəlif elm sahələri arasında praktiki əməkdaşlığı gücləndirmək işinin təşkili və konkret proqramların hazırlanaraq icrasına başlanılması baxımından olduqca faydalı görünür. Eyni zamanda AMEA-nın bütün institutlarının rəhbərlərinin demokratik əsasda müzakirələrdə iştirakı təşkilatda kollegial qərarların alınması imkanlarını genişləndirir. Bu kontekstdə məsələnin iki aspektini vurğulamaq lazımdır.

Birincisi, hər bir institutun yaradıcılıq planlarının digər institutlarla müzakirə əsasında dəqiqləşdirilməsi ilə bağlıdır. Bütün institutlar bu sahədə bir-birilərini artıq zamanında və açıq "görə biləcəklər". Hər bir institut təşəbbüs üçün "canlı müzakirələr meydanı" əldə etmiş olur. Bunun da təbii ki, həm yaradıcı, həm də psixoloji müsbət təsirləri mütləq olacaqdır. Bundan başqa, müzakirələr AMEA üçün aktual hesab edilən elmi problemlərin qoyuluşu, tədqiqat üsulları və konkret proqramlar üzrə reallaşması üçün lazım olan yaradıcılıq mühitini formalaşdıracaq.

İkincisi, direktorların kommunikativ əlaqələr nəticəsində real interdisiplinar yaradıcılıq mühitinin formalaşması imkanlarını yüksəltmələri ilə bağlıdır. İnterdisiplinar tədqiqat mühitinin real əsasda qnoseoloji və metodoloji sferaların qarşılıqlı əlaqəsində yaranması sonrakı mərhələ üçün əhəmiyyətli fəaliyyət platformasının əmələ gəlməsi anlamına gəlir. Bu xüsusiyyət isə müasir elmi araşdırma fəlsəfəsi üçün böyük əhəmiyyəti olan tədqiqatın təşkilinin həm sırf yaradıcılıq imkanlarının inkişafına, həm də alınan biliklərin praktiki tətbiqi prosesinin səmərəli təşkilinə yeni təkan verməsi ilə əlaqəlidir. Məsələn, Direktorlar Şurası mexanizmi Azərbaycanda alimlərin elmi ünsiyyətlərinin inkşafına ciddi töhfə verə bilər. Bunu həm müxtəlif elmi nəşrlərdə dərc edilən əsərlərlə tanışlıq, həm də onların ortaq müzakirəsini təşkil etmək aspektlərində həyata keçirə bilərlər.

Məlumdur ki, müasir dövrdə alimlərin bir-birinin yaradıcılığı ilə tanışlığı prinsipial müsbət əhəmiyyət kəsb edir. Bir neçə alimin birləşib məqalələr və monoqrafiyalar yazması da başqa məqamlarla yanaşı, həm də ortaq ünsiyyət sahəsinin yaranmasına xidmət edir. Burada sözsüz ki, universal elmi linqvistik sahənin formalaşması baxımından da konkret perspektivlər meydana gələ bilər. Deyək ki, Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşlarının "Elmi Əsərlər"də dərc olunan məqalələri ilə AMEA-nın digər institutlarının əməkdaşlarının davamlı və sistemli tanışlığı və bu prosesin qarşılıqlı aparılması yekunda yaradıcı bəhrəsini verəcəkdir.

Fikrimcə, Direktorlar Şurasının bu funksiyanı yerinə yetirməsi həm yaradıcılıq, həm də işlərin təşkili baxımından faydalı ola bilər. Vurğulanan bütün sibstantiv və funksional özəlliklərinə görə, Direktorlar Şurasının yaradılmasını elmlərarası əlaqələrin inkişafı üçün səmərəli bir addım hesab edirik. Eyni zamanda bu mexanizmin AMEA-nın qarşısına qoyduğu milli ideya və ölkənin strateji inkişafı məsələlərinin araşdırılmasına öz töhfəsi ola bilər.

***

Təbii ki, 3 məqalədə AMEA kimi böyük elm təşkilatında tədqiqatın təşkilinin sinergizmini tam əhatə etmək mümkün deyildir. Belə bir məqsəd də qarşıya qoyulmamışdır. Eyni zamanda irəli sürülən fikirlər, sadəcə olaraq, bir tədqiqatçının mövqeyini ifadə edir.

Bununla yanaşı, bütövlükdə, AMEA-nın indiki rəhbərliyinin həyata keçirdiyi tədqiqat proqramları və fəaliyyətin təşkili fəlsəfəsinin təhlili göstərir ki, Azərbaycanın baş elmi təşkilatı dövlətçiliyə xidmət edən fəaliyyət istiqamətini seçmiş və bu istiqamətdə artıq konkret addımlar atır. Bu zaman Prezident İlham Əliyevin müəyyən etdiyi vəzifələr və elmi hədəflər rəhbər tutulur.

AMEA vurğulanan istiqamətdə yeniləşərək tədqiqatların qarşılıqlı əlaqəsini və onların həyata keçirilmə mexanizmlərini də təkmilləşdirir. Əlbəttə, bu proses istənilən ölkədə müəyyən zaman ala bilər. Ancaq bir şey tam aydındır: AMEA rəhbərliyi bu elmi təşkilatın fəaliyyətini tamamilə dövlətçiliyə xidmət məcrasına yönəltmişdir! Bu faktın özü böyük uğurların müjdəçisidir! Azərbaycan alimləri ilk növbədə Azərbaycan üçün çalışmalıdırlar!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Sosial islahatlar insanlara xoş güzəran gətirir

**Dövlət başçısının tapşırıqları əsasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həssas qrupların qayğı ilə əhatə olunması istiqamətində aparılan ardıcıl sosial islahatlar, əldə olunan sosial nailiyyətlər ilbəil vətəndaşların sosial müdafiəsini gücləndirir. Bu fikirləri DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən 2023-cü ildə korporativ sosial məsuliyyət tədbirlərində fəal iştirakı ilə seçilən sosial tərəfdaşların mükafatlandırılması mərasimində əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev səsləndirib.**

Mərasimdə gənclər və idman naziri Fərid Qayıbov, KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov, Ombudsman Səbinə Əliyeva, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Cavanşir Alxasov, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin rəis müavini Oqtay Məmmədov, deputatlar Məlahət İbrahimqızı, Arzu Nağıyev, Vüqar İskəndərov, Fatma Yıldırım, digər hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri və işəgötürənlər iştirak ediblər.

S.Babayev aktiv məşğulluq proqramlarının, o cümlədən özünüməşğulluq proqramının da ildən-ilə genişləndiyini, məşğulluğun təminatı istiqamətində görülən işləri qeyd edib. Məşğulluq proqramlarının icrasında, həssas qrupların məşğulluğunun təminatı sahəsində sosial tərəfdaşların göstərdiyi dəstək, bu sahədə özəl sektora aid şirkətlərlə birgə aparılan işlər diqqətə çatdırılıb. Habelə şəhid ailələrinin üzvləri və müharibə iştirakçılarının məşğulluğuna dəstək işlərində sosial tərəfdaşlarla fəal əməkdaşlıq təcrübəsinin olduğu vurğulanıb.

Digər çıxış edənlər özəl sektorun həssas qruplara yönələn dəstək proqramlarında, onların məşğulluq məsələlərinin həllində sosial tərəfdaşlar olaraq fəal iştirakını yüksək dəyərləndiriblər. Qeyd edək ki, korporativ sosial məsuliyyət tədbirlərində fəal iştirak edən sosial tərəfdaşların 2022-ci ildən nazirlik tərəfindən hər il üzrə mükafatlandırılması tədbirləri keçirilir. Budəfəki tədbirdə də 11 nominasiya üzrə sosial tərəfdaşlara mükafatlar təqdim edilib. Şəhid ailələri üzvlərinin, müharibə iştirakçılarının, əlillərin, qadınların, gənclərin, pensiya yaşına iki ildən az qalmış şəxslərin, cəzaçəkmə yerlərindən azad edilənlərin məşğulluğunun təminatına dəstək verən ən aktiv özəl sosial tərəfdaşlara, habelə "Əmək və Məşğulluq" altsistemi üzərindən göndərişlər əsasında ən çox əmək müqaviləsi bağlayan və bu altsistemə ən çox vakansiya yerləşdirən özəl sosial tərəfdaşlara mükafatlar təqdim edilib.



Sosial sahədə həyata keçirilən islahatlardan danışarkən onu da qeyd etmək yerinə düşər ki, Dövlət Məşğulluq Agentliyi ilə Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Əmək Resurslarının İnkişafı Mərkəzi arasında Fəaliyyət Planı da imzalanıb. Fəaliyyət Planını agentliyin idarə heyətinin sədri Mustafa Abbasbəyli və Qazaxıstanın Əmək Resurslarının İnkişafı Mərkəzinin prezidenti Daulet Arqandıkov imzalayıblar.

Mərasimdə M.Abbasbəyli Azərbaycan və Qazaxıstan arasında ikitərəfli əlaqələrdən bəhs edib, məşğulluq sahəsində əlaqələrin genişlənməsinə xüsusi önəm verildiyini vurğulayıb. Agentliyin fəaliyyət istiqamətləri, məşğulluq sahəsində aparılan islahatlar, əldə olunan nailiyyətlər barədə məlumat verib. D.Arqandıkov rəhbərlik etdiyi qurumun xidmətlərindən bəhs edib. Fəaliyyət Planı üzrə həyata keçiriləcək əməkdaşlığın qarşılıqlı faydalı olacağını bildirib. Qarşılıqlı əlaqələrin və birgə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə imzalanan və 2024-cü ili əhatə edən plan əmək münasibətlərinin rəqəmsallaşdırılması, peşə hazırlığı, işsiz şəxslərin məşğulluq imkanlarının artırılması istiqamətlərində əməkdaşlığı nəzərdə tutur.

Bundan başqa, Dünya Bankı Qrupunun "Business Ready" reytinq hesabatının "İşçi qüvvəsi" indikatoruna dair biznes subyektləri ilə məlumatlandırma görüşləri də davam etdirilir. Ölkəmizin aparıcı konsaltinq şirkətlərinin nümayəndələri ilə keçirilən növbəti görüşdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmək bazarı üzrə işçi qrupunun rəhbəri Anar Kərimov aparılan işləri diqqətə çatdırıb. Ölkəmizdə əmək bazarının inkişaf etdirilməsi və əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının və rəqabət qabiliyyətinin artırılması istiqamətlərində atılan addımlar qeyd edilib. "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı aparılan işlər, əldə olunan nəticələr də müzakirə olunub. Əmək və məşğulluq sahəsində islahatlar, habelə əmək qanunvericiliyinin təkmilləşdirilməsi prosesində özəl sektor ilə əməkdaşlığın genişləndirilməsinin önəmi vurğulanıb.

Şəhid ailələrinə qayğı da diqqətdə saxlanır. Ötən gün Sosial Xidmətlər Agentliyi və Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə şəhid övladlarının və ailə üzvlərinin Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən Pilotların Hazırlığı Mərkəzinə ekskursiyanın təşkili dövlətə əmanət övladlara qayğının nümunəsi kimi qiymətləndirilməlidir. Vətən müharibəsi şəhidlərinin övladlarının və ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili və cəmiyyətə inteqrasiyası məqsədi daşıyan görüşdə 44 günlük Vətən müharibəsində canlarını qurban verən igidlərimizin 20 övladı iştirak edib.

Onlara məlumat verilib ki, Pilotların Hazırlığı Mərkəzi 2010-cu ildən etibarən fəaliyyət göstərir. Mərkəz nəzəri və praktiki hazırlıq şöbələrindən ibarətdir. Nəzəri hazırlıq şöbəsində 300-dən artıq ixtisasartırma kurslarına hər il 7 mindən artıq aviasiya sahəsində çalışan mütəxəssis cəlb olunur. Praktiki hazırlıq şöbəsində isə peşəkar mülki aviasiya pilotlarının hazırlığı üçün vacib olan uçuş simulyatorları quraşdırılıb. Mərkəzdə "Airbus A320", "Boeing 757/767", "ATR-42/72", "Embraer 190", "Cessna 172S" təyyarələri həmçinin Mi-8AMT helikopter pilotları təlim keçir. Uçuş simulyatorunda aviasiya elminin və texnikasının müasir yeniliklər tətbiq olunmaqla, bu sahədə ən yüksək olan FFS D və FNPT 2 səviyyəsi təmin olunur.

İştirakçılar müasir standartlara uyğun qurulan trenajor mərkəzinin imkanları barədə məlumatlandırılıblar və uçuş simulyatorları ilə yaxından tanış olublar. Ekskursiya şəhid övladlarının və ailə üzvlərinin böyük marağına səbəb olub və onlarda xoş təəssüratlar yaradıb.

Şəhid ailələri kimi, qazilərə göstərilən diqqət, o cümlədən reabilitasiya xidmətlərinin sayı da ilbəil artır. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində son illər tətbiqinə başlanan yeni xidmətlərdən danışanda robotik terapiya xidmətini xüsusi qeyd etməliyik. Son bir ildə həmin mərkəzlərdə 800-dən çox əlilə 2700-ə yaxın robotik reabilitasiya xidmətləri göstərilib. Robot reabilitasiya sistemləri dayaq-hərəkət və sinir sisteminin sağlamlıq vəziyyətinin diaqnozu və müalicəsində istifadə olunur. Robotik terapiya fiziki terapiya prosesində əlilliyi olan şəxslərin intensiv və hərtərəfli neyroreabilitasiyasına, onlarda sinir sisteminin bərpasına, mümkün olan funksionallığı bərpa etməyə kömək edir. Bu terapiya üsulu insult, travmatik beyin və onurğa beyni zədələnmələri, parkinson, şaxəli skreloz, serebral iflic və digər diaqnozlu əlilliyi olan şəxslərin sosial-psixoloji və fizioterapevtik reabilitasiyasında tətbiq edilir.

***Z.BAYRAM***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 97** **Bakı şəhəri, 20 fevral 2024-cü il**

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 oktyabr tarixli 527 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikasında kiçik həcmli gəmilərdən və onların dayanması üçün bazalardan (qurğulardan) istifadə Qaydaları"nın 4-cü hissəsinin üçüncü abzasında "Meliorasiya və Su Təsərrüfatı Komitəsi" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi Qaydaları"nın 1-ci hissəsinin ikinci cümləsində və 6-cı hissəsində ismin müvafiq hallarında "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası"nın 9-cu hissəsinin ikinci cümləsində və 13-cü hissəsində ismin müvafiq hallarında "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 15 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 141 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitə dair alınması məhdudlaşdırılan informasiya üzrə müraciət və ya sorğunun göndərildiyi dövlət hakimiyyəti orqanlarının Təsnifatı"nın 3-cü hissəsinin yeddinci abzasında "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

4. "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırıl-ması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 101 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 592 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissədə "Azərsu" Səhmdar Cəmiyyətinə" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə" sözləri ilə əvəz edilsin;

4.2. 5-ci hissədə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri ilə əvəz edilsin və həmin hissədən ", "Azərsu" Səhmdar Cəmiyyətinin" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 957 (Cild I) ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nın 6.2-ci bəndinin birinci abzasında "Meliorasiya və Su Təsərrüfatı Komitəsi" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 19.1.9-1-ci yarımbəndi ləğv edilsin və həmin bölməyə aşağıdakı məzmunda 47-ci hissə əlavə edilsin:

"47. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi

47.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti və onun yerli bölmələri".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Aparatı" sözlərindən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Aparatı" sözləri əlavə edilsin;

7.2. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeliyində olan:" hissəsindən "Su Ehtiyatları Dövlət Agentliyinin Aparatı" sözləri çıxarılsın;

7.3. "Regional miqrasiya idarələri" sözlərindən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti və onun yerli bölmələri" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti üzrə" bölməsi aşağıdakı redaksiyada verilsin:

| Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi üzrə | | | |
|---|---|---|---|
| 1. | Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu | fəlsəfə doktoru üzrə | elmlər doktoru üzrə |
| 2. | Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu | fəlsəfə doktoru üzrə | elmlər doktoru üzrə |

8.2. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti üzrə" bölməsi ləğv edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950 (Cild I) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. Qaydalara 1 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanan Müqavilə" üzrə:

9.1.1. preambula üzrə:

9.1.1.1. cədvəl aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| **İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti /** Regional Su Meliorasiya Xidməti (lazım olmayanın üstündən xətt çəkilir) | Müqavilə №-si | | Müqavilənin tarixi |
| | Abonent kodu | | ailə tərkibi (nəfər) |
| | Fərdi identifikasiya №-si | | **əkin sahəsi (m²)** |
| | Texniki şərt №-si | | tələbat (m³) |
| | **Şəxsiyyət vəsiqəsinin №-si** | | marşrut (№) |
| | Xidmətin ünvanı | | |
| | **Əlaqə telefonu** | mobil telefon | e-mail adresi |

9.1.1.2. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin, Azərbaycan Respublikasının digər rayon və şəhərlərində Regional Su Meliorasiya Xidmətinin" sözləri ilə əvəz edilsin;

9.1.2. 1.1-ci bənddə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Müəssisənin" sözü ilə əvəz edilsin;

9.1.3. 2.2-ci bənddə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sudan istifadə və tullantı sularının axıdılması xidmətləri üzrə istehlakçı qruplarının tariflərinin və təsnifatının təsdiq edilməsi barədə" sözləri "müvafiq" sözü ilə əvəz edilsin;

9.1.4. 4.1-ci bənddə "Azərsu" ASC" sözləri "Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti, Azərbaycan Respublikasının digər rayon və şəhərlərində Regional Su Meliorasiya Xidməti" sözləri ilə əvəz edilsin;

9.1.5. 7-ci hissədə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti Bakı şəhəri, AZ1012, Moskva pr.67 h/h AZ65AİİB33070019441100216111, **VÖEN-9900001751 M/h0137010001944 "Kapital Bank"ın 1 №-li Nəsimi filialı Kod: 200112** VÖEN-9900003611 ________________

____________________________________________________

(müəssisənin adı)" sözləri "______________________________

____________________________________________________________

____________________________________________________________

(müəssisənin adı, hüquqi ünvanı, bank rekvizitləri, VÖEN)" sözləri ilə əvəz edilsin;

9.2. Qaydalara 2 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanan Müqavilə" üzrə:

9.2.1. preambula üzrə:

9.2.1.1. cədvəl aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| **İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti /** Regional Su Meliorasiya Xidməti (lazım olmayanın üstündən xətt çəkilir) | Müqavilənin №-si | | Müqavilənin tarixi | |
| | Abonentin kodu | | **İstehlakçı qrupu** | |
| | Fərdi identifikasiya №-si | | Tələbat (m³) | |
| | Texniki şərtin №-si | | Təyinat kodu | |
| | **Şəxsiyyət vəsiqəsinin №-si** | | Xidmətin növü | |
| | Xidmətin ünvanı | | Hüquqi ünvanı | |
| | | | | |
| | VÖEN | **əlaqə telefonu** | mobil telefon | e-mail adresi |
| | | | | |

9.2.1.2. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin, Azərbaycan Respublikasının digər rayon və şəhərlərində Regional Su Meliorasiya Xidmətinin" sözləri ilə əvəz edilsin;

9.2.2. 2.1-ci bənddə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sudan istifadə və tullantı sularının axıdılması xidmətləri üzrə istehlakçı qruplarının tariflərinin və təsnifatının təsdiq edilməsi barədə" sözləri "müvafiq" sözü ilə əvəz edilsin;

9.2.3. 4.1.12-ci yarımbənddə "Azərsu" ASC" sözləri "Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti, Azərbaycan Respublikasının digər rayon və şəhərlərində Regional Su Meliorasiya Xidməti" sözləri ilə əvəz edilsin;

9.2.4. 7-ci hissədə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti Bakı şəhəri, AZ1012, Moskva pr.67 h/h AZ65AİİB33070019441100216111, VÖEN-9900001751 M/h0137010001944 "Kapital Bank"ın 1 №-li Nəsimi filialı Kod: 200112 VÖEN-9900003611 ________________

____________________________________________________

(müəssisənin adı)" sözləri "______________________________

____________________________________________________________

____________________________________________________________

(müəssisənin adı, hüquqi ünvanı, bank rekvizitləri, VÖEN)" **sözləri ilə əvəz edilsin.**

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 oktyabr tarixli 321 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1292 (Cild I) ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumların (kredit təşkilatlarından, sığortaçılardan, təkrarsığortaçı-lardan, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) Siyahısı"nın 2.5-ci bəndi ləğv edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 57 (Cild I) ilə təsdiq edilmiş "Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı"nın 6.8-ci bəndində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 1.3.20-ci yarımbəndində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı"nın 5-ci və 9-cu hissələri ləğv edilsin.

14. "Sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin istifadə etdikləri elektrik enerjisi üzrə limitlərin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 fevral tarixli 55 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2017, № 2, maddə 308 (Cild I) əlavələr - "Forma 1" və "Forma 2"də "Azərsu" ASC-nin" sözləri "Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin, Azərbaycan Respublikasının digər rayon və şəhərlərində isə Regional Su Meliorasiya Xidmətinin" sözləri ilə əvəz edilsin.

15. "Bakı şəhərinin 1-ci mikrorayonunun yenidən qurulması ilə əlaqədar tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 83 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 482 (Cild I) 3-cü hissəsində "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə" sözləri ilə əvəz edilsin.

16. "Ayrı-ayrı su istifadəçiləri tərəfindən istismar olunan nasos stansiyalarının və subartezian quyularının Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansına götürülməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 15 mart tarixli 83 nömrəli qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 iyun tarixli 269 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1243) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 2-ci hissədə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə" sözləri "Dövlət Su Ehtiyatları Agentliyinə" sözləri ilə əvəz edilsin və həmin hissəyə "balansına" sözündən əvvəl "tabeliyində olan Regional Su Meliorasiya Xidmətinin" sözləri əlavə edilsin;

16.2. 3-cü hissədə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Dövlət Su Ehtiyatları Agentliyinin" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 17 nömrəli və 8 fevral tarixli 77 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

17.1. 72-ci və 76-cı hissələr ləğv edilsin;

17.2. aşağıdakı məzmunda 58-1-ci, 129-1-ci, 213-1-ci, 213-2-ci və 213-3-cü hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 58-1. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yanında Suların İstifadə-sinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti | 1634 |
| 129-1. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 1630 |
| 213-1. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs | 1632 |
| 213-2. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxs | 1633 |

18. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balansında olan, Xəzər dənizinin sahil zolağında quraşdırılmış modul tipli çirkab sutəmizləyici qurğuların onlara aid **əmlakla birlikdə Buzovna, Binəqədi, Bilgəh, Pirşağı və Sumqayıt bələdiyyələrinin mülkiyyətinə verilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 169 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 640) aşağıdakı dəyişikliklər edilsin:**

18.1. 3-cü hissədə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərbaycan Dövlət Su Agentliyinin tabeliyində olan İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin" sözləri ilə əvəz edilsin;

18.2. 6-cı hissədə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 iyul tarixli 238 nömrəli **Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 968 (Cild I) ilə təsdiq edilmiş "Aqrar sığorta" informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı"nın 2.10-cu bəndində "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.**

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316 (Cild I) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsinə aşağıdakı məzmunda 96-cı sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 96. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | |

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511 (Cild I) ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

21.1. 7-ci hissədə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri ilə əvəz edilsin;

21.2. aşağıdakı məzmunda 14-cü sətir əlavə edilsin:

| | |
|---|---|
| 14. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan Regional Su Meliorasiya Xidməti |

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 13-cü hissəsinin dördüncü və on altıncı abzasları ləğv edilsin.

23. "Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 348 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1369) 3-cü hissəsində "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Regional Su Meliorasiya Xidməti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Macarıstan Milli Assambleyası da AŞPA-ya etirazını bildirib

**Macarıstan Milli Assambleyasının Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Jolt Nemet AŞPA-nın sədri Teodoros Rusopulosa qurumun qış sessiyası zamanı Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmamasına dair qəbul etdiyi qətnamə ilə əlaqədar məktub ünvanlayıb.**

Məktubda deyilir ki, Reykyavik Sammitində yenidən sadiqliyimizi bəyan etdiyimiz Avropa Şurasının Nizamnaməsinə uyğun olaraq, biz hamılıqla paylaşdığımız idealları, prinsipləri qorumaq və həyata keçirmək məqsədilə üzv dövlətlər arasında daha böyük birliyə nail olmağa çalışmalıyıq. Təəssüf ki, bu gün nümayəndə heyətlərinin qurumdan xaric edilməsi, həmçinin onlarla dialoqun dayandırılması halları bizim birgə səylərimizə zərbə vurduğundan Macarıstan nümayəndə heyəti adıçəkilən qətnamənin qəbulunda iştirak etməmək qərarına gəlmişdir.

Qeyd olunur ki, bu qərarın qəbul olunması ilə son bir neçə ildə təşkilatla Nazirlər Komitəsi arasında yaradılmış konstruktiv qurumlararası dialoq və ümumi maraq doğuran mövzularda davamlı məsləhətləşmələrin aparılması təcrübəsi də sarsılmış, qurumun iki orqanı arasında inamsızlığın yaranmasına gətirib çıxarmışdır. Bu mənada, biz hesab edirik ki, Azərbaycan nümayəndə heyətinin qurumda iştirakı məsələsi təcili qaydada həll olunmalıdır. Biz əminik ki, aparılan son müzakirələr və Nazirlər Komitəsinin müvafiq qərarı da bu zərurəti əks etdirməkdədir.

Macarıstan nümayəndə heyətinin rəhbəri Jolt Nemet AŞPA sədrini siyasi qruplarla birgə qətiyyətli addımlar atmağa və Azərbaycan parlament nümayəndə heyətinin təcili surətdə Parlament Assambleyasının işinə geri qayıtmasına icazə verməyə çağırıb.

**XQ**

# XRİTDX-in şəxsi heyəti Memorial Soyqırımı Muzeyində

**Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin şəxsi heyəti Hərbi Prokurorluğun Memorial Soyqırımı Muzeyini ziyarət ediblər.**

XRİTDX-nin əməkdaşları burada təqdim olunmuş xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin kitab fondu, Xocalı, Qaradağlı faciələri barədə sənədlər, erməni vəhşiliyinin qurbanları, yerli əhalinin şəxsi əşyaları, sənədləri və fotoları ilə tanış olublar.

Daha sonra "Əsrin faciəsi" adlı sənədli film nümayiş etdirilib. Eləcə də xidmətin inzibati binasında Xocalı soyqırımı ilə bağlı tədbir keçirilib.



**XQ**

# Azərbaycan “Orta Dəhliz”in önəmli ölkəsidir

**Dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın fevralın 19-da keçirilən geniş tərkibdə görüşündə qardaş ölkənin rəhbəri geosiyasi nizama təsir edən koronavirus pandemiyası və Ukrayna müharibəsi kimi proseslərin Orta Dəhlizin etibarlı marşrut olduğunu bir daha təsdiqlədiyini bildirib. Cümhurbaşaqanı, eyni zamanda, 2017-ci ildə açılan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Orta Dəhlizin strateji mərhələsi olduğunu, bu xətdəki işlərin ən qısa zamanda başa çatdırılması və onun tamamilə işlək vəziyyətə gətirilməsi kimi amillərin isə ortaq mənfəətimizə xidmət etdiyini vurğulayıb.**

## Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan regionda öz müstəqil siyasətini qoruyan və dünya ölkələri arasında sayılıb-seçilən ölkələr sırasındadır. Respublikamız coğrafi olaraq qərblə şərqin, şimalla cənubun inteqrasiya etdiyi beynəlxalq nəqliyyat-tranzit yollarının kəsişməsində yerləşir. Bu, ölkəmizin tranzit imkanlarından istifadə edərək dünya iqtisadiyyatının təchizat zəncirində əhəmiyyətli dövlət mövqeyinə sahib olmasına imkan verir.

Postpandemiyadan sonrakı dönəmində, 2022-ci ilin yanvar-oktyabr aylarında Transxəzər magistralı üzrə yük daşımalarının həcmi əvvəlki ilin analoji dövrü ilə müqayisədə 27 faiz, mütləq ifadə ilə 42,5 milyon tona yaxın artıb. 2022-ci ildə Şərq-Qərb dəhlizi vasitəsilə ötürülən tranzit yüklərin həcmi əvvəlki ilin analoji dövrü ilə müqayisədə 20 faiz, Şimal-Cənub dəhlizi vasitəsilə isə 33 faiz artıb. 2023-cü ilin 8 ayına görə, 2022-ci ilə nisbətən 37 faiz azalıb.

Bakı son iki ildə Avropa ölkələrinə Orta Dəhlizin əhəmiyyətini və iqtisadi səmərəliliyini təşviq etməyə çalışsa da, bu dəhlizə kifayət qədər əhəmiyyət verməyiblər. Avropa ölkələri yüklərin ənənəvi yollarla ötürülməsinin onlar üçün qənaətbəxş olduğunu hesab ediblər. Amma mürəkkəb geosiyasi vəziyyət yüklərin 52 günə mənzil başına çatmasına gətirib çıxarıb. Halbuki rəsmi Bakı region ölkələri ilə aparılan əməkdaşlıq çərçivəsində yüklərin Orta Dəhlizlə çatdırılmasını 22 günə endirir. Son aylar Qırmızı dənizdə husi yaraqlılarının Avropa və Amerika ticarət gəmilərinə hücumlar təşkil etməsi Orta Dəhlizin aktuallığını daha da artırır.

Bu baxımdan ölkəmizin tranzit imkanları da artmaqdadır. Bu isə milli iqtisadiyyat üçün əlavə gəlir deməkdir. Azərbaycanın birbaşa açıq dənizə çıxışı olmasa da ölkənin sahib olduğu coğrafi mövqe və onun beynəlxalq ticarət yollarının kəsişmə nöqtəsində yerləşməsi respublikamızın tranzit imkanlarını daha da artırır. Təbii ki, burada limanların, terminalların və dəmir yollarının yükaşırma, yük qəbuletmə və yükötürmə imkanları artırılır. Belə ki, 2023-cü ildə Azərbaycan dəmir yolları ilə 18 milyon tondan çox ümumi yük, 7 milyon tona yaxın tranzit yük daşınıb. Şimal-Cənub dəhlizi üzrə Astara terminalının tikintisi böyük ölçüdə yekunlaşıb. Ötən il bu terminalda 700 min dən çox yük aşırılıb. Tranzit imkanlarının artması ölkənin gəlirlərini də artırıb. 2022-ci ilin 9 ayında yükdaşımalardan gəlir 33,2 faiz artaraq 539,6 milyon manat təşkil edib. Tranzit yükdaşımalarından isə 230 milyon manat gəlir əldə edilib.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş “2022-2026-cı illər ölkənin sosial-iqtisadi inkişaf strategiyasına görə” tranzit imkanlar artırılaraq əldə edilməsi nəzərdə tutulan gəlir həcmi qarşıdakı 5 il ərzində 450 milyon manata çatdırılacaq.




Türkiyə Prezidenti həmin görüşdəki nitqində Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inkişafının önəmini belə əsaslandırıb: “Təmirlə əlaqədar yaşanan plansız bağlanma səbəbindən yükdaşıyıcıları çətin vəziyyətdə qalıb. Bundan başqa, uzun müddət bağlı qalan xəttin beynəlxalq səviyyədə cazibəsi, bir növ, unudulub. Belə bir şəraitdə quru yolu ilə tranzit daşımalarını da ən qısa zamanda sərbəst vəziyyətə gətirilməsi zərurətə çevrilib. Azərbaycanın bu məsələdə dəstəyinə ehtiyac duyulub”.

Prezident İlham Əliyev bu məsələ ilə bağlı fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində Azərbaycanın bundan sonra da nəqliyyat sahəsində işləri davam etdirəcəyini, hazırda isə ölkəmizin dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edildiyini vurğulayıb. Dövlətimizin başçısı bunu respublikamıza Qərb, Şərq, Şimal və Cənubdan olan müraciətlərə əsaslanaraq, söylədiyini bildirib. Ölkə rəhbəri daha sonra Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturunun işlək vəziyyətdə olduğunu, amma bəzi dəmir yollarında modernləşdirmə işləri aparıldığını da qeyd edib.

Dövlət başçısı həmin nitqində ölkəmizin dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edildiyinin təsadüfi olmadığını respublikamızda nəqliyyatla bağlı vaxtilə bütün lazımi infrastruktur layihələrinin icrası, başqa sözlə, dəmir və avtomobil yollarının yüksək beynəlxalq səviyyədə qurulması, dəniz limanının, gəmiqayırma zavodunun işə salınması kimi amillərlə əsaslandırıb. “Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq”.

Göründüyü kimi, Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsü və dəstəyi ilə həyata keçirilən nəhəng regional layihələr ölkəmizin nəqliyyat qovşağına çevrilməsini, tranzit potensialın güclənməsini şərtləndirib. Ümumiyyətlə, ölkə iqtisadiyyatı üçün mühüm önəm daşıyan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün genişmiqyaslı layihələr gerçəkləşdirilib, dəniz, quru və dəmir yolu nəqliyyatına böyük investisiyalar yatırılıb.

Həmçinin indiki geosiyasi gərginliklər fonunda Avrasiya məkanından keçən bir sıra nəqliyyat marşrutları üçün ciddi təhdidlər yaranıb. Rusiya-Ukrayna müharibəsi səbəbindən Qara dənizin Ukrayna sahillərindəki limanlarında təhlükəli vəziyyət ciddi narahatlıq doğurub. Buna görə də beynəlxalq Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin əsas marşrutlarının kəsişmə qovşaqlarında yerləşən Azərbaycanın logistika baxımından önəmi daha da artıb.

Beləliklə, Azərbaycan üzərindən keçən daha bir nəqliyyat marşrutuna – Orta Dəhlizə (Xəzər dənizi və Azərbaycandan keçən Şərq-Qərb nəqliyyat yolu) maraq güclənib. Bu marşrutun səmərəliliyinin daha da artırılması isə qarşıya mühüm vəzifə kimi qoyulub. Ekspertlər tərəfindən bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut kimi dəyərləndirilib.

Hazırda bütün iştirakçı dövlətlərdə Orta Dəhlizin inkişaf etdirilməsi, funksionallığının genişləndirilməsi istiqamətində güclü siyasi iradə nümayiş etdirilir. Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq yaradılır və bu, davamlı olaraq genişləndirilir. Sözügedən marşrutla daşımalar, yüklərin cəlb edilməsi, logistika ilə bağlı məsələlərin uzlaşdırılması və həlli ilə bağlı intensiv tədbirlər həyata keçirilir.

Xatırladaq ki, bu gün Orta Dəhlizin Avropa və Asiya regionu üçün yüksək önəmi barədə danışılarkən, ilk növbədə, bildirilir ki, Çindən Avropaya gedən yük qatarı 10 min kilometrlik mövcud yolu 12 gün ərzində qət edirsə, bu, Orta Dəhlizlə 7 günə reallaşdırılır. Belə bir hal isə Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Şübhəsiz ki, bu, eyni zamanda, region ölkələrinin koordinasiyalı əməkdaşlığı ilə dünya ticarətinin ən mühüm daşınma marşrutlarından biri kimi Orta Dəhlizin geniş imkanlara malik olduğunu üzə çıxarır, Azərbaycanın isə belə bir infrastruktur üzrə ən önəmli qovşaqlardan biri kimi müstəsna rol oynadığını təsdiqləyir.

***Vaqif BAYRAMOV***
***XQ***

**Bu gün ölkəmizin enerji sektorunda həm ənənəvi, həm də bərpaolunan enerji layihələrinin icrası nəticəsində mühüm göstəricilər əldə edilir. Ənənəvi yanacaq növləri – neft-qaz sahəsində işlər uğurla həyata keçirilir. Neft hasilatının sabitləşməsi istiqamətində davamlı tədbirlər görülür, sabit neft hasilatı məqsədilə investorlar qarşısında zəruri vəzifələr qoyulur.**



# “Odlar yurdu” Avropaya “od” göndərir

Azərbaycan lideri İlham Əliyev fevralın 14-də yenidən ölkə Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki nitqində bununla bağlı qeyd edib ki, respublikamız artıq 8 ölkəyə təbii qaz ixrac edir. Tələbat daha böyükdür, bu, ilk növbədə, Avropa İttifaqı məkanında diqqət çəkir. Azərbaycan etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək edir.

Dövlət başçısının sözlərinə əsasən, Azərbaycanın gələcəkdə Avropa istiqaməti üzrə ixrac coğrafiyasının daha da genişlənəcəyi nəzərdə tutulub. Bu yaxınlarda ölkəmizin yeni resurs bazası işə salınıb. “Şahdəniz”dən sonra ikinci resurs bazası olan “Abşeron” qaz-kondensat yatağından ilk “mavi yanacaq” çıxarılıb və yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlanacağı planlaşdırılıb.

Gələn il ölkəmizin resurs bazasını gücləndirəcək “Azəri-Çıraq-Günəşli” yatağının dərin laylarından qaz hasilatı da nəzərdə tutulur. Bundan başqa, “Ümid”, “Babək”, “Şəfəq”, “Asiman”, “Qarabağ” neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Belə bir vəziyyət isə vaxtilə respublikamızı istəməyən qüvvələrin “Azərbaycanda neft yoxdur” iddiasının əsassızlığını bir daha göstərir.

“Azəri-Çıraq-Günəşli” yatağının dərin laylarından qaz hasilatının nəzərdə tutulması o deməkdir ki, Azərbaycan özünü həm də bütün dünyada artıq “mavi yanacaq” ölkəsi kimi təsdiqləyir. “Şahdəniz” yatağının işlənməsinin uğurla davam etdirilməsi isə Azərbaycanın Avropanın mühüm qaz təchizatçılarından birinə çevrilərək “qoca qitə”nin yeni enerji xəritəsini formalaşdırmaq anlamına gəlir. Başqa sözlə, zəngin qaz ehtiyatlarına və beynəlxalq nəql şəbəkəsinə malik respublikamız Avropanın artan ehtiyacını müəyyən həcmlərdə qarşılamağa hazır və qadir ölkədir.

Xatırladaq ki, “Şahdəniz” qaz yatağı üzrə kontrakt 1996-cı il iyulun əvvəlində Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə transmilli şirkətlərlə imzalanıb. “Əsrin müqaviləsi”ndən sonra ikinci böyük kontrakt olan “Şahdəniz” qaz layihəsinin birinci mərhələsi çərçivəsində hasil edilən “mavi yanacaq” 2007-ci ildə istismara verilən Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə xarici istehlakçılara çatdırılıb.

Azərbaycanın qaz ehtiyatları təkcə “Şahdəniz”lə kifayətlənməyib. Keçən ilin iyul ayının əvvəlində respublikamız özünün enerji siyasətinin “mavi yanacaq” seqmenti üzrə daha bir mühüm uğura imza atıb, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən “Abşeron” qaz-kondensat yatağından ilk qaz hasilatına başlayıb. Həmin ilin avqustun 4-də isə Azərbaycan (SOCAR) “TotalEnergies” və ADNOC (Əbu-Dabi Milli Neft Şirkəti) şirkətləri arasında “Abşeron” qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışı ilə bağlı saziş imzalayıb. SOCAR və “TotalEnergies” şirkətlərinin iştirak payları isə müvafiq olaraq 35 faiz həddində müəyyənləşib.

“Abşeron” qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi sualtı hasilat quyusunu “Neft daşları”ndakı mövcud qurğularla əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı da nəzərdə tutulur.

Qeyd edildiyi kimi, İHS layihəsi çərçivəsində hazırda gündəlik 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur. “Abşeron” yatağının ehtiyatı da daxil olmaqla Azərbaycanın təsdiqlənən qaz ehtiyatı 2,6 trilyon kubmetrdir. Ölkəmizin illik qaz ixracı isə 21 milyard kubmetr təşkil edir. Yaxın 5 il ərzində Azərbaycan bu həcmdə qaz ixracını 30-31 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Avropaya qaz ixracının isə 11 milyarddan 20 milyard kubmetrədək yüksəldilməsi proqnozlaşdırılır. Beləliklə, sözügedən tarixi hadisə, eyni zamanda, təsdiqlənən 2,6 trilyon kubmetrlik qaz ehtiyatlarının həcmi ilə Azərbaycan dünyada həm də “mavi yanacaq” ölkəsi kimi tanınır.

Yeri gəlmişkən, ADNOC-un Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) hüdudlarından kənarda ilk investisiyanı ölkəmizə yatırması respublikamızda xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürüdür. Sazişin Azərbaycan və BƏƏ arasında strateji əlaqələri daha da gücləndirəcəyi və ölkəmizin etibarlı təbii qaz təchizatçısı kimi mövqeyinə dəyərli töhfə verəcəyi əminliklə gözlənilir.

“Abşeron” qaz-kondensat yatağı “Şahdəniz–2” kimi mürəkkəb geoloji struktura malikdir. Lakin “Şahdəniz-2” layihəsindən daha dərində yerləşir. Ona görə də “Abşeron” qaz-kondensat yatağında da manifold texnoloji üsulu ilə hasilatın həyata keçirilməsi gerçəkləşdirilir.

Yeri gəlmişkən, “Abşeron” layihəsi çərçivəsində bir ildə maksimum 1,5 milyard kubmetr qazın hasil edilməsi planlaşdırılır. Bu qazın bütünlükdə Azərbaycanın daxili tələbatının ödənilməsinə yönəldilməsi qarşıda mühüm vəzifə kimi durur. Yatağın ikinci mərhələsində çıxarılacaq qazın isə xarici bazarlarda satılması və yaxın 5 il ərzində bu perspektivin gerçəkləşməsi nəzərdə tutulur. Eyni zamanda, yatağın ikinci mərhələsində nə qədər qazın hasil olunacağlı ilə bağlı SOCAR və onun tərəfdaşı hazırda danışıqlar aparır.

“Abşeron” çox mürəkkəb quruluşa malik qaz-kondensat yatağı olaraq indiyədək Xəzər dənizində açılan və istismar edilən ən dərin hissədə yerləşir. Əgər “Şahdəniz” yatağı dənizin 550 metr dərinliyində yerləşirsə, “Abşeron” 600 metr dərinlikdədir. O cümlədən, məhsuldar qaz layları əgər “Şahdəniz”də 6 min 800–7 min 100 metr dərinlikdədirsə, “Abşeron” yatağında bu 7 min 300 metr dərinliyə qədər uzanır. Ona görə, mürəkkəblik baxımından Xəzər dənizində indiyənədək hasilat gözlənilən ən mürəkkəb yataqdır.

Dövlət başçısının “Ümid”, “Babək”, “Şəfəq”, “Asiman” və “Qarabağ” neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflərin olduğu barədə fikri ilə bağlı ekspertlər bildirirlər ki, hazırda adları çəkilən yataqlarda bu gün hazırlığa doğru işlər gedir və onların da resurs bazası kifayət qədər böyükdür. Yəni, belə bir fakt hələ bundan çox illər sonra da Azərbaycanın Avropa üçün önəmli tərəfdaş olacağını deməyə əsas verir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Daşınmaz əmlak alanlara ƏDV geri qaytarılıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən aldığımız məlumatda bildirilir ki, indiyədək ölkədə istehlakçılara nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə, 7 min 457 istehlakçıya 29 milyon manat 7 457 müraciət üzrə 28,6 milyon manata yaxın əlavə dəyər vergisi (ƏDV) geri qaytarılıb.**

Məlumata görə, quruma müvafiq portal üzərindən, ümumilikdə, 14 mindən artıq vətəndaş müraciəti daxil olub. Bunlardan 6 min 211 müraciətə qaydaların tələblərinə uyğun olaraq imtina edilib. Eyni zamanda, portal istifadəyə verildiyi tarixdən bu günədək bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər 1160 sayda “Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə məlumat forması” təqdim edib ki, bunun da 749-u təsdiqlənib, 401-nə imtina verilib.

2023-cü il sentyabrın 13-dən etibarən geri qaytarılan vəsaitlərin şəxsin müvəkkil bankda olan virtual “ƏDVgerial” hesabına köçürülməsi təmin edilir. Bu addım, öz növbəsində, əvvəllər bu sahədə mövcud olan bir sıra çətinlikləri aradan qaldırır.

Dövlət Vergi Xidməti vətəndaşların müraciətlərinin araşdırılması zamanı imtinaya səbəb olan bir sıra hallar müşahidə edir. Bunlar əsasən, son ödəniş tarixindən 90 gün ərzində müraciət olunmaması, ödənişin təyinatında e-qaimənin məlumatlarının əks edilməməsi, ödənişləri başqa şəxslərin həyata keçirməsi, ödəniş zamanı ƏDV və əsas məbləğlərin ayrılıqda ödənilməməsi ilə bağlıdır.



Dövlət Vergi Xidməti, həmçinin mənzil tikintisi ilə məşğul olan şəxslərə bina tikintisi ilə bağlı məlumat formalarını qanunvericilikdə nəzərdə tutulmuş qaydada təqdim etmələrini tövsiyə edir. Bununla bağlı vergi orqanları tərəfindən müvafiq monitorinq-təhlil işləri aparılır.

***XQ***



# Avropa ölkəmizdən 100 milyon avroluq metanol alıb

**Avropa İttifaqı (Aİ) Statistika İdarəsinin–“Avrostat”ın mediada yayılan xəbərinə görə, təşkilata üzv ölkələr tərəfindən 2023-cü ildə Azərbaycandan 260,7 min tona yaxın metanol idxal edilib. İdxalın dəyəri 98,8 milyon avro olub.**

Hesabat dövründə respublikamızdan metanolun əsas idxalçılarının beşliyində Rumıniya, İtaliya, Niderland, İspaniya və Litva yer alıb.

***XQ***

# Meyvə-tərəvəz ixracı – gəlir 21 faiz artıb

***Dövlət Statistika Komitəsindən bildirildiyinə görə, cari ilin yanvar ayında Azərbaycan 54 milyon 611 min ABŞ dolları dəyərində 49 min 606 ton meyvə-tərəvəz ixrac edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 21,2 faiz və 21,1 faiz çoxdur.***

Hesabat dövründə meyvə-tərəvəz ixracı ölkənin ümumi ixracının 2,96 faizini, qeyri-neft sektoru üzrə ixracının isə 24,59 faizini təşkil edib.

Ötən ay Azərbaycana 28 milyon 710 min ABŞ dolları dəyərində 42 min 633 ton meyvə-tərəvəz idxal edilib. Bu, illik müqayisədə müvafiq olaraq 2,2 dəfə və 3,9 faiz çoxdur. Dövr ərzində meyvə-tərəvəz idxalının ölkənin ümumi idxalında payı 2,51 faiz olub.



***XQ***

# Xocalını Yer üzündən kimlər və necə silmişdilər?

## (Kəşfiyyat zabiti V.Savelyevin BMT-yə məxfi arayışı əsasında)

**Xocalı soyqırımının hazırlanması və qəddarlıqla gerçəkləşdirilməsinə şahidlik edən, bu kütləvi insan qırğınının konkret təşkilatçılarını nişan verən qiymətli sənədlər içərisində Xankəndidə qulluq etmiş kəşfiyyat zabiti Vladimir Savelyevin xidməti arayışıdır. Hər il soyqırımının ildönümü günlərində bu təkzibedilməz sənəddə əksini tapan cinayətlər bir daha gündəmə gəlir.**

Vladimir Savelyev sovet zamanında Dağlıq Qarabağda yerləşmiş və SSRİ-nin süqutundan sonra nəzarətsiz qalıb Ermənistanın əlinə keçmiş 366-cı alaydakı 2270 nömrəli hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olmuşdu. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına Xocalıda baş verən hərbi cinayətlər barədə "Məxfi arayış"ını təqdim etmişdir. O, son arayışlarını "Zabit Puqaçov" imzası ilə göndərmişdir. Həmin arayış və erməni mənbələrinin etirafları Xocalı soyqırımının bir sıra gizlinlərinə dünya miqyasında aydınlıq gətirmişdir.



Polkovnik erməni terror təşkilatları ilə sovet ordusundan qalma qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə, "agentura" yolu ilə əldə etdiyi informasiyalarda bütün olub keçənlərin şərhini verərək etiraf etmişdir:

– Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də Müdafiə Nazirliyinə, Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun! – dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi!

Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, Prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş ali baş komandandır. Azərbaycan hərbi əks-kəşfiyyatına gəlincə belə bir qurum iflic olub. Aldığımız məlumata görə, bu qurumun əməkdaşları əsas məsələlərə girişə bilmirdilər. Prezident Xocalıda nəyin baş verməsini dərk etmirdi.

Azərbaycan ordusunun Baş Qərargahında da hamı özünü qərargah rəisi kimi aparırdı. Dördüncü ümumordu qoşun birləşmələrində isə gərginlik genişlənirdi. Bu qoşun birləşmələrində hər şey Azərbaycan əleyhinə idi. Vəziyyət nəzarətdən çıxmışdı. Zabitlər başlarını itirmişdilər. Məlumat aldıq ki, Azərbaycanda Prezident Aparatında və güc nazirliklərində ikitirəlik var. Məqsəd və fikirlər bir-birini tamamlamırdı. Hamı siyasi məqsədləri üçün "Müharibə kartından" yapışmışdı. Bu kartı paylayanlara gəlincə, onların bir qismi Azərbaycanın ali baş komandanının, bir qismi də müxalifətin və nəyə xidmət etdiklərini anlamayan savadsız və küt generalların yanını kəsdirmişdilər".

Kəşfiyyat polkovniki V.Savelyev tarixi arayışında daha sonra bildirmişdir : "Əslində, millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı alay ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda alayın ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı".

Polkovnik 1992-ci il aprel ayının 12-də Müdafiə Nazirliyinə göndərdiyi məktubunda isə yazmışdır: "Öldürülmüş, məhv edilmiş adamların bir qisminin şəxsiyyətlərini təyin edən sənədlərdən 46-sını nömrələyib Azərbaycanın MN-nə, Prezident Aparatına göndərdim. Mənə cavab gəldi ki, biz həmin sənədləri araşdırırıq. Onda mən Tbilisidə idim və məktubu da oradan yola salmışdım. Amma dərk edə bilmirdim ki, Azərbaycan hərbi kəşfiyyatı nəyi araşdırır".

Qarabağ münaqişəsi başlayanda 2 xalqı qarşı-qarşıya qoymuş erməni "millət qəhrəmanları" indi Xocalıda soyqırımına birbaşa rəhbərlik edirdilər. Savelyevin təbirincə desək onlar dərk etmirdilər ki, heç kəsin qanı yerdə qalmır. Edilən cinayətlər üçün, tökülən qanlar üçün cavabdehlik və məsuliyyət nə Vaşinqtonun, nə Londonun üstündə qalırdı. Bütün bu vəhşiliklərin cavabdehliyi İrəvanın üzərinə düşürdü. Bunu isə, sadəcə, dərk etmək lazım idi. V.Savelyev isə bütün bunları görür və dərk edirdi.

Polkovnik V.Savelyev daha sonra yazmışdır: "Xocalının işğalında, ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm. Bu necə Vətəndir? Bu necə ordudur? Bütün bunları anlaya bilmirəm. Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaltdılar, şərəfinə lənət damğasını vurdular. Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyi gündən qorxuram".

Lənətlənmiş günlər isə bir-birini əvəz edirdi. Xocalı faciəsini "işıqlandırmaq"



(ermənilər buna qəhrəmanlıq deyirlər) üçün Xankəndinə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti gəlmişdi. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: guya, "Azərbaycanlılar günahsız erməniləri qırırlar".

Beləliklə, fevral ayının 25-dən 26-sına keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V.Savelyev "Məxfi arayış"ında bu barədə qeyd etmişdir: "Üçüncü batalyon Xocalı işğal olunan gecə müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı alay isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. "Böyük Ermənistan" adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu, hələlik açıq qalmış bir məsələdir".

Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini təsvir edərək yazırdı: Xocalının işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itirdi. Nazirlər isə Baş nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar. Alayın çıxarılmasında, hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın: general-polkovnik Qromov, general-leytenant Qrekov, general-leytenant Ohanyan, polkovnik Y.Zarviqarov, polkovnik O.Kraule, deputat İ.Andronov Dördüncü Ordu 23-cü motoatıcı diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratmışdı. 23-cü motoatıcı diviziyanın komandan müavini A.Babukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş hərbi texnikanın geri qaytarılmasını tələb etmişdi. Onları isə kim idi eşidən?!".

V.Savelyev bu məsələləri şərh edərək daha sonra qeyd edir: "1992-ci ilin fevral ayının 23-də hərbi şəhərcik "Qrad" qurğularından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov alayın daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqaviməti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdirilməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmayın) təkid edib ki, artilleriya divizionu, zenit artilleriya divizionu, tank rotası texnikası saxlanılsın. Nəticədə, ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd PDM, 3 ədəd ZSU-23- 4, 8 ədəd D-30 və xeyli digər döyüş texnikası ələ keçirdilər".

Polkovnik V.Savelyev bütün bunlara toxunaraq yazmışır: "Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı və şəxsi heyəti dağlar arasındakı Çapar dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü surətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyevə və şəxsi heyətə pul təklif edilərək, birlikdə vuruşmağa çağırılıblar".

Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran da elə İvan Moiseyevin batalyonu olub. Və bu batalyon da ermənilər arasında "İvanın vəhşi batalyonu" kimi tanınıb.Tədqiqat zamanı 02270 saylı hərbi hissənin əks-kəşfiyyatının materiallarından aydın olur ki, 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçmişdi. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd bronejilet, 11 ton konservləşdirilmiş yemək, 1200 cüt ayaqqabı, 146 ədəd tapança ermənilərin istifadəsinə verilmişdi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylanılmışdı.

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S.Lukaşovun əmrilə yandırılmışdır.

Polkovnik V.Savelyev xatırladır: "Ermənilər ruslara məxsus "02-19–MM" nömrəli "KamAZ"la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular. İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim.

Mən sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm. O, 19 müxtəlif rütbəli erməni və rus zabitin adını yazıya əlavə edərək bildirir ki, əsas canilərin sırasında 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər də var idi.

V.Savelyevin — vicdanlı, səriştəli rus kəşfiyyatçısının "Məxfi arayışı" haqsızlıqlarla barışmayan bir zabitin acı etirafıdır. Bu arayış ermənilərin və onların havadarlarının Xocalıda planlı, düşünülmüş hərbi cinayətlər--azərbaycanlı əhaliyə qarşı amansız soyqırımı törətdiklərini təkzibolunmaz faktlarla bir daha təsdiqləyir.

**Hazırladı: Tahir AYDINOĞLU**
**XQ**

# "Xocalı harayı" ittiham edir

**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Xocalı faciəsinin 32-cü ildönümünə həsr olunmuş "İfşa edən Xocalı" mövzusunda elmi sessiya keçirilib.**



"Xocalı dərdi, Xocalı dərsi" mövzusunda məruzəsində muzeyin direktoru akademik Rafael Hüseynov XX əsrdə insanlığa qarşı törədilmiş ən böyük faciələrdən biri olan Xocalı qətliamının siyasi və hüquqi mahiyyətindən danışıb. Alim bildirib ki, bu soyqırımı, bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində misilsiz vəhşilik aktıdır. Soyqırımı zamanı ağılagəlməz vəhşiliklər törədilib. Bununla ermənilər və onların havadarları xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq, xalqımızı tarixi torpaqlarımızın bir hissəsini itirməklə barışmağa məcbur etmək istəyirdilər.

Məruzəçi daha sonra qeyd edib ki, düşmənlər xalqımıza misilsiz faciə yaşatsalar da, məqsədlərinə çatmadılar. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Xocalı qırğını soyqırımı elan edilib. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsində erməni faşizmi darmadağın edilib Qarabağdan rüsvaylıqla qovuldu, şəhidlərin intiqamı alındı. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə təsis edilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası uğurla davam etdirilir. Görülən işlər nəticəsində dünyanın bir çox ölkəsində Xocalı soyqırımı rəsmən tanınıb.

Muzeyin şöbə müdiri, Əməkdar mədəniyyət işçisi Tomiris Babanlı "Çağdaş ədəbiyyatda Xocalı faciəsi", elmi işçi Zarema İbrahimova "Xocalı həqiqətlərini əks etdirən Memorial Soyqırımı Muzeyi" mövzularında məruzələrlə çıxış ediblər.

Elmi məclis belə bir inamla bitdi: Xocalı faciəsini törədənlərin haqq-ədalət məhkəməsinə çıxarılması üçün Azərbaycan dövləti bütün imkanlardan istifadə edəcək.

**Qabil YUSİFOĞLU**
**XQ**

# Türkiyə alpinistlərinin Naxçıvanda Xocalı yürüşü

**Dünən qardaş Tükiyənin alpinist qrupu ötən illərin ənənəsini davam etdirərək Naxçıvanda Xocalı faciəsi qurbanlarının xatirəsini Haçadağ zirvəsinə yürüşlə anıblar.**




Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Turizm Departamenti və Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil təşkil etdiyi aksiyada İstanbul, Antalya, Qars, Ağrı, Elazığ və İğdır bölgələrindən gələn 40 nəfər peşəkar və həvəskar alpinist, eləcə də 10 nəfər yerli ekstrimsevər iştirak edib. Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə həsr edilmiş yürüş səhər saatlarında Culfa rayonu Gal kəndindən start götürüb və iştirakçılar zirvəyə qədər olan 9 kilomet məsafəni qət ediblər.

2 min 415 metr yüksəklikdə – Haçadağın zirvəsində hər iki ölkənin dövlət himni səslənib. İştirakçılar Xocalı faciəsi qurbanlarını və Vətən müharibəsi şəhidlərini dərin ehtiramla yad ediblər. Aksiyada soyqrımı cəlladlarını lənətləyən, onların cəzalandırılmasına çağıran və Azərbaycan–Türkiyə qardaşlığının sarsılmazlığını ifadə edən şüarlar söylənib.

Yürüş başa çatdıqdan sonra alpinistlərə təşəkkürnamə təqdim olunub. Çətin relyefdə iştirakçıların təhlükəsizliyinin təmin edilməsi və mövcud risklərin idarə olunması məqsədilə təhlükəsizlik qurumlarının əməkdaşları aksiyanı müşayiət ediblər.

Alpinist qrupu üçgünlük səfər zamanı Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin və Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün abidələrini ziyarət ediblər. Qonaqlar Heydər Əliyev Muzeyində, muxtar respublikanın tarixi və təbiət abidələrində də olublar.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Bankın ləğv prosesi yekunlaşdı

**Əmanətlərin Sığortalanması Fondu tərəfindən Azərbaycanda ilk dəfə olaraq ləğv prosesində olan bankın ləğvetməsi yekunlaşdırılmışdır.**

Belə ki, 1992-ci ilin dekabr ayından etibarən bank fəaliyyətini həyata keçirmiş "Borçalı" KB-nin fəaliyyəti 31.01.2005-ci il tarixdə dayandırılmış və məcburi ləğv prosesi başlanılmışdı.

Həmin vaxtdan 2017-ci ilədək ləğvetmə ilə "RR and VAM" Beynəlxalq auditor firması, daha sonra isə "RR&VAM Beynəlxalq Audit Konsaltinq" MMC məşğul olmuşdur.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 17.08.2017-ci il tarixli, 2-1(103)-1376/2017 nömrəli qərardadı ilə məcburi ləğv edilmiş "Borçalı" KB-yə təyin edilmiş "RR&VAM Beynəlxalq Audit Konsaltinq" MMC-nin ləğvedici qismində fəaliyyətinə xitam verilmiş və Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi təyin edilmişdir.

Fond Banka ləğvedici təyin edildikdən sonrakı dövr ərzində Bankın öhdəliklərinin qısa müddət ərzində icrasının təmin edilməsi istiqamətində qanunla müəyyən edilmiş tədbirlər həyata keçirmiş və nəticədə bütün öhdəliklərin icrası tam təmin edilmişdir. Fond tərəfindən LPO "Borçalı" KB-nin ləğv prosesinin yekunlaşdırılması və Bankın ləğvedicisi qismində Fondun fəaliyyətinə xitam verilməsinə dair ərizə ilə müvafiq Məhkəməyə müraciət edilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 29.12.2023-cü il tarixli, 2-3(102)-12/2023 nömrəli qərarı ilə Fondun ərizəsi təmin edilərək, LPO "Borçalı" KB-nin ləğvedicisi qismində Fondun fəaliyyətinə xitam verilmiş və Bankın ləğv prosesi yekunlaşdırılmışdır.

Onu da qeyd edək ki, Əmanətlərin Sığortalanması Fondunun ləğvetməsində hal-hazırda 22 bank vardır. Fond bu bankların da ləğvetməsini kreditorların maraqlarına uyğun şəkildə mümkün ən qısa zaman ərzində yekunlaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirməkdədir.

Naxçıvan Muxtar Respublikası – 100

# Ordubad – təbiət tamaşası, el yaraşığı...

**Ordubad şəhəri haqqında indiyədək çox deyilib, çox yazılıb. Zəngəzur dağlarının ətəyində yerləşən bu qədim yurd təkcə Qafqazın deyil, bütövlükdə Şərqin və Avroasiyanın köksündə özünə əbədi yuva qurmuş müasir Azərbaycan şəhəridir. Ordubad elə bir məkandır ki, əsrlər boyu bura yolu düşən səyyahların, coğrafiyaşünasların marağına səbəb olub, haqqında xatirələr yazılıb, şəninə təriflər deyilib. Mənə görə, indiyədək Ordubad haqqında yazılmış hər bir xoş kəlimə sadəcə tərif deyil, bu yerin xüsusiyyətlərini özündə birləşdirən real təsvirdir. Məsələn, ötən əsrin məşhur səyyahı Hacı Zeynalabdin Şirvani "Bustanüs-səyahə" kitabında yazır: "Ordubad ürəkaçan gözəl bir şəhərdir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. Adamları surətcə gözəldir". Və yaxud XX əsrin əvvəllərində buranı ziyarət etmiş Nefodov adlı səyyah yazıb: "Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir".**



XIX əsrdə polyak tədqiqatçısı A. Petzold, fransız yazıçısı A.Düma, XVII əsrdə türk səyyahı Övliyə Çələbi və başqaları öz yazılarında bu gözəlliyi vəsf edib, Ordubad çinarlarının möhtəşəm vüqarına heyran qaldıqlarını bildiriblər. Ordubad həm də elə bir unikal yerdir ki, haqqında bəhs edərkən onun tarixi keçmişinə toxunmaya bilmirsən. Çünki bu keçmişə, özünəməxsusluğa sadiqlik Ordubadın müasir vizit kartının əsasını təşkil edir. Buna görə də müasir Ordubad şəhərinin inkişafına keçmişin səhifələrini vərəqləməklə nəzər salaq.

Arxeoloqlar qazıntılar zamanı əldə olunmuş abidələri tədqiq edərkən Ordubadın tarixinin 7 min il əvvələ gedib çıxdığını öyrəniblər. Müxtəlif dövrlərdə burada aparılmış araşdırmalar şəhərin zəngin mədəniyyətə malik olduğunu üzə çıxarıb. Ordubadı dünyaya tanıtdıran isə məşhur ipəyi və dadlı meyvələri olub. Mənbələrdə göstəririlir ki, Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısından etibarən avropalıların məişətində əvəzedilməz parça kimi tanınıb. Hələ 1875-ci ildə şəhərdə buxar mühərriki ilə işləyən ipəksarıma fabriki olub. 1886-cı ildə ipək istehsal edən 4 iri ipəksarıma müəssisəsi fəaliyyət göstərib.

XIX əsrin ikinci yarısı, 1920-ci illərin əvvəllərində Rusiya bazarlarını da yüksəkkeyfiyyətli xam ipək, ipək parça, habelə quru meyvə ilə təchiz edən Ordubad şəhəri mühüm ticarət mərkəzlərdən olub. Burada istehsal edilən keyfiyyətli ipək beynəlxalq festivallarda mükafatlara layiq görülüb. Ordubadda yetişən meyvələrin dadı isə tam ayrı bir aləmdir. Ordubad əriyi, şaftalısı, limonu Azərbaycan brendi kimi məşhurlaşıb.

Ordubad şaftalısı 1861-ci ildə ABŞ-da təşkil edilmiş meyvəçilik sərgisində, eləcə də Almaniya və İtaliya kimi Avropa ölkələrində öz layiqli yerini alıb. Əbutalibi əriyi isə 1898-ci ildə Kaliforniyada təşkil olunmuş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülüb. Bundan əlavə, Ordubad meyvələri sovet dövründə Moskvada keçirilən ümumittifaq kənd təsərrüfatı sərgilərində yüksək dəyərləndirilib. Ordubadın kiçik yaşayış məntəqəsindən şəhərə çevrilməsində də meyvəçiliyin və ipəkçilyin inkişafı mühüm rol oynayıb. Buradan Rusiyaya, Avropaya daim ipək və quru meyvə aparılıb.

Şəhərin mərkəzində yerləşən Buzxana binası Ordubadın orta əsrlərdən üzü bəri əsas meyvəçilik mərkəzlərindən biri olduğunu sübut edir. Eyni zamanda Ordubad şəhəri həm də sənətkarlığın inkişaf etdirildiyi şəhərlərdən olub. Tarix boyu burada müxtəlif sənət sahələri formalaşıb, əmtəə istehsalı genişlənib. Bu da şəhərin həm də mühüm sənətkarlıq mərkəzinə çevrilməsinə imkan verib.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə bu qədim Azərbaycan şəhərində müasir dövrün tarixini özündə əks etdirən obyektlər yaradılıb. Şəhərdə onlarla yeni obyekt inşa edilərək istifadəyə verilib, yollar, körpülər salınıb, enerji, rabitə, su infrastrukturu yeniləşdirilib. Həmçinin, şəhərdəki Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyət göstərdiyi Qeysəriyyə binası, Qədim Məbəd, iki yeraltı abidə, bir neçə tarixi kəhriz bərpa edilərək əvvəlki görünüşünə qaytarılıb.

Bu gün qədim Ordubad şəhərinin hər addımlığında tarixlə bərabər müasirlik də nəfəs alır. Keçmişinə sadiq bu müasir şəhəri digərlərindən fərqləndirən həm də odur ki, Ümummilli liderimiz Heydər Əliyev Ordubadı canı qədər sevdiyi Azərbaycanın incisi adlandırıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 fevral 2024-cü il tarixli "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında Sərəncamı isə bu incinin bu gününə və gələcəyinə göstərilən böyük qayğının ifadəsidir.

*S.HƏSƏNOV*
*XQ*

# Naxçıvanda enerjinin 32 faizi bərpaolunan mənbələrin payına düşür



**2014-cü ildən başlayaraq bugünədək dünyada alternativ və bərpaolunan enerji istehsalı iki dəfədən çox artıb. "Yaşıl enerji"dən istifadənin aktuallığının sürətlə artdığı bir dövrdə ölkəmizdə də bu sahənin inkişafı ilə bağlı konkret hədəflər müəyyənləşdirilib. Belə ki, dövlət başçısının imzaladığı "Azərbaycan 2030": sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də respublikamızda "yaşıl enerji" istehsalının genişləndirilməsi mühüm yer tutur. Ölkəmizin ümumi enerji istehsalında hədəfi bərpaolunan enerji payının 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.**

Təbii ki, ümumölkə konteksində baxdıqda, respublikanın iqtisadi rayonları içərisində Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanın da zəngin alternativ və bərpa olunan enerji mənbələri diqqət çəkir. Çünki muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti imkan verir ki, ekoloji cəhətdən təmiz və bərpaolunan alternativ enerji mənbələrindən geniş istifadə edilsin. Bu sırada isə Günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxır. Aparılan hesablamalara görə, muxtar respublika ərazisində günəşli saatların orta illik miqdarının 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi 0,8-1,2 kilovatsaat təşkil edir. Bu isə soyuq fəsillərdə belə Günəş enerjisindən istifadə etmək imkanlarını ortaya qoyur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də çıxışlarında dəfələrlə Naxçıvanın "yaşıl enerji" üçün zəngin potensiala malik olduğunu vurğulayıb. Hətta dövlət başçısı sonuncu dəfə Naxçıvanda Türkiyə Respublikasının Prezidenti ilə görüşündə də bu məsələyə diqqət çəkərək bildirmişdir ki: "…Naxçıvanın qazı, nefti olmasa da, Günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır".

Məlumdur ki, son illərdə muxtar respublikada haqqında bəhs olunan enerji mənbələrindən təmiz enerji istehsalı məqsədi ilə bir sıra addımlar atılıb. Xüsusilə yeni Günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi muxtar respublikada istehsal edilən ümumi enerjidə bərpaolunan enerjinin payını artırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən verilən məlumata görə, 2023-cü il ərzində muxtar respublikanın elektrik stansiyalarında 474 milyon 569 min kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb. Həmin enerjinin 94 milyon 390 min kilovat-saatı və ya 19,89 faizi su elektrik stansiyalarında, 319 milyon 662 min-kilovat saatı və ya 67,36 faizi istilik elektrik stansiyalarında, 60 milyon 516 min kilovat-saatı və ya 12,75 faizi günəş elektrik stansiyalarında istehsal olunub.

*H.SƏBUHİ*
*XQ*

**İşğal dövründə Qarabağda meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub.**

Bundan başqa, bina və tikililərin kütləvi dağıntıya məruz qalması xeyli miqdarda tikinti və söküntü tullantılarının yaranmasına səbəb olub. Hazırda bu tullantılar bölgədə aparılan tikinti–bərpa işlərinə müəyyən çətinliklər yaradır.

Tikintilərin dağıdılması, sənaye və kənd təsərrüfatı tullantıları, eləcə də məişət tullantıları və təbii ehtiyatların istismarı iqtisadi kontekstlə yanaşı, həm də bir sıra ekoloji problemlərə gətirib çıxarır. Problemin həlli isə həmin tullantıların müasir təcrübəyə uyğun idarə olunması və onlardan xammal kimi təkrar istifadə edilməsi zərurəti yaradır. Bu barədə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib: "Azərbaycanda gələcək iqtisadi inkişaf ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində aparılan fəaliyyətlə sıx bağlı olacaq".

# Tullantılar tikinti xammalı olacaq

## Bu, həm ekoloji, həm də iqtisadi səmərədir



Bu fəaliyyətə uyğun olaraq tullantıların çeşidlənməsi üçün Xocalı, Ağdam, Füzuli, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl və Tərtər rayonlarında məişət tullantıları poliqonları inşa olunacaq. Ümumilikdə, 7 tullantı poliqonunun və 2 ötürücü məntəqənin inşası nəzərdə tutulur. Ağdam tullantı poliqonu 15 hektar, Şuşa (Xocalı), Laçın və Kəlbəcər poliqonları hər biri 10 hektar, Qubadlı, Cəbrayıl, Tərtər və Füzuli poliqonları isə hər biri 5 hektar ərazidə inşa ediləcək. Zəngilanda isə 10 hektar ərazidə ötürücü məntəqənin inşası nəzərdə tutulur. Burada tullantılar təkrar emala, xammal kimi istifadəyə hazırlanacaq. Azad olunmuş rayonlarda təkrar emal müəssisələri yaradılacaq. Bundan əlavə, layihə regionda yerli iqtisadiyyata da təkan verəcək.

Artıq Qarabağ ərazisində tullantıların idarə olunması sisteminin quraşdırılması üçün ilkin təcrübə də var. Qarşıya qoyulan hədəflərə uyğun olaraq, Ağdam rayonunun Kəngərli və Cəbrayıl rayonunun Horovlu kəndlərinin bərpa və yenidənqurulması zamanı yaranan tikinti-söküntü tullantıları təkrar emala cəlb edilir. Bu, ilk növbədə, tikinti və söküntü tullantılarının ətraf mühitə təsirini əhəmiyyətli dərəcədə azaldır, çirklənməni minimuma endirməklə təkrar emal edilir. Nəticədə tikintidə istifadə oluna bilən materiallar əldə olunur. Bu materiallardan inşaat zamanı yol yataqlarında, beton işlərində, alt dolğu işlərində səmərəli istifadə edilir.

Nazir bu barədə deyib: "Kəndlərin ərazisində utilizasiya poliqonu düzəltmişik. Dağıntılardan çıxan tullantılar təkrar material kimi istehsalata qaytarılır. Əldə edilən materiallardan yol yataqları, tametaltı özül kimi istifadə olunur. Nəticə etibarı ilə sıfır tullantıya nail olunacaq. Bütün Qarabağda və Şərqi Zəngəzurda bu üsuldan istifadə olunsa sıfır tullantı ilə ərazilər təmizlənəcək. Təkrar istehsalata qaytarılan tullantı nümunələrinin laborator təhlilləri aparılıb və müsbət nəticələr alınıb".

Müəyyən olunmayan yerlərdə bu tullantıların atılması, saxlanılması və basdırılması isə qadağan ediləcək. Atmosfer havasına zərərli təsir göstərən istehsal və məişət tullantılarının xüsusi qurğular olmadan yandırılmasına icazə verilməyəcək.

Eyni zamanda, azad olunmuş ərazilərdə tullantı sularının səmərəli idarə olunması da prioritetdir. Yağış, drenaj sularının toplanması şəbəkəsi qurulacaq. Təmizlənmiş tullantı suları təkrar istifadəyə yönəldiləcək, xüsusilə yaşıllıq ərazilərinin suvarılmasında istifadə ediləcək.

Atılmış bu addımlar isə gələcək üçün rahatlıq yaradacaq. 10 milyonlarla kub dağıntı tikinti materialına çevriləcək. Bu, həm ekologiyaya zərər vurmayacaq, həm iqtisadiyyata xeyir verəcək, həm də maliyyə vəsaitlərinə qənaət ediləcək.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

# Fermerlərə göstərilən xidmətlər onlara uğur qazandırır

**İtaliya-Azərbaycan Universitetlərinin təşkil etdiyi "Davamlı Bağçılıq Sistemləri" sertifikat proqramının Bakı modulunun başa çatmasına həsr olunan tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin (KTN) aparat rəhbəri Azad Cəfərli bildirib ki, ölkəmizdə fermerlərə göstərilən xidmətlərin modernləşdirilməsinə və dövlətin dəstəklədiyi qabaqcıl mexanizmlərin tətbiqinə xüsusi diqqət yetirilir.**

A.Cəfərlinin sözlərinə görə, respublikamızda dövlət-özəl tərəfdaşlığının təşviqi, fermerlərin qərarların qəbulunda fəal iştirakı və digər innovativ səylər dövlətin dinamik öhdəliyini əks etdirir. Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün çoxsaylı layihələr həyata keçirilir və bu, müxtəlif bölgələrdə məşğulluğun artmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Dövlət dəstəyi çərçivəsində ölkə Prezidentinin sərəncamına əsasən, əkinçiliyə də subsidiya verilir və bu, sahənin inkişafı stimullaşdırılır.

KTN-dən verilən məlumata əsasən, ilkin mərhələdə 2023-2024-cü təsərrüfat ili üzrə 536 min 702 əkin bəyanı əsasında 263 min 992 fermerə ümumilikdə 109 milyon 517 min manat əkin subsidiyası ödənilib. Ödənişlərdə payızlıq əkinlər və çoxillik əkmələrə görə, 543 min 298 hektar sahə əhatə olunub.

Xatırladaq ki, ötən il fevralın əvvəllərində 189 min 946 əkin bəyanı üzrə 93 min 904 fermerə 48 milyon 636 min manat ilkin əkin subsidiyası ödənilmişdi. Ödənişlər 258 min 349 hektar əkin sahəsini əhatə edirdi. Bu isə 2023-cü ildə subsidiya ödənişi alan fermerlərin sayının 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 dəfə, subsidiya vəsaitinin miqdarının 2,3 dəfə, əkin sahəsinin həcminin 2,1 dəfə, ödəniş edilən bəyanların sayının isə 2,8 dəfə çox olması demək idi.

Subsidiya ödənişləri zamanı diqqət çəkən məqam o olub ki, köçürülmə sürətlə reallaşdırılıb. Bu prosesi şərtləndirən məqam isə fermerlərin çıxarış sənədlərinin əldə edilməsi zamanı heç bir ləngliyə yol verilməməsi olub. Belə ki, "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" ölkə Prezidentinin 7 oktyabr 2021-ci il tarixli Fərmanına əsasən, subsidiyaların torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış sənədi əsasında verilməsi nəzərdə tutulub. Bununla əlaqədar KTN tərəfindən bu sahədə fermerlərin maarifləndirilməsi, vətəndaşların torpaqdan istifadə hüququna dair sənədlərində mövcud çatışmazlıqların aradan qaldırılması və pay torpaqları üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsinin başa çatdırılması ilə bağlı işlərin sürətləndirilməsi üçün aidiyyəti qurumlarla birlikdə müvafiq addımlar atılıb. Bunun nəticəsində torpaq sənədlərinin əksəriyyəti hazırda çıxarış sənədləri ilə əvəzlənib və 2023-2024-cü təsərrüfat ilində Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) inteqrasiya edilib. Ümumiyyətlə, son illərdə ölkəmizdə kənd təsərrüfatı istehsalçılarını dəstəkləmək üçün digər mexanizmlər də tətbiq olunub. Bunun nəticəsidir ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"nın fevral sayının ilkin rəqəmlərinə görə, cari ilin yanvar ayı ərzində Azərbaycanın ümumi ixracı 1,8 milyard ABŞ dollarına yüksəlib.



Bu gün Qarabağ və Şərqi Zəngəzur bölgələrində də aqrar sahənin inkişafı diqqət mərkəzində saxlanılır, mövcud olan təqribən 350 min hektar örüş-otlaq sahələri, əlverişli təbii şərait nəzərə alınaraq heyvandarlığın inkişafı üçün geniş imkanlar yaradılır. İlkin hesablamalar göstərir ki, bu ərazilərdə iribuynuzlu heyvanların sayının təqribən 430 min başa, xırdabuynuzlu heyvanların sayının isə 1,6 milyon başa çatdırılması mümkündür. Bunun hesabına Qarabağ və Şərqi Zəngəzurda, təqribən, 45 min ton ət və 240 min ton süd istehsalı proqnozlaşdırılır ki, bu da idxalın əvəzedilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ətlik və südlük istiqamətli heyvandarlıqla yanaşı, bölgədə tarixən mövcud olan baramaçılıq və arıçılıq ənənələrinin, həmçinin atçılığın bərpası da diqqət mərkəzindədir.

Yeri gəlmişkən, ötən il Qarabağ iqtisadi rayonunda 409 min 486 ton dənli və dənli paxlalı bitkilər, ondan 22 min 584 ton dən üçün qarğıdalı, 74 min 474 ton pambıq, 23 min 842 ton şəkər çuğunduru, 6 min 825 ton dən üçün günəbaxan, 55 min 601 ton bostan məhsulları, 17 min 163 ton kartof, 284 min 899 ton tərəvəz, 58 min 444 ton meyvə və giləmeyvə, 8 min 146 ton üzüm istehsal edilib.

İl ərzində Şərqi Zəngəzur iqtisadi rayonunda isə 19 min 103 ton dənli və dənli paxlalı bitki, ondan 90 ton dən üçün qarğıdalı, 419 ton şəkər çuğunduru, 68,3 ton dən üçün günəbaxan, 67,9 ton bostan məhsulları, 120,5 ton kartof, 1463,2 ton tərəvəz, 1300 ton meyvə və giləmeyvə, 226 ton üzüm istehsalı olunub.

Hesabat dövründə düşməndən təmizlənən ərazilərdə heyvandarlıq sahəsində də artım müşahidə edilib. Belə ki, keçən il Qarabağ iqtisadi rayonunda iribuynuzlu mal-qaranın sayı 300 min 892, o cümlədən inək və camışların sayı 145 min 759 olub. Bu isə bir il əvvəlki göstərici ilə müqayisədə müvafiq olaraq 0,2 faiz və 0,6 faiz azdır. Keçən il Şərqi Zəngəzur iqtisadi rayonunda isə 96 min 169 iribuynuzlu mal-qara, o cümlədən 44 min 38 inək və camış olub ki, bu da illik müqayisədə müvafiq olaraq 2,2 faiz və 1,6 faiz çoxdur.

Beləliklə, 2023-cü ildə Azərbaycanda 3 milyon 248 min 591ton dənli və dənli paxlalı bitki, ondan 293 min 114 ton dən üçün qarğıdalı, 276 min 311 ton pambıq, 219 min 785 ton şəkər çuğunduru, 29 min 310 ton dən üçün günəbaxan, 438 min 198 ton bostan məhsulları, 224 min 517 ton üzüm istehsal edilib.

Cari ilin yanvar ayında isə ölkədə 491,2 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz çox) dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub. Son1 ildə bitkiçilik məhsullarının dəyəri 0,8 faiz artaraq 22,7 milyon manata, heyvandarlıq məhsullarının dəyəri isə 1,2 faiz artaraq 468,5 milyon manata yüksəlib.

**XQ**

# Soyqırımına şahidlik edən vebsayt

**Dünyaca məşhur fotojurnalist Reza Deqati 1992-ci ildə Xocalı soyqırımının, Azərbaycan xalqının başına gətirilən dəhşətlərin nadir şahidlərindən biri olub. Hələ o vaxtdan lentə köçürdüyü həqiqətləri dünyaya çatdırmaq üçün bir çox ölkələrdə sərgilər təşkil edib, reportajlar verib.**

Bu missiyanın davamı olaraq, "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasının təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın tərəfdaşlığı və Reza Deqatinin təşəbbüsü ilə Paris və Bakıdakı əməkdaşlar tərəfindən "Khojalywitness.org" saytı hazırlanaraq dünyaya nümayiş olunur. "Bir fotoqraf kimi mən insanlara necə haqsızlıq edildiyini gördüm, nalələrini eşitdim, çəkdiyi əzabları fotolentimin yaddaşına köçürdüm.



O anları ki mən gördüm, o səsləri ki mən eşitdim, bütün bunlar mənə dərindən təsir etdi. Onların başına gətirilənləri bütün dünyaya çatdırmaq mənim ömürlük vəzifəm, çiynimdə olan bir yükdür", – deyə tanınmış fotojurnalist bildirib.

Qeyd edək ki, dünyanın müxtəlif yerlərindəki problemləri, insanların üzləşdiyi bəlaları dünyaya çatdıran Reza 34 il əvvəl Bakıda törədilmiş 20 Yanvar qırğını qurbanlarının, həmçinin 32 ildən bəridir ki, Xocalı sakinlərinin də səsi olmağı missiya olaraq öz üzərinə götürüb. Saytda, 1992-ci ildə Xocalı və Ağdamda çəkilən şəkillər hekayələri ilə birlikdə təqdim olunur. Həmçinin, "Time", "The New York Times", "The Washington Times", "The Washington Post", "BBC1News", "The Independent", "Le Monde", "Newsweek", "The Sunday Times", "Human rights watch", "The Age", "The Boston globe" "Kommersant", "Svoboda" kimi nüfuzlu beynəlxalq media qurumlarının soyqırımı ilə bağlı yazdığı faktlar da əlavə olunub.




Bundan başqa, Amerika Birləşmiş Ştatlarından jurnalist, yazıçı və müəllif Tomas Qoltz, jurnalist və operator Çingiz Mustafayev, Fransadan fotoqraf və sənədli kinorejissor Frederique Lengaigne və Litvadan fotojurnalist Rikardas Lapaitisin qeyd etdikləri faktlar da saytda göstərilib.



Vebsayt daha çox kütləyə çatması üçün azərbaycan, fransız, ingilis və rus dilləri olmaqla 4 dildə hazırlanıb. Gələcəkdə saytın azı 10 dilə tərcümə olunması da nəzərdə tutulub. Saytın yaradılmasında əsas məqsədlərindən biri Xocalı qurbanlarının, şahidlərinin hekayələrini göstərməklə, digər insanların bu şəkillərə baxaraq öz əzizlərini tapmasına, yaxınlarını tanımasına yardımçı olmaqdır.

***Əli ƏLIYEV***
***XQ***

# Xankəndidə universitet yaradılması şəhidlərin də ruhunu sevindirir

## *Həmsöhbətimiz Xankəndi Pedaqoji İnstitutunda müəllim işləmiş Zəfər Hüseynovdur*

**"İşğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması ilə bağlı Ptrezident sərəncamının icrasına başlanmasına ürəkdən sevinən Zəfər Hüseynov hazırda Sumqayıt Dövlət Universitetində çalışır, fizika-riyaziyyat elmləri namizədi, dosentdir. İlk əmək fəaliyyətinə isə ADU-nun (indiki BDU) məzunu kimi 1975-ci ildə Xankəndi Pedaqoji İnstitutunda başlayıb.**

– Hadisələr başlananda erməni millətçilərinin məkrli planlarında Xankəndi Pedoqoji İnstitutu ilk hədəf idi, – deyə o, həmin dövrü xatırladı. – Erməni müəllimlərinin institut daxilində və kənarda torpaq iddiasının və digər pozuculuq fəaliyyətlərinin açıq şəkildə şahidi olmuşam. İnstitutun azərbaycanlılardan ibarət kollektivi cinayətkar erməni millətçiləri ilə üz-üzə qalmışdı və hətta münasibətlər bəzən toqquşma səviyyəsinə qədər gedib çıxırdı. Yuxarı dövlət orqanlarına rəsmi və qeyri-rəsmi şəkildə məlumatlar verilsə də, heç bir nəticə əldə olunmurdu.

Kimsəsizlik və köməksizlik bu təhsil ocağının azərbaycanlı kollektivini cinayətkar, türk qanına susamış və amansız millətçi ermənilərlə üz-üzə qoymuşdu. Beləliklə, 1988-ci il may ayının 16-da institutun Azərbaycan bölməsinin müəllim və tələbələri fiziki və mənəvi təzyiqlər altında Xankəndi şəhərini tərk edib, Şuşaya getdi. Bununla da taleyimizə köçkünlük həyatı yazıldı. Qısa müddətdən sonra isə ermənilər institutun bazasında "Artsax Dövlət Universiteti"nin yaranmasını elan etdilər.

Biz qısa müddətdə Şuşada dərslərə başladıq, heç bir statusumuz olmadan fəaliyyət göstərirdik. Yalnız 2 həftədən sonra qərara gəlindi ki, bura Pedoqoji İnstitutun fakültəsi olsun. Amma Şuşada da bizi dinc qoymadılar və məcburən Ağcabədiyə köçdük. O zaman Qarabağda universitet yaradılması barədə şifahi razılıq verilmişdi və mən hətta AzTV-nin "Aktual ekran" verilişində bu barədə hamının ürəyincə olan xəbəri səsləndirmişdim. Amma söz verilsə də, əməldə heç bir iş görülmədi...

İndiyədək 100-ə yaxın elmi, elmi-metodiki məqalə yazmış, ali məktəblər üçün nəzərdə tutulmuş 5 dərs vəsaitinin müəllifi olan Əməkdar müəllim Zəfər Hüseynov 1989-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa fakültəsinin dekan müavini, ADPU-nun Şuşa filialı yarandıqdan sonra, əvvəlcə tədris və elmi işlər üzrə direktor müavini, 1991-ci ildən isə filialın direktoru vəzifələrində işləyib. Söhbətimiz zamanı işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində aparılan uğurlu siyasəti çox önəmli addımlardan biri kimi dəyərləndirdi. Erməni faşizminin 32 il bundan əvvəl oda qalayıb yer üzündən sildiyi, dinc əhaliyə divan tutduğu Xocalının lap yaxınlığında bu gün Qarabağ Universitetinin yaradılmasını soyqırımı qurbanlarının qisasının alındığının daha bir önəmli gösəricisi sayan Zəfər Hüseynov bildirdi:

– Regionun yüksək ixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud



olmuş təhsil ənənələrinin yaşadılması işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın sürətlənməsində də əhəmiyyətli rol oynayacaq. Yarım əsr öncə Ulu öndər Heydər Əliyevin göstərişi ilə müstəqil Xankəndi Pedaqoji İnstitutu təsis edildi, indi isə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə azad Xankəndidə Qarabağ Dövlət Universiteti yaradılır. Bu, əsl vətənpərvərlik örnəyi və qeyrət işidir. Mən həmin sərəncamı oxuyanda çox böyük qürur hissi keçirdim.

Belə bir universitetin, özü də məhz Xankəndidə yaradılması tarixi zərurətdən irəli gələn sosial sifariş idi. Qarabağın işğala məruz qalması ilə Xankəndidə fəaliyyətini dayandırmış bir universitetin indi ata vəsiyyətinə əməl edən, onun ən layiqli davamçısı olan cənab İlham Əliyev tərəfindən bərpası gənclik illərini burada keçirmiş bir müəllim kimi, mənin ürəyimdən xəbər verir.

Şuşadan çıxanda 38 yaşı olan Zəfər müəllim ora qayıdanda artıq 68 yaşında idi. Deyir ki, sağ olsun Ali Baş Komandanımız, var olsun Milli Ordumuz: "Onların sayəsində mümkünsüz mümkün oldu, biz sevincli günləri yaşadıq. İndi yurda qayıdışımızı səbirsizliklə gözləyirəm. 2024-cü ilin sentyabrında tələbələri, gənc alimləri, müəllimləri orada görmək istəyirik. Bu istiqamətdə bütün resurslarımız səfərbər ediləcək.

Qarabağ regionunun sosial-iqtisadi inkişafı, o cümlədən təhsil sisteminin yenidən qurulması, burada ali təhsil ocaqlarının yaradılması işi Böyük Qayıdış Proqramı çərçivəsində müəyyən plan əsasında dövlət strukturları tərəfindən mərhələli şəkildə həyata keçirilir. Bu baxımdan qeyd olunan məsələ ümumi konsepsiyaya bağlıdır".




Müsahibimiz əlavə etdi ki, bu gün ADPU-nun Ağcabədi filialı adı altinda fəaliyyət göstərən ali təhsil müəssisəsi Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin hüquqi varisidir: "İndi bu kollektivdə əksəriyyəti gənclərdən ibarət olan təcrübəli professor-müəllim heyəti formalaşıb. Filialda bu gün 10 ixtisas üzrə 995 tələbə təhsil alır. Arzu edərdim ki, həmin tələbələr Qarabağ Universitetinin ilk məzunları kimi diplom alsınlar".

***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

# Xocalı qətliamı Gürcüstan mətbuatında

**Gürcüstanın nüfuzlu "Sakartvelos Respublika" qəzetində tarixçi-alim Quram Marxulianın Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Xocalı soyqırımı – XX əsrın faciəsi" adlı məqaləsi dərc olunub. Oxucularımız üçün maraqlı olacağını nəzərə alaraq məqaləni gürcü dili üzrə mütəxəssis Nəriman Əliyevin tərcüməsində təqdim edirik.**

"Xocalı faciəsi bəşər tarixində insanlığa qarşı törədilmiş ən dəhşətli soyqırımı aktı, bütün zamanların qanlı səhifəsi olaraq yaddaşlarda əbədi yaşayacaq. Söhbət həlak olmuş dinc azərbaycanlıların sayı ilə yanaşı, günahsız insanlara verilmiş işgəncələrin təsəvvürə sığmayan qorxunc mənzərələrindən, amansızlığı ilə Xatın, Lidisa, Oradur soyqırımları ilə müqayisəyə gələn İnsanlıq Faciəsindən gedir.

Bir daha xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş SSRİ ordusunun 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücum edib. Şəhərin 2 500 sakini xilas olmaq üçün Ağdam istiqamətinə üz tutsa da, ermənilər dinc sakinləri gülləbaran ediblər. Bununla da erməni işğalçıları Xocalıda Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birini törədiblər. Bu kütləvi qırğın nəticəsində ümumilikdə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca qəddarcasına məhv edilib. 1 275 dinc sakin əsir götürülüb, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. 475 nəfər şikəst olub. Səkkiz ailə bütünlüklə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Bu soyqırımına görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Amma Ermənistanın azərbaycanlılara qarşı təcavüz və terror əməlləri bununla bitmir. Erməni quldur dəstələri Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel adlı yaşayış məntəqələrində də dinc azərbaycanlılara qarşı qətliamlar həyata keçiriblər. Nəticədə Azərbaycan torpaqlarının 20 faizə qədəri işğal edilib, amansız işğala qarşı mübarizədə təxminən 20 min insan həlak olub. Eyni zamanda Azərbaycan uzun illər ərzində böyük humanitar fəlakətlə üzləşib.

1994-cü ildə o zamankı Prezident Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis "26 fevral – Xocalı Soyqırımı Günü haqqında" xüsusi qərar qəbul edib. Sənəddə hadisənin başvermə səbəbləri və günahkarları təfsilatı ilə açıqlanıb. Bakının Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə "Ana harayı" adlı abidə ucaldılıb.

Onu da bildirək ki, Heydər Əliyev Fondu Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə soyqırımı ilə bağlı xüsusi layihə çərçivəsində dünyanın bir sıra ölkələrində aksiyalar, silsilə tədbirlər, sərgilər, anım mərasimləri keçirilir. Fondun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət!" kampaniyasının səmərəsi isə ildən-ilə artır.

Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı 2020-ci il sentyabrın 27-də başlamış və noyabrın 10-dək davam etmiş Vətən müharibəsində əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda mübarizəyə qalxıb və Ermənistan silahlı qüvvələrini darmadağın edərək tarixi Zəfər qazanıb. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu doğma torpaqlarını işğaldan azad edib. Bununla da, Xocalı soyqırımının qisası döyüş meydanında alınıb.

Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncə, Bərdə, digər şəhər və kəndlərimizi ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daimi dövlət siyasətidir.

Bu gün Azərbaycan Xocalı soyqırımının 32-ci ildönümünü başını dik tutaraq yad edir. Xocalı şəhəri 2023-cü




il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin il oktyabrın 15-də Xocalıda Azərbaycanın Dövlət Bayrağını ucaldıb. Bu, Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

Azərbaycan xalqı soyqırımının 32-ci ildönümünü məşhur "Ana harayı" abidəsini ziyarət etməklə anır. Amma dünya bu amansız qətliama hələ susmaqdadır. Azərbaycan xalqı haqq səsinin dünyaya çatdırılması istiqamətində inadla mübarizə aparır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən soyqırımı aktı kimi tanınıb. Bunlar faciəyə beynəlxalq siyasi qiymət verilməsi istiqamətində atılan ilk addımlardır. Amma Xocalı soyqırımı əsl beynəlxalq hüquqi qiymətini almalı və bu dəhşətli faciəni törədənlər layiqli cəzalarını almalıdırlar".

***P.ƏMİRCANOV***
***XQ***

# Yeni dünya nizamı və Türkiyə

**Bu gün planetimiz ziddiyyət və zorakılıqlarla çalxalanır. Dünyanın bir çox qaynar nöqtələrində ağır silahlı münaqişələr və vəkalət müharibələri gedir. İri çaplı toplar, uzaqmənzilli raketlər, digər ölümsaçan silahlar susmaq bilmir. Şəhər və kəndlər dağıdılır, günahsız insanlar həlak olurlar. Başəriyyət biçarə uşaq kimi susur.**



Belə çətin, taleyüklü məqamda Türkiyə dövlətinin lideri Rəcəb Tayyib Ərdoğan regionda sülhün və ədalətin bərqərar olunması naminə dəyərli təşəbbüslər irəli sürür. Ankaranın liderliyi ilə Böyük Turan real güc mərkəzinə çevrilir ki, bu, öz növbəsində imperialist ölkələri ciddi narahat edir.

Makron Fransası ötən il Sahel Afrikasından faktiki olaraq qovulub, indi qlobal müstəvidə öz miskin simasını saxlamaq üçün Cənubi Qafqazda özünə yer tutmağa can atır. Bunlar, əlbəttə, əbəs cəhdlərdir. Regionda Rusiya və Türkiyə əsas təsir imkanlarına malikdir. İrəvanın səbatsız siyasəti sadəcə bölgəni yeni təhdidlərlə üz-üzə qoyur.

Son vaxtlar Türkiyənin bir çox ərəb dövlətləri, eləcə də Misirlə isti münasibətlərinin yaranması regiondakı qüvvələr nisbətinə müəyyən müsbət təsir göstərir. Təəssüf ki, köhnə bəla, təriqətçilikdən yaranan çat müsəlman aləmini hələ də içəridən parçalayır. Türkiyə bu istiqamətdə də lider ölkə kimi, yükün ağırlığını öz üzərinə götürüb.

Yaxşı xəbər həm də odur ki, Ankara-Vaşinqton əlaqələrində yenidən işgüzar əhvali-ruhiyyə hökmran olmağa başlayıb. Pentaqonun "F-16" qırıcılarının Türkiyəyə satışının bərpa olunmasına razılıq verməsi müsbət jest kimi qəbul edilə bilər. Türkiyənin NATO-da da sözünün kəsəri artıb və Rusiya-Ukrayna müharibəsi fonunda daha da artacaq.

II Dünya müharibəsindən sonra 3 qalib dövlətin (SSRİ, ABŞ, Böyük Britaniya və onların müttəfiqləri olan Fransa və Çin) milli maraqlarına xidmət edən BMT və onun strukturları yaradılıb. Lakin son illər bu qurum dişsiz və səmərəsiz bir təşkilata çevrilib. Dünən bu təşkilatın oyun qaydalarını yazanlar bu gün özləri onları ayaqlar altına atırlar.

Hazırda dünyanın yeni, daha ədalətli siyasi arxitekturaya kəskin ehtiyacı yaranıb. Yeni dünya düzəninin necə olacağı isə müəmma olaraq qalır. Böyük ehtimalla dünya artıq birqütblü olmayacaq. BDU-nun professoru, siyasi şərhçi Atamoğlan Məmmədli hesab edir ki, ələhəzrət zaman türkün xeyrinə işləyir. Turanın səhnəyə çıxaraq "mən də varam!" deməsi gözlənilmir.

Professor qeyd etdi ki, dünya çoxqütblü olsa belə, bütün problemlərin tezliklə çözüləcəyənə inanmaq çətindir:

**Ekspert rəyi**



**Mübariz MƏMMƏDLİ,**
**Bakı Slavyan Universitetinin professoru, siyasi şərhçi**

Tarixdə şəxsiyyətlərin rolu böyükdür və bu amili heç kim inkar edə bilməz. Görkəmli dövlət xadimi R.T.Ərdoğan taleyin türk dünyasına bəxş etdiyi liderlərdəndir. Türk xalqının böyüklüyü, türk dövlətçiliyinin gücü həm də ondadır ki, XX əsrdə Mustafa Kamal Atatürk, yüz il sonra isə R.T.Ərdoğan kimi görkəmli dövlət xadimləri və parlaq siyasətçilər yetirə bilmişdir.

Bu il fevralın 26-da R.T.Ərdoğanın 70 yaşı tamam olmuşdur. Bu, Türkiyə dövləti və xalqı, türk dünyası, bütün müsəlmanlar, Yer üzünün haqqa və ədalətə tapınan bütün insanları üçün olduqca əlamətdar hadisədir. O, birmənalı olaraq çağdaş dünya siyasətinin ən uca zirvələrindəndir!

Türkiyədə son illər dillər əzbəri olan bir mahnıda sayın Ərdoğanı "əzilənlərin gur səsi", "millətlərin hürr səsi" adlandırırlar. Deyilənlərə görə, sadə ərəb ailələri onun portretini illərdir evlərinin ən hörmətli yerindən asırlar. Avropada, Asiyada, Afrikada, Latın Amerikasında, bir sözlə, hər yerdə ondan məhəbbətlə söz açırlar.

Siyasətdən az-çox başı çıxan hər kəs ona dərin rəğbət və ehtiram göstərir. Onun şəxsiyyətinə göstərilən bu məhəbbətin bir əsas səbəbi var: Bu görkəmli dövlət xadimi siyasətin yüksək mənəviyyat, həmçinin əxlaq üzərində bərqərar olunmalı zəruriliyini öz şəxsi həyatı, əməlləri ilə sübut və təsdiq etmişdir.

Çağdaş dünya siyasətinin iki böyük lideri – Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin və Türkiyənin dövlət başçısı Ərdoğanın şəxsi dostluq və qardaşlıq əlaqələri bütün dünya üçün parlaq örnəkdir. Planetimizdə bir-biri ilə bu qədər yaxın münasibətləri olan iki ölkə və xalq tapmaq çətindir! Bu, olduqca böyük dəyər və səadətdir!

"Əslində, dünya heç vaxt ədalətli olmayıb, hər zaman güc üzərində qurulub. Dünən də belə olub, bu gün də belədir. Türk Dövlətləri Təşkilatı güc və qüvvə toplayıb monolit olmalıdır! Başqa yol yoxdur!

Təsadüfi deyil ki, dünən 70 yaşını qeyd edən Prezident Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AK Parti) Sakaryada təşkil edilmiş mitinqində bildirib ki, Türkiyəni düşmənlərindən qoruyan yeganə amilölkənin gücü və öz imkanlarıdır: "Yoxsa bu coğrafiyada nəfəs almağa belə imkan verməzlər. Bu həqiqəti yaxın ətrafımızdakı misallarla ağrılı şəkildə görürük. Suriyada bir milyon insan vəhşicəsinə qətlə yetirilib, 12 milyona yaxın insan köç etmək məcburiyyətində qalıb və heç kim bu zülmün qarşısını almaq üçün addım atmayıb...Allah eləməsin, sabah başımıza bir belə gəlsəydi, qarşılaşacağımız vəziyyət bundan fərqli olmazdı".

**Məsaim ABDULLAYEV**
**XQ**

Azərbaycanda daha bir nüfuzlu yarış – batut gimnastikası və tamblinq üzrə Dünya kuboku uğurla keçirildi. Milli Gimnastika Arenasında təşkil edilən və Paris Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyan yarışda 32 ölkənin təmsilçiləri öz aralarında ən güclüləri müəyyən etmək üçün gərgin mübarizə apardılar. Yüksək rəqabət şəraitində keçən yarışda azarkeşlər 1 qızıl, 1 gümüş medal qazanan Azərbaycan idmançılarının uğurlarına bir daha şahidlik edib lər.

Tamblinq üzrə yarışda Mixail Malkinin bütün rəqiblərini geridə qoyaraq qızıl medal qazanması idmançımızın güclü potensialını bir daha ortaya qoyub. İlk finalda daha çətin kombinasiya etməyi planlaşdıran təmsilçimizin çıxışı zəif olsa da, bu, ona ilk dördlüyə düşmək və qələbə uğrunda mübarizə aparmaq üçün kifayət edib. Mixail Malkin müsahibəsində bildirib ki, dünya çempionatında ona qələbə gətirən elementləri yarışda icra edəcəyini planlaşdırsa da, onların uğrunda mübarizə aparacaq.

Komandamızın digər üzvü Adil Hacızadə isə Dünya kubokunda gümüş medalı qazanıb. Tamblinqçimiz yarışla bağlı təəssüratlarını bölüşərkən fəxri kürsüyə yüksəlmək üçün bütün gücünü sərf etdiyini deyib:

– Düşünürdüm ki, elə bir proqram icra edim ki, həm onu dəqiq yerinə yetirim, həm də yaxşı xal qazanım. Yarışın gedişində rəqiblərin çıxışını izləyərkən

# Bakıda Dünya kuboku yarışının gündəliyi

## Gimnastlarımız 1 qızıl, 1 gümüş medal qazanıblar




mürəkkəbliyi onu bir qədər düşündürüb:

–Bu elementlər mürəkkəb olduğu üçün dəqiq icra edilməlidir. Həm də, iki ay yarım idi ki, onu etmirdim. Məşqçim Adil Hüseynzadə mənə proqramı səhvsiz yerinə yetirməyi məsləhət görmüşdü. Əvvəlcə onunla razılaşdım, lakin bir neçə dəqiqədən sonra onun yanına qayıtdım və dedim: "Gəlin, cəhd edək!" O, bir neçə saniyə düşündü və dedi: "Mişa, et! Mən tamblinq cığırının yanında dayanacağam və inanıram ki, sən bunu bacaracaqsan".

Şübhəsiz, belə nüfuzlu yarışlarda idmançıların çıxışları psixoloji cəhətdən də çetin olur. Bütün bunlara baxmayaraq Avropa və ikiqat dünya çempionu olan, Avropada 2023-cü ilin ən yaxşı gimnastı adını qazanan təmsilçimiz hamıdan güclü olduğunu bir daha sübuta yetirib. M. Malkinin indi əsas hədəfi bir aydan sonra Portuqaliyanın Gimarayeş şəhərində təşkil olunacaq Avropa çempionatında da ölkəmizi layiqincə təmsil etməkdir. Gimnast qitə çempionatında da qızıl medal fikrim dəyişdi. Həlledici çıxışdan əvvəl elementləri çətinləşdirməyi qərara aldım. Sevinirəm ki, çıxışım uğurlu oldu.

A.Hacızadə Dünya kubokunda azarkeşlərin dəstəyinin ona xüsusi güc və inam bəxş etdiyini deyib:

–Doğma divarlar arasında ikiqat həyəcan və böyük məsuliyyət hiss edirsən. Üstəlik, səni ürəkdən dəstəkləyən azarkeşləri sevindirmək gözəl duyğudur. Dünyanın güclü gimnastları arasında uğurla çıxış edib, ölkəmizi layiqincə təmsil etdiyimə görə qürur hissi duyuram.

Yarışda qalib və mükafatçılarla yanaşı, həm kişilər, həm də qadınlar arasında fərdi proqramda batut gimnastikası və tamblinq üzrə ən yüksək icra xalı, eləcə də ilk dəfə olaraq batut gimnastikası üzrə sinxron proqramda ən yüksək sinxron xalı toplayan gimnastlar "AGF Trophy" kuboku ilə təltif ediliblər.

**Leyla QURBANOVA**
**XQ**

# Geosiyasi risklər investorları ABŞ birjalarına yönəldir

**Ötən həftə ABŞ fond fondları üçün yaxşı keçib. Belə ki, həftə ərzində beynəlxalq investorlar birjalara 12 milyard dollardan çox sərmayə qoyublar. İnvestorlar ABŞ-da iqtisadi vəziyyətin və Amerika şirkətlərinin maliyyə göstəricilərinin daha da yaxşılaşması ümidi ilə belə investisiyaların payını artırırlar. Daha yüksək geosiyasi risklər səbəbindən inkişaf etməkdə olan bazar fondlarına isə maraq azalır. Məsələn, ötən həftə Rusiyaya qarşı elan edilən yeni sanksiyalar paketləri Moskva Birjası indeksini aşağı salıb.**

"Emerging Portfolio Fund Research" (EPFR) şirkətinin son məlumatları göstərir ki, beynəlxalq investorlar ABŞ fond bazarında investisiyalarını aktiv şəkildə artırmağa başlayıblar. Rusiyanın "Bank of America" hesabatlarına əsaslanaraq məlumat verilir ki, investorlar fevralın 21-də başa çatan həftə ərzində bu cür səhmlərə yönəlmiş fondlara 12 milyard dollar sərmayə qoyublar və bu da ötən ilin dekabr ayının sonundan bəri ən yaxşı nəticədir. Bu, bir həftə əvvəl qeydə alınan rəqəmdən üç dəfə çoxdur. Hələ fevralın 9-da S&P 500 indeksi tarixdə ilk dəfə 5000 bəndi keçərək 5026,61 punkta çatıb. S&P 500 indeksinin illik artımı, S&P Dow Jones İndekslərinə görə, fevralın 9-da 22,58 faiz təşkil edib. İqtisadçılar qeyd edirlər ki, beynəlxalq maliyyə sisteminin mövcud olduğu tarixdən indiyədək fond bazarlarının dollarla ifadəsində kapitallaşmasında belə artım olmayıb. Hesablamalara görə, 2023-cü il oktyabrın 27-dən fevralın 7-dək ABŞ-ın bazar kapitallaşması 9 trilyon dollar artıb ki, bu da onun tarixində 103 təqvim günü ərzində ən güclü artım kimi tarixə düşüb.

ABŞ iqtisadiyyatı ilə bağlı məlumatlar investorların əhval-ruhiyyəsini yaxşılaşdırmağa kömək edir. Ötən ilin dördüncü rübündə ölkənin ÜDM-i 3,3 faiz (illiklə müqayisədə) artıb, analitiklər isə cəmi 2 faiz artım gözləyirdilər. Bütün ilin sonunda ABŞ iqtisadiyyatı 2,5 faiz artıb ki, bu da 2022-ci illə müqayisədə 0,6 faiz bəndi çoxdur. Davam edən hesabat mövsümü investorlara nikbinlik əlavə edir. "FactSet"in məlumatına görə, artıq hesabat verən şirkətlərin 75 faizi




analitiklərin səhm üzrə gəlir təxminlərini üstələməyi bacarıb.

Ancaq inkişaf etməkdə olan bazar fondlarına investor marağı ardıcıl ikinci həftədir azalır. Ötən həftə Çin fondlarının müştəriləri 2,7 milyard dollar sərmayə qoyublar ki, bu da bir həftə əvvəlki investisiyalardan 10 faiz və iki həftə əvvəlki investisiyalardan 8 dəfə azdır. İnkişaf etməkdə olan ölkələrdə səhm fondlarının bütün kateqoriyaları üzrə xalis cəlbedicilik də iki həftə ərzində səkkiz dəfə azalaraq 2,5 milyard dollar təşkil edib. Analitiklərin fikrincə, Çin səhmlərinə marağın azalması siyasi amillərlə bağlı ola bilər, çünki Donald Trampın prezident seçkilərində mümkün qələbəsinin ABŞ-Çin ticarət müharibələrinin intensivləşməsinə gətirib çıxaracağı ehtimalı böyükdür.

Rusiya fond bazarının təcrid olunmasına baxmayaraq, ötən həftə Qərbin sanksiyalarının genişlənməsi ona güclü mənfi təsir göstərib. Fevralın 22-də keçirilən ticarətin sonunda Moskva birjasının indeksi 3142,3 bənd təşkil edib ki, bu da əvvəlki cümə gününün bağlanış dəyərindən 3 faiz aşağıdır. Beləliklə, Moskva Birjası ilin əvvəlindən əldə etdiyi nailiyyətlərin əksəriyyətini itirib. Rusiyalı analitiklərin sözlərinə görə, menecerlər yaxın aylarda Rusiya fond bazarının perspektivlərinə ehtiyatla yanaşırlar. Belə bir proqnoz verilir ki, əmtəə bazarında vəziyyətin nisbətən sabit olmasına baxmayaraq, xaricdən sanksiya təzyiqinin pisləşməsi fonunda əhəmiyyətli axını gözləmək mümkün deyil.

**S.ELAY**
**XQ**

## "Simurq Kompani" ATSC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinin 2-ci bəndinə əsasən 2024-cü il aprelin 12-si saat 12.00-da Gəncə şəhəri, Heydər Əliyev prospekti 170 nömrəli ünvanda "Simurq Kompani" ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** "Simurq Kompani" ATSC-nin 2023-cü ildəki idarəetmə fəaliyyəti haqqında hesabatı.

**2.** "Simurq Kompani" ATSC-nin təftiş komissiyasının 2023-cü ilin yekunlarına dair hesabatı.

**3.** "Simurq Kompani" ATSC-nin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

**4.** "Simurq Kompani" ATSC-nin müşahidə şurası üzvlərinin və sədrinin seçilməsi.

**5.** "Simurq Kompani" ATSC-nin idarəetmə orqanının yenidən formalaşdırılması və direktorun seçilməsi.

**6.** "Simurq Kompani" ATSC-nin təftiş komissiyası üzvlərinin və sədrinin seçilməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi ilə yığıncağın keçirilməsinə 3 gün qalmışa qədər cəmiyyətin ofisində tanış ola bilərlər.

**Direktor**

## "A-QROUP" Sığorta Şirkəti yeni ünvanda

2024-cü il yanvarın 29-dan etibarən "A-QROUP" Sığorta Şirkəti öz müştərilərini Bakı şəhəri, Azadlıq prospekti 3 nömrəli ünvanda yerləşən yeni ofisində qarşılayır.

Şirkətin əlaqə nömrələri dəyişilməyib: *0909 / (012) 377 09 09.

"A-QROUP" " Sığorta Şirkəti 28 il ərzində onlara güvənən və təkrar bərabərlikdən məmnun olan müştərilərinə təşəkkür edir.

"Sizə minnətdar olaraq sizin üçün inkişaf edirik!" – sizin" A-QROUP " Sığorta Şirkətiniz.

## BİLDİRİŞ

"Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2023-cü il tarixli, 2353 nömrəli Fərmanı ilə ləğv edilmişdir.

Kreditorlar ləğv edilən hüquqi şəxsə qarşı tələbləri ilə əlaqədar 60 gün ərzində AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov Qardaşları küçəsi 99 nömrəli ünvana müraciət edə bilərlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 44 (30448) 27 fevral 2024-cü il, çərşənbə axşamı

Novruz marafonu

**Novruzun bayram edilməsinin dərin kökləri vardır və 3500 ildən çoxdur ki, bu milli bayram bütün atributları ilə elliklə qeyd edilir. Novruza qədər təşkil olunan rituallar xalqımızın milli mənəvi dəyərlər sistemində önəmli yer tutmaqla dünyanın yaranışında iştirak edən dörd ünsürlə–Su, Od, Hava və Torpaq ilə əlaqələndirilir.**

# Su çərşənbəsi



Bayrama qədər keçirilən çərşənbələrin birincisi su ilə bağlıdır. Çünki su həyatın başlanğıcı, yaşamağın əsas mənbəyidir.

Su çərşənbəsinin özünəməxsus özəllikləri var. Bu çərşənbəyə qədər evdə olan əşyalar su ilə paklanıb təmizlənir. Həmin gün tonqal qalanmır, şam yandırılmır, gün dönəndən sonra qohum-qonşuya evdən nə isə verilmir. Su qabları təzə su ilə doldurulur, stolun üstünə qrafində su qoyulur.

**Əvvəllər...**

Su çərşənbəsi mərasimində dan yeri söküləndə camaat elliklə axar suyun üstünə gedər, əl-üzlərini soyuq su ilə yuyardılar. İnsanlar su üstündən atlanar, bir-birilərinin üstlərinə su atardılar. Əski adətlərə görə, Günəşin şəfəqdə göründüyü vaxtda onun şüalarının sığal çəkdiyi su daha təmiz, daha müqəddəs sayılardı. Bu suda yuyunan adam diləyinə çatardı. Belə deyirlər ki, Xızır peyğəmbərin dirilik çeşməsindən su içdiyi və Koroğlunun Qoşabulaqdan köpüklü su götürdüyü gün məhz Əzəl–Su Çərşənbəsi günü olmuşdur.

Bizim qərb zonasında bu dörd vacib çərşənbədən öncə daha iki çərşənbə qeyd edilirdi: xəbərçi və yalançı çərşənbələr. Uşaqlar fallıqdan oğurluq-doğurluq yumurtaları aparıb doyüşdürər, ya əliboş, ya da qab dolu sınmış yumurta ilə qayıdardılar. Çıl-çırpı yığar, lopa düzəldər, Od çərşənbəsinə hazırlıq görərdilər.

**Bu gün...**

Xalqımız bayramaqədərki çərşənbələri adəti üzrə bütün ailə üzvləri ilə birlikdə qeyd edir. Həmin gün qohumlar, dostlar, tanışlar bir-birinin çərşənbələrini təbrik edirlər. Onlar arzularını bildirir, alqış edir, xoş sözlər deyirlər: su qədər ömrün olsun, aydınlığa çıxasan, həyatın su kimi təmiz olsun və s. Axşam bütün ailə şirniyyatla bəzənmiş süfrə başına toplanır, bir yerdə deyə-gülə şam edir.

Xalqımızın baharla əlaqədar gözəl adət-ənənələri çoxdur. Amma şəhər mühitində, bina evlərində bunların çoxusunu həyata keçirmək mümkün olmur. Borcumuz bu ənənələri təfəkkürdə, yaddaşlarda yaşatmaq, gələcək nəsillərə ötürməkdir.

Su Çərşənbəniz mübarək olsun!

*Zərifə BƏŞİRQIZI*
*XQ*

İdman

## Basketbol millimizin qələbəsi

**Kişi basketbolçulardan ibarət Azərbaycan millisi 2027-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının seçmə mərhələsində keçirdiyi 2-ci oyunda uğurla çıxış edib.**



Tahir Baxşıyevin baş məşqçisi olduğu komandamız doğma meydanda Kosovo seçməsi ilə qarşılaşıb. "Sərhədçi" İdman Mərkəzində keçirilən görüş millimizin 87:77 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan komandası qrupun ilk matçında səfərdə İsveçrəyə 53:72 hesabı ilə məğlub olmuşdu. Millimizin təsnifat mərhələsindəki digər rəqibi İrlandiya yığmasıdır.

## Gimnastımız "Paris-2024"ə reytinq xallarını artırıb

**Azərbaycan gimnastı Nikita Simonov Almaniyanın Kotbus şəhərində keçirilən Dünya kubokunda qızıl medal qazanıb.**




Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışda qələbə qazanmaqla idmançımız 30 reytinq xalı əldə edib ki, bununla da o, Dünya kuboku seriyası vasitəsilə Paris Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq şansını xeyli artırıb. Xatırladaq ki, Misirin paytaxtı Qahirə şəhərində fevralın 15-18-də keçirilən lisenziya xarakterli ilin ilk Dünya kubokunda Nikita Simonov 6-cı pillədə qərarlaşaraq 14 xal əldə etmişdi.

## "Karate 1 Gəncləri Liqası" – 3 medal

**Azərbaycan karateçiləri Birləşmiş Ərəb Əmirliklərinin Fujeyra şəhərində keçirilən "Karate 1 Gəncləri Liqası" turnirində 3 medal qazanıblar.**



Azərbaycan Karate Federasiyasından "XQ"yə bildiriblər ki, komandamızın aktivinə qızıl medalları qızlar arasında Gülay Orucova (59 kq), yeniyetmələrdən Nəsimi Musayev (70 kq) yazdırıblar. Gənclərin mübarizəsində isə Fərid Hacızadə (55 kq) bürünc medal qazanıb.

*Leyla SABİRQIZI*
*XQ*

Epidemioloji durum

# Qızılca vaxtında cilovlanmalıdır

**Qızılca ilə bağlı kritik durum hələ də davam edir. Ötən həftə Bakı şəhəri Səbail rayonu 51 saylı orta məktəbin 8-ci sinif şagirdi, 14 yaşlı Nuray İbrahimovanın qızılca xəstəliyinin ağırlaşması səbəbindən həyatını itirməsi xəbəri yayıldı. Qeyd edək ki, son vaxtlar ölkədə azyaşlı və yeniyetmələr arasında, hətta yaşlı insanlarda belə qızılca xəstəliyinin ağır keçməsi halları kəskin artıb və xeyli uşaq vəfat edib. Statistikaya görə, hər il uşaqların 95–96 faizi qızılcaya qarşı peyvənd edilir.**

Son 3 ildə Azərbaycanda qızılcaya yoluxanların sayı minimuma enib. Dövlət Statistika Komitəsi 2019-cu ildə 337 xəstədə qızılca diaqnozu qeydə alındığını göstərmişdi. Rəsmi məlumata görə, 2021-ci ildə qızılca qeydə alınmayıb, 2020–2022-ci illərdə 3 nəfərə qızılca diaqnozu qoyulub. Statistika da göstərir ki, adətən, qızılca geniş yayılmır, lakin bəzən çox sayda yoluxma qeydə alınır. Bu, adıçəkilən xəstəliyin yoluxucu xarakteri ilə bağlıdır.

Hazırda "Qızılcanın patogenlik və letallığı (ölüm törətməsi) yüksək olan yeni ştammı yayılıb" fikrini valideynlər kimi bəzi həkimlər də söyləyir və sosial şəbəkələrdə yazırlar. Bütün ölüm halları ilə bağlı xəbərlərdə ortaq bir fikir səslənir ki, hadisə müalicənin düzgün aparılmaması, yaxud həkimə gec müraciət edilməsi nəticəsində xəstəliyin ağırlaşması səbəbindən baş verir.

**Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Musa Qəniyevin qızılcanın belə sürətli yayılmasına, hətta ölüm hallarının baş verməsinə yeni ştammın səbəb olduğu fikrinə münasibətini öyrəndik. Professor yayılan fikirlərin əsası olmadığını bildirdi və dedi:**

– Bu fikirlər elmi əsası olmayan, insanları gərginlik və qorxu altında saxlayan cəfəngiyyatdan başqa bir şey deyildir. Qızılca virusunun bütün ştammlarına xas olan xüsusiyyət genom quruluşun 15894 nukleotid ardıcıllığından ibarət olmasıdır. Virusun A, B, C, D, E, F, G, H adlandırılan 8 qrup ştammı və 15 genotipi (yarımştamm) vardır. Müxtəlif dövrlərdə H1 (72), D5 (16), D9 (34), B3 (28), G3 (5) genotiplər qısa müddətli olsa da dominantlıq etmişdir. Lakin əksər dövrlərdə, eləcə də hazırda dominant olanlar D4(421), D6(174) və D8(816) kimi 3 genotipə məxsus ştammlardır.

Genom analizi bu ştammların nukleid ardıcıllığında heç bir kəmiyyət və ya struktur dəyişikliyi olmadığını təsdiq edir. Yəni hər üç genotipdə 15894 nukleotid sıralanması və aminturşu ardıcıllığı olduğu kimi saxlanılır. Başqa sözlə, virusun bir zəncirli RNT-sinin əsas zülalları olan NP (nukleokapsid zülal), M (matriks zülal), H (hemaqlyutinin) və hemolizində praktik əhəmiyyət kəsb edən struktur dəyişikliyi yoxdur. Fərqli mutant ştammlarda yalnız virusun hüceyrəyə daxil olmasına xidmət edən F zülalında dəyişiklik (aminturşu əlavəsi, itkisi və ya çarpaz bağlanma) baş verir. Bu əmsal Ro indeksini müəyyənləşdirdiyindən, patoqenlik və letallıq əmsalı ilə heç bir bağlılığı yoxdur. 10-un 9-a nisbətində yoluxdurma əmsalı da olduğu kimi sabit saxlanılır.

**– Hazırkı duruma, qızılca alovlanmalarına əsas səbəb "yeni ştamm" deyilsə, bəs nədir? Qızılca xəstəliyi hər dövrdə olub. Lakin heç zaman bu cür ağırlaşmalara təsadüf edilməyib.**

– Yuxarıda söylədiklərimə əsaslanıb deyə bilərəm ki, "hazırki epidemik alovlanmaya səbəb qızılcanın yeni ştammdır" fikri, tamamilə yanlış və əsassızdır. Alovlanmaya səbəb hələ iki il əvvəl dəfələrlə söylədiyim və yazdığım kimi pandemiya dövründə uzunmüddətli sərt karantin rejiminin tətbiq edilməsi, məlum səbəbdən peyvəndləməyə neqativ münasibətin yaranması və uşaqlar arasında vaksinasiyaya, o cümlədən qızılcaya qarşı "peyvəndləmə təqviminə" düzgün əməl olunmamasıdır. Çünki qızılca əleyhinə peyvəndin ilkin dozasının 85 faizdən aşağı olduğu lokal ərazilərdə qızılca epidemiyasının baş verməsi qaçılmazdır. Halbuki 2022-ci ildə bu rəqəm 83 faiz, keçən il isə daha aşağı faiz nisbətində (71 faizdən az) olmuşdur. Odur ki, hazırda peyvənd təqviminə düzgün əməl edilməyən bütün ölkələrdə, o cümlədən Azərbaycanda da qızılcada müşahidə edilən kəskin artım tamamilə qanunauyğun və gözləniləndir. Buna görə panika və qorxuya düşməyə heç bir əsas yoxdur. Yeganə səbəb, təkrar edirəm: peyvənd təqviminə əməl edilməməsidir.



Amma hazırda gərginliyin sürəti azalıb. Fevral ayının 3-cü ongünlüyündən başlayaraq vəziyyət normallaşmağa doğru gedir. Ara-sıra yoluxmaların isə Novruz bayramına qədər davam edəcəyi gözlənilir.

**– Professor, qızılcadan qorunmaq, yaxud yoluxduqdan sonra panikaya düşməmək, düzgün qulluq və müalicə seçmək üçün nə tövsiyə edirsiniz?**

– Yaxşı sualdır. Qızılca həmişə olub və olacaq. Onun xüsusi müalicəsi yoxdur, qulluq və hərarətə nəzarət diqqətdə saxlanılmalıdır. Qızılca uşaqlıq dövrünün infeksion xəstəliklərindən hesab olunur, virus mənşəlidir, özüsağalan xəstəliklər qrupuna daxildir. Yəni bu, o deməkdir ki, xəstəliyin xüsusi spesifik müalicəsi yoxdur. Qızılca xaraktercə stasionar müalicəyə ehtiyacı olmayan, ev şəraitində izolyasiya şərti ilə müalicə edilən xəstəlikdir.

Xəstəliyin yüngül keçməsi peyvəndlənməyə və immunitetə bağlıdır. Çox vaxt düzgün müalicə tətbiq edilmədiyindən ağırlaşma baş verir. Qızılcaya yoluxanlara ikincili mikrob infeksiyasının yoluxması təsdiq olunmadığı hallarda antibiotiklər, venadaxili inyeksiyalar, yaxud, antiviral preparat, xüsusən hazırda çox populyar olan "sistem" vurulması, immun sistemin supressiyası səbəbindən mütləq əks göstərişdir. Yalnız temperatur kritik həddə yüksəldiyi zaman parasetamol və ya həkimin məsləhəti ilə digər hərarətsalıcı preparatlardan yüksək olmayan dozalarda istifadə edilməlidir.

Bir daha təkrar edirəm: günümüzdə istər qızılca, istərsə də hər hansı digər bir virus infeksiyası ilə bağlı xüsusi qorxuya səbəb olacaq hal və ya epidemioloji vəziyyət yoxdur. Uşaqda hərarət 2 gün davam edirsə, həkimə müraciət edilməli və nəzarət artırılmalıdır.

**Z.HÜSEYNOVA**
**XQ**

Hava

## Hava yağmursuz və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 27-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 2° şaxtadan 2°-dək isti, gündüz 4-7° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 774 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 8-13°, yüksək dağlıq ərazilərdə 13-18°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

*Q.QASIMOV*
*XQ*

*✓ 2008-ci ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Namazov İlham İsmayıl oğlunun adına verilmiş MN seriyalı, 0038382 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ 2021-ci il sentyabrın 8-də "QALACIQ"MTK tərəfindən Həsənov İqbal Əlövsət oğlunun adına verilmiş Bakı şəhəri,Yasamal rayonu, Ş.Qurbanov küçəsi 19 nömrəli ünvanda yerləşən yaşayış binasının 1-ci mərtəbəsindəki ümumi sahəsi 680 kv metr olan qeyri – yaşayış sahəsinin 25/21 nömrəli maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının dosenti Qorxmaz Mustafayevə atası

**XANKİŞİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə baş sağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3817
SİFARİŞ 407
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00